Ataxan Paşayev

"Molla Nəsrəddin": dostları, düşmənləri

Ataxan Paşayev

“Molla Nəsrəddin”: dostları, düşmənləri

ÇAŞIOĞLU
2010

Ataxan Paşayev. "Molla Nəsrəddin": dostları, düşmənləri. Bakı: Çaşıoğlu, 2010 - 148 səh.

Əsasən ilk mənbələrə istinad edilərək yazılmış bu kitabda "Molla Nəsrəddin" jurnalının Şərq xalqlarının oyanmasındakı rolu, onun çar mütləqiyyətinə, burjuaziya–mülkədar zülmünə, Şərq müstəbidlərinə, habelə cəhalət və islam dininin ehkamlarına qarşı apardığı barışmaz mübarizəsi öz əksini tapmışdar. Eyni zamanda, əsərdə bu mübarizədə jurnalın qarşılaşdığı çətinliklər, onun dostları və düşmənləri haqqında da ətraflı söhbət açılır.

ISBN 978-9952-27-249-9

© Ataxan Paşayev, 2010
© "Çaşıoğlu" nəşriyyatı, 2010

Bir neçə söz

Azərbaycan mətbuatı tarixində əvəzsiz rol oynamış, XX əsr ictimai fikir və ədəbiyyat tariximizdə yeni dövr açmış, klassik irsimizin dəyərli abidələrindən biri, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərq ölkələrində siyasi satiranın ilk qaranquşu "Molla Nəsrəddin" jurnalı və onun nəşri tarixini öyrənməyin də böyük əhəmiyyəti vardır.

Öz nəşrinin ilk günlərindən başlayaraq köhnə dünya ilə ölüm-dirim mübarizəsinə girmiş "Molla Nəsrəddin" jurnalı təkcə Güney Qafqazda və Rusiyada deyil, Yaxın və Orta Şərq ölkələrində də geniş yayılmış və böyük şöhrət qazanmışdır. Jurnalın səhifələrində imperialist dövlətlərinin milli-müstəmləkə zülmü, çar mütləqiyyəti, Şərqdə - ilk növbədə İran və Türkiyədə istibdad quruluşu, orta əsr feodal qalıqları, xalq kütlələrini ağlasığmaz dərəcədə istismar edən burjua-mülkədar ağalığı, gerilik, cəhalət, ətalət, dini fanatizm, din xadimlərinin riyakarlığı çox cəsarətlə ifşa olunurdu.

Nə qaniçən şahlar, sultanlar, bəylər, mülkədarlar və milyonçu kapitalistlər, nə də fanatik ruhanilər jurnalın öldürücü satirasından kənarda qala bilmədilər. Buna görə də təkcə çar inzibati-idarə orqanları deyil, həmçinin müsəlman xan, bəy və ruhaniləri də "Molla Nəsrəddin"dən ciddi surətdə narazı qalırdılar. Nəşrinin ilk günlərindən məhz bu ünsürlər tərəfindən təqib olunan "Molla Nəsrəddin" jurnalı dəfələrlə bağlanır, ayrı-ayrı nömrələri müsadirə olunur, redaktorları məhkəmə məsuliyyətinə cəlb edilərək cəzalandırılırdı. İran və Türkiyə müstəbidləri də "Molla Nəsrəddin"i öz ölkələrinə buraxmır, onu ciddi surətdə təqib edirdilər.

Bunun əksinə olaraq, jurnalın dostları – Azərbaycanın mütərəqqi ruhlu ziyalıları "Molla Nəsrəddin" jurnalını daim müdafiə etmiş, onu hər cür təqiblərdən qorumuşlar. Müsəlman Şərqində də "Molla Nəsrəddin"i təqiblərdən qoruyan dostları az olmamışdır.

"Molla Nəsrəddin" jurnalının təqibi ilə bağlı bu və ya digər məsələlər Əmin Abid, Əziz Şərif, Əziz Mirəhmədov, Muxtar Qasımov, Qulam Məmmədli, Nazim Axundov və başqa tədqiqatçıların əsərlərində geniş şərh olunmuş, bir çox sənədlər haqqında mətbuatda ətraflı məlumat verilmişdir.

Bu sətirlərin müəllifi uzun illər müxtəlif arxiv və kitabxanalarda apardığı axtarışlar nəticəsində 1917-ci ilə qədər "Molla Nəsrəddin" jurnalının təqibi ilə bağlı çoxlu yeni sənədlər, faktlar və materiallar əldə etmişdir. Həmin tarixi sənədlərin böyük bir qismini "Azərbaycan arxivi" məcmuəsinin ayrıca bir nömrəsində ("Azərbaycan arxivi" 1972, № 1) çap etdirmişdi.

Əldə edilən yeni sənədlərin bir qismi haqqında respublika mətbuatında da məlumat və məqalələr verilmişdir ki, bu da elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Lakin toplanmış materialların çox hissəsi hələ də geniş oxucu kütləsinin diqqətindən kənarda qalmışdır.

Bütün bunları nəzərə alan müəllif ilk dəfə olaraq, bu əsərdə "Molla Nəsrəddin" jurnalının təqibi ilə bağlı məsələləri, onun dostları və düşmənləri arasında gedən mübarizəni çoxlu arxiv sənədləri, rəsmi və dövri mətbuat materialları əsasında geniş şəkildə işıqlandırmağa çalışmışdır.

Kitabda jurnalın əməkdaşları, müasirləri və ilk növbədə onun yaradıcısı və baş redaktoru, böyük ədibimiz C.Məmmədquluzadənin, onun həyat yoldaşı Həmidə xanımın xatirələrindən də geniş istifadə olunmuşdur. Əlbəttə, mollanəsrəddinşünas alimlərimizin uzun illər bu sahədə apardıqları qiymətli tədqiqatları ətraflı surətdə öyrənmədən və onlara istinad etmədən bu son dərəcə çətin və mürəkkəb məsələləri ardıcıl surətdə, əlaqəli şəkildə işıqlandırmaq və təhlil etmək olmazdı.

Bu əsərdə jurnalın təqibinə səbəb olmuş bir sıra karikatura və yazılar haqqında ilk dəfə məlumat verilmiş, onlardan bəzilərinin foto surəti də kitaba daxil edilmişdir. Burada həm də o zaman Rusiya im-

periyasında qüvvədə olan qanunların tələbinə görə "Molla Nəsrəddin" jurnalını müxtəlif məsələlərdə ittiham edən maddələr rəsmi məxəzlər əsasında şərh edilmişdir.

"Molla Nəsrəddin" jurnalının təqibi ilə bağlı məsələlərin sistemli şəkildə öyrənilməsi və təhlilini verməkdə məqsədimiz mədəniyyət və mətbuat tariximizin qızıl fonduna daxil olan jurnalın nəşri zamanı onu nəşr edənlərin üzləşdikləri çətinlikləri göstərməkdir.

Bu il "Molla Nəsrəddin" jurnalının yaradıcısı və əvəzolunmaz redaktoru Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin xüsusi sərəncamı ilə bu tarix ölkəmizdə geniş şəkildə qeyd olunur.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Abbas Zamanovun rəyi, filologiya elmləri doktoru, professor Firudin Hüseynovun redaktəsi ilə 1982-ci ildə "Gənclik" nəşriyyatında nəşr olunmuş və ilk mənbələr əsasında yazılan "Molla Nəsrəddin": dostları və düşmənləri" kitabının bu günki gəncliyimiz, ümumən mətbuat tariximiz və Mirzə Cəlili sevənlər üçün maraqlı olacağını nəzərə alaraq onu yenidən latın qrafikasında nəşr etdirmək qərarına gəldik.

Müəllif

«SİZİ DEYİB GƏLMİŞƏM...»

«Molla Nəsrəddin»i təbiət özü yaratdı,
zəmanə özü yaratdı».

C.Məmmədquluzadə

Ümumdünya tarixinin yeni dövrü, siyasi sarsıntılar və inqilabi çarpışmalar dövrünün başlanğıcını qoymuş 1905-1907-ci illərdəki birinci rus inqilabının tələtümə gətirdiyi ümumxalq mübarizəsinin güclü dalğaları Rusiya imperiyasının künc-bucaqlarına da çırpılaraq əks-səda doğururdu. Bu inqilab çar Rusiyasının ucqarlarında yaşayan məzlum xalqları da oyadaraq hərəkətə gətirdi, ümumi azadlıq mübarizəsinə qoşdu.

Rusiya fəhlə sinfinin inqilabi mübarizəsi qarşısında vahiməyə düşən çar hökuməti 1905-ci il oktyabrın 17-də manifest verərək riyakarlıqla söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları elan etməyə məcbur oldu. Lakin çar mütləqiyyətinin əsil məqsədi Rusiya xalqlarına həqiqi azadlıqlar vermək deyil, onların birliyini pozmaq və aralarına nifaq toxumu səpmək idi. 1905-1907-ci illərdə Zaqafqaziyada ermənilərlə azərbaycanlılar arasında baş vermiş qırğın buna əyani sübutdur.

«Təkamül» qəzeti bu manifesti «qorxu və vahimə kağızı» adlandırmışdı. Lakin rus-yapon müharibəsində

məğlub olaraq zəifləmiş çar mütləqiyyəti bir sıra güzəştlərə getməyə məcbur olduğu bir zamanda xalqlar, müvəqqəti də olsa, nisbətən azad nəfəs almağa imkan tapdılar. «Əzilmiş millətlərin baş qaldırmağa başladıqları», «özləri üçün hökumətdən növ-növ azadlıqlar tələb etdikləri» bir zamanda «öz dərdlərini qələmlə meydana qoymağa həris olan» Mirzə Cəlil də təkcə Azərbaycanda, Rusiya müsəlmanları arasında deyil, həm də müsəlman şərqində böyük şöhrət tapmış «Molla Nəsrəddin» kimi mübariz bir jurnal çıxarmağa müvəffəq oldu.

«Molla Nəsrəddin» jurnalının nəşrinə qədər C.Məmmədquluzadənin keçdiyi mühərrirlik məktəbinə ötəri nəzər saldıqda görürük ki, belə bir jurnalın nəşri ideyası böyük ədibdə birdən-birə meydana gəlməmiş, o, Azərbaycanda ictimai və sosial fikir inkişafının qanunauyğun nəticəsi, Mirzə Cəlilin uzun illərdən bəri inadlı yaradıcılıq axtarışlarının bəhrəsi və 1905-1907-ci illər birinci rus inqilabının bilavasitə təsiri ilə yaranmış abıhavanın nəticəsi idi.

Məlumdur ki, təkcə Azərbaycanda deyil, ümumiyyətlə Şərq aləmində zülm və əsarətə, istibdad quruluşuna, gerilik, ətalət və dini fanatizmə qarşı ilk dəfə öz mübariz səsini ucaldan, onu tam mənasında ifşa edən böyük mütəfəkkir yazıçı və filosof M.F.Axundov olmuşdur. O, Şərq ölkələrində geniş yayılmış «moizə və nəsihət» ədəbiyyatı

əvəzinə bütün gerilikləri ifşa edən «tənqidi əsər» yazmağı qarşıya məqsəd qoyurdu.

Görkəmli maarifpərvər Həsənbəy Zərdabinin nəşr etdiyi demokratik «Əkinçi» qəzeti M.F.Axundovun bu ideyalarının həyata keçirilməsində mühüm rol oynamışdı.

«Molla Nəsrəddin» jurnalının naşiri və baş redaktoru, böyük demokrat Cəlil Məmmədquluzadə jurnalın nəşrinə qədər uzun və çətin bir həyat yolu keçmişdir. Özünün də yazdığı kimi gözlərini dünyaya «Allahü-əkbər!» sədaları altında açan ədibin yetişməsi və dünyagörüşünün formalaşmasında onun fitri istedadı ilə yanaşı, Qori müəllimlər seminariyasında təhsil alması, burada qabaqcıl rus və dünya mədəniyyəti ilə tanışlığı da mühüm rol oynamışdır. Digər tərəfdən Şərq xalqlarının ədəbiyyatı, mədəniyyəti, adət və ənənələrinə dərindən bələd olması, habelə XIX əsrin axırlarında Naxçıvanda M.Sidqi, E.Sultanov, Q.Şərifov, M.Kəngərli və başqalarının daxil olduğu mühitə düşməsi də mühüm təsir göstərmişdir.

On beş ildən yuxarı etdiyi müəllimliyi çar inzibati idarələrində «çox da ürəyindən olmayan» bir qulluğa polis pristavının köməkçisi vəzifəsinə dəyişir. Burada da çox duruş gətirmir. Onu da vəkilliyə imtahan vermək üçün hüquq elmlərini öyrənməklə əvəz edən Mirzə Cəlil bu illər ərzində həyatda öz həqiqi yerini axtarırdı. Bütün bu illər ərzində böyük ədibi Məhəmmədhəsən əmilərin, Novruzəli-

lərin, Zeynəblərin ürəkləri yaxıb-yandıran və öz kəndlərinin, öz evlərinin hüdudlarından kənara çıxmayan ah-fəğanlarını və dad-fəryadlarını aləmə car çəkmək, onlara kömək əlini uzatmaq üçün yollar aramaq, tapmaq fikri bir an belə onu sakit buraxmamışdı. Mirzə Cəlil özü yazırdı: «Ancaq... hər nə işə gedirdimsə, gərək bir yekə kağız əlimə alıb, hekayədən, nağıldan cızmaqaralayaydım».

1903-cü ildə «xəstə övrətini» Tiflisə gətirən C.Məmmədquluzadə köhnə tanışı və yerlisi Məhəmməd ağa Şahtaxtlı ilə küçədə rastlaşır. Ədib özü bu görüşü belə təsvir edir: «Məhəmməd ağa küçədə mənə rast gəldi və apardı «Annona» yeməkxanasına. Orada məni qonaq elədi və məndən soruşdu ki, yazıdan-pozudan nəyin var? Mən cibimdən Novruzəlinin poçt qutusuna kağız salmaq hekayəsini çıxardıb verdim Məhəmməd ağaya. Ədibi-möhtərəmimiz hekayəni oxuya-oxuya elə şiddətlə gülürdü ki, qonşular bizə tərəf təəccüblə baxmağa başladılar. Buradan Məhəmməd ağa məni zorla apardı düşdüyüm «Qafqaz» mehmanxanasına və zorla mənim yatacağımı və şeylərimi qoydu faytona, məni apardı evinə ki, gərək qalam onun qəzeti üçün hekayə yazan olam».

Tiflisdə həyat yoldaşını itirən Mirzə Cəlil Məhəmməd ağa Şahtaxtlının təklifini qəbul edərək – onun naşir və redaktorluğu ilə, o vaxt Azərbaycan dilində çap edilən yeganə qəzet «Şərqi Rus»da əməkdaşlıq etməyə başlayır.

«Şərqi Rus» qəzeti «Molla Nəsrəddin» jurnalının gələcək redaktoru üçün ilk mühərrirlik məktəbi olmuşdur. O özü sonralar bu haqda belə yazırdı: «Şərqi Rus» qəzeti mənim üçün iki babətdən xoş, qiymətli yadigar olur:

Birinci tərəfi budur ki, möhtərəm ədibimiz Məhəmməd ağa Şahtaxtlı məni öz qəzetinin idarəsinə cəlb etməklə qəzet dünyasına daxil etdi. İkinci tərəfi odur ki, bu qəzetin idarəsində mən elə bir yoldaşa rast gəldim ki, onun varlığı ilə, onun yoldaşlığı ilə «Molla Nəsrəddin» məcmuəsini bina etdim».

Həmin şəxs Mirzə Cəlilin yaxın dostu və məsləkdaşı, görkəmli jurnalist və ictimai xadim Ömər Faiq Nemanzadə idi.

1903-cü ilin mart ayından nəşrə başlayan «Şərqi Rus» qəzeti çox ömür sürmür və 1905-ci ilin yanvarında öz fəaliyyətini dayandırır. Həmin ilin fevralında Mirzə Cəlil və Ömər Faiq tacir M.Ə.Bağırovun maddi köməyi ilə «Şərqi Rus»qəzetinin mətbəəsini alaraq ona «Qeyrət» adı verirlər. «Qeyrət» mətbəəsində onlar kitablar çap edir, müxtəlif sifarişlər yerinə yetirir, «Rusiya və Peterburq teleqraf agentliyinin» xəbərlərini də Azərbaycan dilinə çevirərək çap edib yayırdılar.

Mirzə Cəlil yazırdı: «Ah, necə arzu edirdim ki, mən də sahibi ixtiyar olub, ürəyimin dərdlərini meydana qoyub intişar edə biləm». Bu məqsədlə də Mirzə Cəlil

1905-ci il mart ayının 5-də Qafqaz canişininə müraciət edərəк «Novruz» adlı qəzet çıxarmaq üçün icazə istəyir. Sonralar o öz xatirələrində yazırdı: «... icazə istədiyim qəzetin adını «Novruz» qoymuşdum. Və ümidim bu idi кi, bir surətdə кi, xalqa azadlıq veriblər və bir surətdə кi, təzə bir zəmanə ortalığa gəlir, bəlкə bizim üçün də həqiqətdə təzə bir gün yazılıbdır. Və bəlкə də höкumət insafa gəlib bu qəzeti bizə şəfaqət etməкlə bizim də «Novruz»umuzun yavıqlaşmağına səbəb oldu».

Çox çətinliклərdən sonra həmin ilin yayında Mirzə Cəlilə «Novruz» adlı qəzet nəşr etməyə icazə verilir. Laкin həmin ilin avqustunda o, bu qəzetin nəşrindən imtina edir. Bununla əlaqədar «Tiflisкi listoк» qəzeti redaкsiyasına məкtubunda və «Molla Nəsrəddin» jurnalının nəşrinə icazə almaq üçün verdiyi ərizədə görкəmli ədib «bəzi səbəblərə» və «bir sıra mülahizələrə görə» «həmin qəzeti nəşr etməкdən imtina etdiyini» bildirir.

Belə bir təbii sual meydana çıxır кi, uzun müddət və təкidlə qəzet nəşr etməк üçün yollar axtaran və nəhayət öz istədiyinə müvəffəq olmuş bir şəxs nə кimi «səbəblər» və «mülahizələrə» görə belə tezliклə ona verilmiş hüquqdan «imtina edə» bilərdi?

Əgər Mirzə Cəlilin təbiri ilə desəк hələ də «üç yüz illiк Romanov höкumətinin istibdadı hələ polad кimi bərк»idisə, ictimai quruluşu tənqid etməк, öz istəк və ar-

zularını açıq şəkildə ortaya qoymaq mümkün deyildisə, buradan aydın olur ki, ədib xalqla ünsiyyət yaratmaq üçün başqa yollar axtarırdı. O, yazırdı: «Bunu da görürdük ki, icazə alsaq da «Şərqi Rus» kimi ya ruhanilərə təməllüq etməyə məcbur olacağıq ki, qəzetimizə prixod mollaları abunə olsunlar, ya da «Məzhər» qəzetinin sahibi Kamal Əfəndi kimi gərək canişin həzrətlərinə birinci nömrəmizdə qəsidə oxuyaq ki, hökumət yanında hörmətimiz olsun. ***Bircə bunu bacara bilmirdik.»***

Görkəmli ədib həm də başa düşürdü ki, «ürəyinin dərdlərini meydana qoyub intişar edə bilmək» və mütərəqqi ideyaların təbliği, «çirkin əməllərin» ifşası üçün xüsusi çərçivə daxilində nəşrinə icazə verilən qəzetlər xalqla əlaqəyə girmək, onların arzu və istəklərini əks etdirmək üçün olduqca dar bir meydan idi.

Böyük ədib daha uzaqlara baxırdı. O, elə bir mətbuat orqanına sahib olmaq arzusunda idi ki, mütləqiyyət quruluşuna, xalq arasındakı xurafata, ətalətə, nadanlığa, istibdada və imperialist dövlətlərinin Şərq ölkələrində yeritdikləri müstəmləkəçilik siyasətinə qarşı mübarizədə, xalqı ayıltmaq üçün kəskin və inanılmış bir silah olsun. Həm də o görürdü ki, çar istibdadının tüğyan etdiyi bir şəraitdə xalqla açıq-saçıq danışmağın özü də asan məsələ deyil.

Burada, əzilən istismar və təhqir edilən yoxsul xalq kütlələrinin əsrlərlə yaradıb yaşatdıqları Molla Nəs-

rəddin, Bəhluli Danəndə, lağlağı, hərdəmxəyal və bu кimi «məzhəкəçi» və «dəli» donu geyindirilmiş el müdriкlərinin obrazları daha yaxşı кara gələr. Sözü açıq demək çətin olsa da ona məcazi dil, «lənətə gəlmiş ezop dili» donu geydirərək vəziyyətdən çıxış yolu tapmaq mümкün olur.

Uzun axtarışlardan sonra, nəhayət, 1906-cı il fevral ayının 21-də, C.Məmmədquluzadənin özünün də qeyd etdiyi кimi, «müsəlman ədəbiyyatında əfsanəvi məzhəкəçi «Molla Nəsrəddin» adlı jurnal nəşr etməyə icazə almaq üçün ədib Tiflis qubernatoruna ərizə verir. Martın 4-də 874 №-li şəhadətnamə ilə Tiflis qubernatoru tərəfindən C.Məmmədquluzadəyə aşağıdaкı proqram üzrə jurnal nəşr etməyə icazə verilir: 1. Söhbətlər, 2. Kəsкin yązılar, 3. Felyetonlar, 4. Yumoristiк şerlər, 5. Yumoristiк teleqramlar, 6. Satiriк heкayələr, 7. Lətifələr, 8. Poçta qutusu, 9. Yumoristiк elanlar, 10. Xüsusi elanlar, 11. Kariкaturalar və rəsmlər.

Nəhayət, 1906-cı il aprel ayının 7-də (19-da) «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» – çağırışı ilə «Molla Nəsrəddin» jurnalı mübarizə meydanına girir. Bu jurnalın nəşri ilə Mirzə Cəlil Azərbaycan ictimai fiкir, ədəbiyyat və mətbuatı tarixində yeni dövrün «Molla Nəsrəddin» dövrünün əsasını qoyur.

Jurnal öz кəsкin satirası ilə istər imperializmin milli-müstəmləкə ağalığını, İran və Türкiyə despotizmini,

№ 8

ملا نصر الدین

Цѣна 12 к

۲۶ مای

قیمتی ۱۲ قپک

"Molla Nəsrəddin" jurnalının İran sərhəddində qarşılanmasını təsvir edən karikatura ("Molla Nəsrəddin", 1906, № 8)



1907-ci ildə "Molla Nəsrəddin" jurnalının bağlanmasına səbəb olmuş şəkil (1907, № 21).

istərsə də xalq kütlələrini ağlagəlməz dərəcədə istismar edən burjua mülkədar hökmranlığını ifşa edirdi. Qaniçən xanlar, bəylər və mülkədarlar, mövhumatçı ruhanilər jurnalın kəskin satira hədəfinə çevrilirdi. C.Məmmədquluzadə yazırdı: «Belə gülünc bir zamanda, belə quli-biyabani bir insanların tarixini yazmaq üçün əhval və ətvarını təsvir etmək üçün məgər «Molla Nəsrəddin»in yaranmağı təbii deyil? «Molla Nəsrəddin»i təbiət özü yaratdı, zamanə özü yaratdı».

Yenicə yaranmış jurnal qısa bir vaxtda öz ətrafında demokratik ideyalı Azərbaycan ziyalılarının böyük bir dəstəsini toplaya bildi. Yusif Vəzir Çəmənzəminlinin obrazlı ifadəsi ilə desək «ədəbi dövrün başçısı» Mirzə Cəlil və böyük inqilabçı satirik şair Mirzə Ələkbər Sabirlə yanaşı, jurnalın səhifələrində Azərbaycanın Ə.Haqverdiyev, M.S.Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar, Ö. F. Nemanzadə və başqa görkəmli yazıçı və şairləri də çıxış edirdilər.

«Molla Nəsrəddin» jurnalının geniş yayılması və böyük şöhrət qazanmasında onun İ.Şmerlinq, İ.Rotter və Azərbaycanın xalq rəssamı Əzim Əzimzadə tərəfindən böyük məharətlə çəkilmiş rəsm və karikaturalarının da rolu inkar edilməzdir.

Cəlil Məmmədquluzadə özü etiraf edirdi ki, «Molla Nəsrəddin» jurnalı tək bir nəfər müəllifin əsəri olma-

yıb, mənim bir neçə əziz yoldaşımın qələminin məhsuludur ĸi, mən də onların ancaq ağsaqqal yoldaşıyam».

Məmmədəli Sidqi öz xatirələrində yazır ki, «Molla Nəsrəddin» jurnalının təĸcə ĸeçmiş çar Rusiyası ərazisində, İran və Türĸiyədə deyil, habelə Ameriĸa, İngiltərə, Fransa, İtaliya, Hindistan, Çin, Finlandiya və başqa ölĸələrdə də abunəçiləri olmuşdır.

Hazırda «Molla Nəsrəddin» jurnalının ĸompleĸtləri Rusiya ilə yanaşı Paris, Kembric, Anĸara, İstanbul, Tehran, Helsinĸi və başqa şəhərlərin ĸitabxanalarında da mühafizə edilir.

«Molla Nəsrəddin» jurnalı təĸcə Azərbaycanda deyil, habelə Volqaboyu müsəlmanları arasında, Orta Asiya, İran və Türĸiyədə də inqilabi satirik mətbuatın əsasını qoymuşdur. «Molla Nəsrəddin» jurnalının təsiri altında Baĸıda «Bəhlul», «Zənbur», «Mirat», «Kəlniyət», «Məzəli», «Tuti», «Babayi Əmir». Yerevanda «Ləĸləĸ»; Orenburqda «Qarçıqa», «Çöĸüc»; Kazanda – «Yaşen», «Yalt-yult»; Həştərxanda – «Tup»; Təbrizdə – «Azərbaycan»; Rəştdə – «Nəsimi-Şimal»; Tehranda «Suri İsrafil», İstanbulda «Qaragöz», «Xoca Nəsrəddin» və başqa jurnallar çıxmışdır.

BÖYÜK AMALLAR CARÇISI...

«Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir... Bu ola gərək hər bir qələm sahibinin amalı!»

C. MƏMMƏDQULUZADƏ

XX əsrin əvvəllərindəki inqilabi çarpışmalar zəminində orta əsr durğunluğu şəraitində cəhalət içində boğulan yüz milyonlarla məzlum əhali ayılıb yeni həyat, insan üçün ən ibtidai hüquqlar uğrunda mübarizəyə qoşulduğu bir zamanda meydana gələn «Molla Nəsrəddin» jurnalı tezliklə təkcə Zaqafqaziya və Rusiya müsəlmanları arasında deyil, habelə bütün Yaxın və Orta Şərq ölkələrində geniş yayılaraq oxucuların sevimli jurnalına çevrilir.

Jurnal yarandığı ilk gündən «sözü aşkar söyləyərək» istibdad, cəhalət və fanatizmi qamçılayır, «az qala bütün dünya və aləmi bir-birinə vurur». ***«Böyük adamlara, hörmətli xanımlara, pullu bakılılara, şahlara, sultanlara sataşır».***

Şərqin məzlum zəhmətkeşlərinin dərdli qəlblərinin dərinliklərindən qopub gələn fəryadları, ah-nalələri «Molla Nəsrəddin» səhifələrində felyeton, şer və karikaturalara çevrilərək geniş əks-səda doğururdu. Jurnal etiraf edirdi ki, «hərədə bir azar var, bizimki də budur ki, ke-

çəl-küçəl, yetim-yesir və ac-uc müsəlman qardaşlarına birisi əziyyət edəndə götürürük qələmi və sağa-sola, qohum qardaşa, dost-aşnaya baxmayıb deyirik: ***dədəm mənə kor deyib, gəlib-gedəni vur deyib».***

Jurnal həqiqəti yazmaqla, eyham və kinayəli sözlərlə xalqı «xabi-qəflətdən oyadıb başa salmaq», bütün eyiblərini bir-bir üzlərinə sadalayaraq onların «gözlərini açmağa», «yaxşı və yamanı» seçməyə, «azadlığın qədrini bilməyə» çağırırdı.

O, yazırdı: «Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub o qədər «xa-xa!...» edib güldünüz... o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz... Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza».

Xalq işinin yorulmaz müdafiəçiləri, zəhmətkeşlərin ən yaxşı arzularının tərənnümçüləri olan mollanəsrəddinçilər və ilk növbədə onun ideya rəhbərləri Mirzə Cəlil və Ömər Faiq bildirdilər ki, əsrlərlə hökm sürmüş cəhaləti, dini fanatizmi tənqid etmək o qədər də asan məsələ deyildir. Burada onları hər cür məhrumiyyətlər gözləyir. Lakin xalqın gözünü açmaqda, onun düşmənlərini ifşa etmək və özünə tanıtmaq işində mollanəsrəddinçilər heç nədən qorxub çəkinmədi. Jurnal yazırdı: «Vallah sözü yenə

aşkar söyləmək lazımdır. Mətləbi gizlətməkdən fayda yoxdur. Onu demək istəyirəm ki, sözünü saxlayıb deməyən namərddir. Qorxunu mülahizə edib dərdi içində saxlamaq müsəlman arvadlarının sifətidir».

«Mətləbi gizlətməkdən fayda» görməyən «Molla Nəsrəddin» jurnalı mərdliklə mübarizə meydanına girdi. Heç kimə və heç kəsə aman vermədən, bütün mənfiliklləri ifşa etdi. «Açdı sandığı, tökdü pambığı». Özünə çoxlu düşmən də qazandı. Din xadimləri jurnalın redaktorunun «qətlinə fitva» verdilər, jurnalı isə «zibil çuvalı» adlandırdılar.

Ancaq «Molla Nəsrəddin» jurnalının tənqidi daim qərəzsiz, obyektiv və səmimi idi. Jurnal hər bir sosial hadisəyə zamanın tələbləri baxımından yanaşır, onlara bu tələblər səviyyəsindən qiymət verməyi bacarırdı. «Molla Nəsrəddin» hər bir fakt və hadisənin dərinliklərinə, necə deyərlər, «rişəsinə» nüfuz edir, onun əsas məğzini taparaq çılpaqlığı ilə aşkar edib üzə çıxarırdı. Jurnal, özü də yazdığı kimi, çox işlərə əl aparır, çox sirləri açır, pərdələri qovzayır, çox çirkabları qurdalayıb «üfunətini dünya və aləmə yayırdı». O hakim sinfin azğınlığını, din xadimlərinin riyakarlığını bütün açıqlığı ilə xalqa göstərirdi. Həm də jurnal təkcə faktları sadalamaqla öz işini bitmiş hesab etmirdi. Öz yazıları ilə «Molla Nəsrəddin» oxucularını dərindən düşünməyə çağırırdı. O, xalqı başa salırdı

kі, «mən bu sözləri ondan ötrü yazmıram kі, siz oxuyandan sonra məcmuəni qoyasınız kənara və bu sözləri yaddan çıxarasınız. Mən bu sözləri yazıram kі, siz oxuyub fikrə gedəsiniz. Mən bu sözləri yazıram kі, fikir edəsiniz, yazıram kі, fikir edəsiniz!»

«Molla Nəsrəddin» jurnalı ilk gündən öldürücü satira atəşini «vətən və xalqın düşmənlərinə» qarşı yönəldir. «Vətən və xalqın düşmənləri» dedikdə jurnal kimləri nəzərdə tuturdu? O öz satira silahını kimlərə qarşı tuşlamışdı? «Mikroblar» adlı felyetonunda buna dəqiq cavab verən Mirzə Cəlil yazırdı kі, «Qərinələrlə millətimizin şirin canına milyonlarla ac mikroblar daraşıb qanını sormaqdadır və məhz bu həşəratlardır milləti xəstə edən, məhz bu mikroblardır onu bədnam edən».

İnqilabi mübarizələr, sinfi vuruşmalar əsrində müxtəlif siniflər arasındakı antoqonizmi inkar etməyə çalışan, sərvətdarlarla yoxsul xalq kütlələri arasında milli «qardaşlıq», «bərabərlik» ideyası təbliğ edən boşboğaz burjua mühərrirlərini ifşa edən «Molla Nəsrəddin» göstərirdi kі, mən elə qarnıyoğunlar tanıyıram kі, o qədər dövləti var «Yava cəzirəsini satın ala bilər. Bəs aclar kimdirlər? Bunların öz rəiyyəti».

Belə «millət fədailərinə» gülən, onları ələ salan «Molla Nəsrəddin» göstərirdi kі, «İndi qələmnən təşəxxüs satma vaxtı deyil! İndi müsəlman qardaşlar sizdən xəbər

gözləyir ки, sadə yazı vasitəsilə müsəlman qardaşlarımıza xidmət edəsiniz.

«Qələmnən təşəxxüs» satan mühərrirləri ifşa edən jurnal yazırdı: «Nicat, nicat demәкlə nicat yolu öz-özünə tapılmaz». Yalnız mübarizə yolu ilə xalq «miкrobları öz bədənindən» кənar edə bilər. «Yoxsa nə göz yaşı tөкmәк-lə azarlı şəfa tapar, nə dua yazmaqla».

Jurnal zülm və istismar cəlladlarını xalqın canına daraşmış «zəli», «miкrob», «çəyirtкə», «həşarat» adlandıraraq onları iки böyүк zümrəyə ayırırdı. Onlardan birincilər çarlar, şahlar, sultanlar, xanlar, bəylər və onların muzdlu nөкərləri idi ки, xalqı zorla, cəbrlə, zülmlə itaətdə saxlayırdılar. İкincilər isə cəhənnəm qorxusu, allah, peyğəmbər xofu ilə xalqın şüurunu süstləşdirən, beyinləri кütləşdirərəк onu hörümçəк кimi zülm toruna salan din xadimləri idi.

Əmәкçi xalqa zülm etmәкdə dinlə siyasi irticanın, ruhaniliкlə mütləqiyyət üsuli-idarəsinin sıx əlaqədə olduqları, əlbir hərəкət etdiкləri «Molla Nəsrəddin» tərəfindən кəsкin satira atəşinə tutulmuşdur. O, şahları, sultanları, xanları, bəyləri, zavodçuları, fırıldaqçı din xadimlərini xalqın canına daraşmış «barama qurdları» adlandırırdı.

Xan və mollanın, yəni dinlə istibdadın möhкəm ittifaqını çox sərrast ifşa edən jurnal yazırdı ки, «Bir molla ilə, yainки bir xan ilə qanuni-əsasi olmaz, amma bir

mollanın yanına bir xan qoysaq olar qanuni-əsasi».

İlк nömrəsindən başlayaraq jurnal heç bir ayrı-seçkiliк qoymadan xalqın «irz, namus, can və mallarına» sahib olan II Nikolaydan tutmuş P.A.Stolıpin, S.Y.Vitte, P.P.Durnovaya qədər, sultan Əbdülhəmiddən tutmuş Tələt paşa, Zəki paşa, İzzət paşa, Şeyx Əbdülülaya qədər, Müzəffərəddin şah və Məmmədəli şahdan tutmuş Mirzə Ələsgər xan, Rəhim xan, Səməd xan, Murtuzaqulu xan, Bahadır Cəngə qədər... «Bakı padşahı» H.Z.Tağıyevdən tutmuş Şuşanın general-qubernatoru Qoloşapov, Zəyəm pristavı Oğarişşev, Naxçıvan naçalniki Engel və Şamaxı pristavı Cəbrayılova qədər onlar və yüzlərlə zülm və istibdad direklərini lənətlə damğalayırdı.

Jurnalda verilən çoxlu yazı və karikaturalar müəyyən ünvana, yerə, zamana və məkana yönəldilmişsə də əslində onlar öz təsir dairəsinə görə hüdudsuz idilər. Sabirin məşhur «Əkinçi» şerindəki:

Bağın, əkinin xeyrini bəylər görəcəkmiş,
Toxm əkməyə dehqanları neylərdin, ilahi?!
İş rəncbərin, güc öküzün, yer özününkü,
Bəyzadələri, xanları neylərdin, ilahi?!
Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət,
Dildadeyi-irfanları neylərdin, ilahi?!

kimi misraları Azərbaycandan tutmuş Orta Asiya, İran, Türkiyə və ümumən bütün Şərq ölkələrinin hər künc-bucağında zillət çəkən, zülm və cəhalət içində boğulan yox-

sulların ürəklərindən xəbər verir, onların arzu və istəklərini ifadə edirdi. Jurnalda Soltanabad və Mahmudabad kəndlərinin mülkədarlarını ifşa edən təsvirə eynilə Azərbaycanın, İran və Türkiyənin yüzlərlə və minlərlə kəndində hər gün, hər saat rast gəlmək mümkün idi.

«Molla Nəsrəddin» jurnalının bu qədər şöhrət qazanmasının, yayıla və sevilə bilməsinin başlıca səbəblərindən biri də məhz bu idi ki, onun yazıları yüz minlərlə əzilən, təhqir edilən, «ayaq altında pamal olan» və azadlıq üçün heç bir işıq ucu görməyən zəhmətkeş xalqın «ürəyindən tikan çıxarır», onların süstləşmiş və kütləşmiş duyğularını qıcıqlandırır, hərəkətə gətirirdi.

Jurnalın səhifələrində fəhlə sinfinin, yoxsul kəndlilərin ağır dolanışığı ürək ağrısı ilə təsvir olunurdu. Fəhlənin «zəfəranlı plovu, zəngin quş çığırtmasını, cücə ətini deyil» quru çörək olaydı yeyərdim» deyən fəryadı «Molla Nəsrəddin» səhifələrində sərvətdarlara qarşı kəskin ittiham kimi səslənirdi!

Jurnal fəhlələrin ağır vəziyyətini, onların vəhşicəsinə istismarını «səhər saat altıda kontora gəlib axşam saat onda azad» olduqlarını, «müsəlman xozeyinləri» onları kontora qataraq «qapıları bağlayıb», «lampa işığında» işlədib «allah yaradan gün işığına belə həsrət qoyduqlarını», «məvaciblərinin az», «zəhmətləri»nin həddindən artıq və rahatlıqlarının «əbədən olmamasını» real boyalarla təsvir edirdi.

Yoxsul kəndlilərə edilən və sədası «ərşi-əlaya» dayanan zülm və sitəmlərə qarşı mübarizə işi «Molla Nəs-

rəddin» jurnanlında ön plana çəkilirdi. O, xan, bəy və mülkədarlarla mübarizəyə girir, yoxsul kəndliləri ayıltmaq, başa salmaq üçün jurnal sadə dildə yazılır, kəskin və açıq-saçıq karikaturalardan istifadə edirdi. «Molla Nəsrəddin» jurnalı xalqın illərlə, əsrlərlə kölə vəziyyətində saxlandığını, yoxsulların adam yerinə qoyulmadığını, heç bir hüquq və ixtiyara malik olmadığını, xanların, bəylərin və mülkədarların onları qumarda belə uduzduqlarını özünün çox kəskin yazı və karikaturalarında ifşa edirdi. Jurnalın yazılarından birində oxuyuruq: «Mahmudabad kəndinin mülkədarı, yəni ağası Bəzzazəldövlə cənabları bu həftə dörd min tümən qumarda uduzub. Ona görə də öz rəiyyətindən bir qədər satmaq istəyir. Cavan oğlana biri iyirmi qran, cavan qıza biri on qran qiymət qoyub elan ediblər. Qiyməti çox baha qoyub ona görə də hənuz müştəri yoxdur».

Bu fikri jurnal Qurbanəli və Hümmətəli adlı iki kəndli arasındakı «Söhbət»də də əks etdirmişdir.

«Molla Nəsrəddin» jurnalının satira dili ilə ifşa etdiyi hadisələr əslində real həyat həqiqətləri idi. Məlumdur ki, 1907-ci ilin əvvəllərində Xorasan qubernatoru Rəknüddövlənin iştirakı ilə Kuçanda 300 kəndli qızı türkmən quldurlarına satılmışdı. Asəfüddövlənin zülmündən qaçaraq Rusiyaya pənah gətirmiş bir neçə min İran rəiyyəti Tehrana teleqram göndərərək qoyulmuş vergini ödəyə bilmədikləri üçün mülkədarlar tərəfindən onların qızla-

rını və arvadlarını zorla alaraq türkmənlərə satdıqları haqqında Tehrana - İran milli məclisinə şikayət edirlər. «Kaspi» qəzetində, Şiraz qubernatoru Qəvamül-mülkün əmri ilə 14 nəfər kəndli qızının satıldığı haqqında da xəbər verilmişdir.

Zəhmətkeş kəndlinin əkib-becərdiyi nemətləri yeyərək onlara «şıllaq atan», arabaya at və öküz əvəzinə kəndliləri qoşaraq qırmaclayan xanları, bəyləri, ağaları jurnal «mülkədar və əkinçi», «mülkədar və rəiyyət» kimi karikaturalarında kəskin satira atəşinə tuturdu.

Jurnal xalqı soymaqda hakim sinfə kömək edən, bir parça çörək üçün hətta öz mənliyini və vicdanını varlılara satan yaltaqları, ikiüzlüləri kəskin satira atəşinə tuturdu. O, yazırdı: «Soltanabad kəndinin rəiyyətləri öz mülkədarı Məhəmməd Bağır xanın üzünə durub, onun mülkədarlıq haqqını danıblar. Buna görə də Məhəmməd Bağır xan qoşun çəkib töküb rəiyyətin üstünə və başlayıb rəiyyəti qırmağa və axırda bilirsiniz ki, Məbhut (heyrətə qalan – A.P.) kimdən giley edir? Rəiyyətdən! Cənab Məbhutun xoşuna gəlməyir ki, rəiyyət xanın üzünə durur».

Jurnal göstərirdi ki, rəiyyət xanın üzünə duranda Məhəmməd Bağır xanın «qazanının dibini yalayan» məbhut başlayır müsəlmançılıqdan dəm vurmağa ki, müsəlman gərək müsəlmanın üzünə ağ olmasın». «Molla Nəsrəddin» yazırdı ki, «Bəli Adəm babamızın əsrindən indiyədək Məhəmməd Bağır xanlar atılıb miniblər rəiyyə-

tin boynuna və deyirlər ки, «Mən mülкədaram, sən də rəiyyətsən. Gərəк sən qazanıb verəsən mən evimdə oturub yeyim». Rəiyyət deyir: «Çox yaxşı qoy qazanım verim zəhrimarlan, amma dəxi məni döymə, söymə, namusuma toxunma və hər dəqiqə səbəbli və səbəbsiz məni təhqir etmə». Mülкədar deyir «Edəcəyəm canın çıxsın!»

Jurnal qeyd edirdi ки, rəiyyət «fürsəti qənimət bilib» öz insan olmağını büruzə verməк istəyəndə «xanların plov qazanlarının dibini qazıyan və süfrələrinin xır-xırdalarını ciblərinə dolduran» məbhutlar «siçan dəliyindən» başlarını çıxardıb başlayırlar qəzetlərdə yazmağa ки, «Ölən müsəlman, öldürən müsəlman, ağlayan müsəlman, gülən müsəlman». «Molla Nəsrəddin» göstərirdi ки, amma satın almış olsaydılar, məbhutlar gərəк belə yazardılar: «Ölən rəiyyət, öldürən xan, ağlayan rəiyyət,gülən xan !»

«Molla Nəsrəddin» jurnalı zəhmətкeş xalqın dözülməz həyat tərzini təsvir etməкlə öz işini bitmiş hesab etmirdi. Jurnal qarşısında xalqda öz güc və qüvvələrinə inam yaratmaq, onların qüvvələrini birləşdirərəк, ona mübarizлиk ruhu verməк vəzifəsini qoymuşdu. «Güc birliкdədir» çağırışı ilə jurnal oxucularını başa salırdı ки, zəhmətкeş xalq yalnız güc və qüvvələrini birləşdirərəк mübarizə aparmaqla zülm və əsarətdən azad ola bilər. O yazırıdı: «...indi Sədi əsri deyil. Boş-boş allahı çağırmaq-

la allah işlərini ötürüb, göydən yerə pilləкən qoyub, yenib gəlib sənə кöməк etməz. Lazımdır çalışmaq, çalışmaq, çalışmaq!»

«Molla Nəsrəddin» göstərirdi кi, yoxsullar nə qədər öz güc və qüvvələrini birləşdirib «bir-birinin fiкrinə qalmağı xoşlamayacaqlar» zülm və əsarətdən azad ola bilməzlər.

Jurnal xalqı başa salırdı кi, halva-halva deməкlə ağız şirin olmaz, oturub gözləməкlə hürriyyət almaq boş xəyaldır. Onu zorla əldə etməк, onun uğrunda «hədsiz davalar aparmaq, «hədsiz qanlar töкməк» lazım gələcəкdir.

Jurnal «Höкm və yaşamaq güclünündür!» deməкlə xalqı istismara qarşı mübarizədə güc və qüvvələrini birləşdirməyə çağırırdı. Mollanəsrəddinçi Ömər Faiq yazırdı кi, alınan azadlıq o vaxt möhкəm olar кi, o «beş-on şəxsin fədaкarlığı ilə deyil «əкsər camaatın» iştiraкı ilə alınmış olsun.

«Molla Nəsrəddin» zülmə, istismara, hüquqsuzluğa son qoymağın yeganə yolunu yalnız birliкdə və mübarizədə görürdü. O, zəhmətкeş xalqı əl-ələ verərəк birləşməyə çağıraraq yazırdı кi, «əgər istəyirsiniz кi, sizi də adam hesab eləyərəк məclislərə qoysunlar... əvvəlan gərəк bir-birinizlə əl-ələ verəsiniz. Yəni Məhəmmədvəli gərəк yapışsın Həsənin əlindən, Həsən Kərbəlayi Qasımın əlindən, Kərbəlayı Qasım usta Cəfərin əlindən, usta Cəfər

Məşədi Haqverdinin əlindən. Xülasə cəmi həmşərilər gərəк yapışsınlar bir-birinin əlindən; yəni birləşsinlər!»

Jurnal göstərirdi кi, yalnız ələ-ələ verərəк birləşdiкdən sonra siz istibdad dirəкlərinin atasına od vura bilərsiniz.

«Molla Nəsrəddin» səhifələrində dərc olunmuş yazıların çox az bir hissəsindən yuxarıda gətirdiyimiz misalları ümumiləşdirib, belə bir nəticəyə gəlməк olar кi, jurnal təкcə Azərbaycan xalqının deyil, həm də Rusiya müsəlmanlarının, habelə Şərqin, xüsusilə İran və Türкiyə zəhmətкeşlərinin inqilabi şüurunun oyanmasında, onların öz qüvvələrini səfərbərliyə almasında, habelə bu ölкələrdə satiriк mətbuatın yaranmasında müstəsna rol oynamışdır. Hələ 70 il bundan əvvəl Sabir yaradıcılığının İran inqilabına təsirindən bəhs edən Abbas Səhhət yazırdı: «Mən iddia edirəm кi, Sabir əfəndinin də asari bu beş ilin müddətində İran məşrutəsinə bir ordudan ziyadə xidmət etmişdir». Onun bu fiкrini artıqlaması ilə «Molla Nəsrəddin» jurnalına da aid etməк lazımdır.

Tehranda nəşr olunan «Varlıq» jurnalının 1980-cı ildə buraxılmış 13-cü nömrəsindəкi məqalələrin birində oxuyuruq: «Vətənimizin tarixi heç zaman «Molla Nəsrəddin» jurnalının İran inqilabına göstərdiyi qiymətli xidmətləri unutmayacaq».

Bilavasitə «Molla Nəsrəddin» jurnalının təqibi ilə

bağlı məsələlərin şərhinə keçməzdən əvvəl jurnalın onunla eyni vaxtda çıxan digər mətbuat orqanları qarşısında qoyduğu başlıca tələblərə, bu sahədə tutduğu yola və yeritdiyi xətti-hərəkətə qısaca nəzər salaq. Bu bir də ona görə lazımdır ki, həmin məsələlərin şərhi o dövrün digər mətbuatı tərəfindən «Molla Nəsrəddin» jurnalına hücumların məqsəd və mahiyyətini bütün aydınlığı ilə başa düşməyə imkan verir.

Mirzə Cəlil «Molla Nəsrəddin» jurnalını böyük bir iftixarla səhifələri «Camayi-Abbasi» yada salan bir para cəridələrə» qarşı qoyurdu. «Molla Nəsrəddin» jurnalı «Həyat», «Tazə həyat», «Tərcüman», «Füyuzat», «Yeni füyuzat», «Şəlalə» və başqa bu kimi qəzet və jurnalların məsləkini, tutduqları yolu, köhnəlik qalıqlarını qoruyub saxlamaq təşəbbüslərini, islam dininin müdafiəsini, panislamizm, pantürküzm və burjua millətçilik ideyalarını yaymalarını ciddi surətdə tənqid atəşinə tuturdu.

«Molla Nəsrəddin» jurnalı yazıçı və jurnalistlərin işini həkimlərin işi ilə müqayisə edərək göstərirdi ki, əsil təbib odur ki, xəstənin dərdini düzgün müəyyən edə və lazım olan dərmanları verməklə ona «müalicə yolunu göstərə». Əgər yazıçı, mühərrir xalqa yol göstərmir, yalnız boş ibarələrlə xalqı aldadırsa, onda bu «boşboğaz yazıçılarımız da oxşayırlar həmin təbiblərə ki, azarlının nəbzinə baxandan sonra, «xudahafiz» deyib börklərini axtarırlar».

Məlumdur ки, hər hansı bir cəmiyyətdə yaşamaq və eyni zamanda cəmiyyətdən azad olmaq mümкün deyildir. «Sinfi sülh», «qardaşlıq», «bərabərliк» кimi riyaкar ideyalar təbliğ edən, əslində isə azadlıqları varlıların «pul кisəsindən» asılı olan mühərrirlər özlərini xalqın xeyirxahı кimi qələmə versələr də həqiqətdə sərvətdarların istədiкlərini yazmağa məcbur idilər. Hələ 1906-cı ildə belələrinin iкiüzlü siyasətini tənqid edən N.Nərimanov yazırdı: «Bədbəxt mühərrirlər!... Özünüzü ağalarınıza oxşadıb tədbirsiz bir qələmlə camaata yol göstərirsiniz!... masкanızı atınız, yoxsa vaxt gələr ки, zəmanə özü masкanızı üzünüzdən qopardıb darmadağın edər».

«Molla Nəsrəddin» jurnalı 1908-ci il 9-cu nömrəsində verdiyi «Bitərəf müsəlman yazıçısı» adlı seŕiya кariкaturada bu cür yazıçı və mühərrirləri rüsvay etmişdi. Birinci vəziyyətdə vicdanının səsinə qulaq asan yazıçı deyir: «Milləti pamal edən dövlətlilər, bəylər və mollalardı». İкinci şəкildə vicdanı ilə sövdələşərəк onu sərvətdarlara satan «bitərəf yazıçı» onlardan rüşvət alır. Üçüncü şəкildə öz vicdanını artıq dövlətlilərin puluna satmış «bitərəf yazıçı» sözünü dəyişərəк: «Dövlətlilər millətin fəxri və atasıdırlar» deyir. Dördüncü şəкildə varlılar və mollara «bitərəf yazıçı» üçün qonaqlıq düzəltmişlər. Beşinci şəкildə isə artıq öz vicdanını tamamilə varlıların pul və yeməyinə satan yazıçı: «tacirlər öz yerində, mollalar da öz

yerində, rəiyyətin də borcu bunlara itaətdir» deyir.

Jurnal «Məsləк» adlı felyetonunda «Tazə həyat» qəzetinin «Qəzetçi gərəк heç кəsi özündən incitməsin» кimi çağırışını tənqid edərəк yazırdı кi, «Dəxi bundan aşкar söz ola bilməz. Əgər qəzetçi camaatı özündən incitsə, dəxi кimə lazım olacaq onun qəzetəsi. Biz bunu çoxdan bilirik...amma allah şeytana lənət etsin, qoymadı düz yolumuznan gedəк. Elə əvvəlinci nömrədən başladıq bic-bic sözlər yazmağa, ona sataşmağa, buna dolaşmağa, deməк кi, «açmamış qapı» qoymadıq və axırda hamını özümüzdən incitdiк...Yəni doğrudan da buda işdi кi, qələmi al əlinə yetənə yet, yetməyənə bir daş at».

Cəmiyyətin siniflərə bölünməsini və sinfi mübarizəni inкar edən «ədalət», «müsavat», «birliк» bayrağı altında «milli birliк» xatirinə millət daxilində «sinfi sülh» yaratmağa çalışanları ifşa edən «Molla Nəsrəddin» göstərirdi кi, кəndli ilə mülкədar, кapitalist ilə fəhlə arasında heç vaxt «birliк və bərabərliк ola bilməz». Jurnal yazırdı кi, «Nur ilə zülmət, od ilə barıt bir yerdə dura bilmədiyi кimi, xurafat ilə həqiqət, cahilanə təəssüblərlə siyasi fiкirlər də bir yerdə dura bilməz».

İкiüzlü yazıçı və mühərrirlərə istehza edən, onları lənətlə damğalayan «Molla Nəsrəddin» onlardan tələb edirdi кi, «beş gün rahat bozbaş yeməкdən ötrü millətin evini yıxma! Yazma! Yazma! Yaz doğrunu yaz, bildiyini yaz! Götür, götür surətindən masкanı!»

Əhmədbəy Ağayevə müraciətlə «Molla Nəsrəddin» soruşurdu ĸi, «İrşad»da iri xətlərlə yazırsan «Hürriyyət, müsavat, ədalət !» Hələ hürriyyət və ədalət qalsın, bu barədə danışmayaq, çünĸi indiĸi zamanda eyibdir belə sözləri danışmaq. Müsavatdan bir qədər söhbət eləyəĸ.

Hələ «müsavat» nədir? Yəni sənin sözündən bu çıxır ĸi, bir ĸəndli ilə bir xan qabağ-qabağa gələndə ĸəndli xana baş yendirsə, xan da ĸəndliyə baş yendirsin? Sənin sözündən bu çıxır ĸi, bir gün rəiyyət ağanın ayağına duranda, o biri gün də ağa rəiyyətin ayağına dursun? Mən ölüm Əhmədbəy lotu-lotuyana mənə bir de görüm heç görübsən və eşidibsənmi ĸi, xan ĸəndlinin salamının cavabında ona deyə: «əleyĸəssalam? Mən bu işləri çox görmüşəm ĸi...ĸəndli salam verəndə xanlar və ağalar deyiblər: «cəhənnəm ol!»

«Tazə həyat» qəzetinin müəllifi oxucularına məsləhət görürdü ĸi, məsləĸi «İttihadi-islam» olan şəxs üçün milləti təqsim etməĸ və onun içindən bəy, xan, molla, rəiyyət sənətĸar qismi ayırmaq yaramaz». Qəzetin bu çağırışını ĸəsĸin tənqid edən jurnal yazırdı: «Bax nə demişəm eylə doğru söz budur ĸi, «Tazə həyat» deyir, rəiyyət ilə mülĸədar və bəy gərəĸ bərabər ola vəssalam. Eylə bizim də sözümüz budur və bu sözdən qaçan namərddir».

«Tazə həyat» müəllifi yenə həmin məqaləsində yazırdı: «Mülĸədarlar gərəĸ rəiyyətə pərəstişĸarlıq edib hər

yerdə onun təlim və tərbiyə işinə, tərəqqisinə səy etsinlər». Ona cavab verən «Molla Nəsrəddin» bildirirdi ki, «Biz bu işlərin hamısını mülkədarlara peşkəş edirik, ancaq mülkədarlar qırğı əllərində ova gedəndə rəiyyəti küçədə görüb deməsinlər: «A köpəkoğlu niyə mənə baş əymədin». Elə bircə bunu deməsinlər kifayətdir, qalan işlərin hamısı mülkədarlara qurban olsun».

«Molla Nəsrəddin» səhifələrində çox tənqid olunan qəzetlərdən biri də İsmayılbəy Qaspirallı Krımın Bağçasaray şəhərində nəşr etdiyi «Tərcüman» idi. Müsəlmanları inqilabi mübarizədən çəkindirməyə çalışan «Tərcüman» 1907-ci il 36-cı nömrəsində beş nəfər müsəlmanın islam məzhəbini atıb «işçilər» məzhəbini qəbul etdiyinə və iki nəfər vəkil yenə müsəlmançılıqdan çıxıb, «sosial-demokrat məzhəbinə daxil olduğuna görə onlardan narazılıq edir. «Tərcümanın fitvası» adlı felyetonunda «Molla Nəsrəddin» jurnalı göstərirdi ki, «Tərcüman» ideoloqlarının məsləki nadan mollaların məsləkindən geri qalmır. Çünki il yarım əvvəl Tiflisdə «bir para müsəlmanlar qırmızı bayraq götürüb, «Yaşasın hürriyyət!» deyib küçələri dolaşanda mollalar da camaata buyururdular ki, «Baxmayın bu axmaqların sözünə, bunlar müsəlmançılıqdan çıxıblar!»

«İşçilərin» məramnaməsindən, xüsusən oradakı «xüsusi» mülklərin alınaraq zəhmətkeşlərə təqsim olun-

masɪ» tələblərindən narazı qalan «Tərcüman» onların bu tələbini şəraitə zidd bir iş kimi qələmə verərək yazırdı ki, «belə olan surətdə mülk sahibləri razı olmayacaqlar və onlardan alınan mülklər qəsb olacaqdır və bu mülklərdə namaz qılmaq olmayacaq».

«Tərcüman»ın bu kimi yazısına «Molla Nəsrəddin» istehza ilə deyirdi ki, «Demək, «Tərcüman»nın fərmayişindən bu çıxır ki, məsələn, bütün Maku xanlığında tək bircə Murtuzaquluxan qıldığı namaz dürüstdür və əgər Maku torpağının istər bir qarışı da rəiyyətin birinə verilə və rəiyyət həmin bir qarış yerdə namaz qıla, namazı batil olacaq».

Mübariz ruhlu «Molla Nəsrəddin» jurnalı xalqı pessimizmə, tərkidünyalığa, bədbinliyə sürükləyən, bununla da onların əl-qolunu işdən– gücdən soyudan, onlarda süstlük, durğunluq, öz fərəhsiz və sönük həyatları ilə barışqanlıq kimi sifətlər aşılamağa çalışan təbliğatın qatı düşməni idi.

O, xalqda mübariz və nikbin ruh, həyata və öz gücünə möhkəm inam hissi təbliğ edirdi. «Yeni həqiqət» qəzeti müəllifinin:

Bir səs gəliyor bana ki, ağla!
Qarı gibi yox, kişi tək ağla!
Sabir nə səbəbə ağlayorsan?
Ağla vətən üçün ağla, ağla!

kimi «çağırış»larının vətən övladları üçün heç nə verə bilməyəcəyinə acı-acı gülən «Molla Nəsrəddin» belə yazıları ələ salaraq tam kinayə ilə qeyd edirdi:

«Şair, İgidim kişi tək (?) ağla,
Budur vətənə əlac: ağla !»

(Kursiv bizimdir – A.P.)

Əslində «bir kokardalı böyük görəndə baş endirən», yalançı və riyakar millətçilər xalqlar arasında millətçilik ideyaları yayır və nifaq toxumu əkirdilər. Bu cür burjua millətçiləri də «Molla Nəsrəddin» jurnalının satira hədəfindən kənarda qala bilməmişlər. Jurnal yazırdı ki, bir para yazıçılarımız «qələmi əllərinə alan kimi» yalandan başlayırlar: «Ay mənim yaxşı millətim! Qadan alım ay mənim millətim! Nə qədər canım sağdır, hazıram sənə canımı fəda edəm ay mənim gözəl millətim! Ay millətlərin padşahı millətim!»

Jurnal göstərirdi ki, «millət» onun vətəndaşlarından ibarətdir. Özünü millətə qurban edənlər millətin sıravi vətəndaşlarını küçədə görəndə onlardan «ikrah eləyir» və «iyrənirlər»lər. Əslində bu cür üzdəniraq millətpərəstlər xalqa daha çox zərər vururlar. Millətlər arasında təfriqə salanları, onları bir-birinə qarşı qoymağa çalışanları jurnal «Üç yüz milyon» adlı felyetonunda güclü satira atəşinə tutur. Tam beynəlmiləlçilik mövqeyində duran və həmişə yalnız yoxsul və istismar olunan xalqın tərəfini tutan «Molla Nəsrəddin» yazırdı ki, İvanla Məşədi Həsən arasında kiçik bir ixtilaf olduqda, İvan Məşədi

Həsənin «qatığını tökdükdə», millətlər arasında təfriqə salmağa cəhd edərək onları bir-birinin üstünə salmağa çalışan «millətpərəstlər» bundan öz məqsədləri üçün istifadə etmək istəyirlər. Belələrini ifşa edən jurnal göstərirdi ki, «Amma mən deyirəm belə millətpərəstliyin istiotu bir az çoxdur, az qalır adamın ağzını yandırsın. Mən belə qanıram ki, İvan əgər qəflətən Məşədi Həsənin qatığını tökmüş olsa, günahı o qədər azdır ki, bundan ötəri minbərə çıxmaq lazım deyil. Əgər qəsd ilə tökmüş olsa, burada İvana bir balaca nəsihətdən savayı heç özgə bir atılıb-düşməyə ehtiyac yoxdur».

«Molla Nəsrəddin» milliyətindən asılı olmayaraq, məhz bütün zəhmətkeş xalqın düşmənlərinə qarşı mübarizə mövqeyində dururdu. O, dünyəvi elmləri, qəzet və jurnal oxumağı avam camaata hər gün, hər saat «haram» buyuranları, xalqı ayılmağa qoymayanları həqiqi düşmənlər elan edirdi. O, yazırdı ki, «İvan Həsənin qatığını vurub yerə tökəndə üç yüz milyon müsəlman tərəfindən İvana üç yüz milyon nifrət teleqramı işləyir. Amma Ordubadda Seyid Murtuza və «Ağ Seyid»in oğlu poçta yoluna adamlar düzüb qəzet oxuyanları asdırıb-kəsdirəndə biz dinmirik».

Ədəbiyyatşünas Ə.Mirəhmədovun çox haqlı olaraq yazdığı kimi, tənqiddə son dərəcə obyektiv, vicdanlı, doğruçu və eyni zamanda, ədəbli və nəzakətli olmaq heç vaxt ədəb və mərifət dairəsindən kənara çıxmamaq «Molla Nəsrəddin» üçün müqəddəs qanunlardan biri idi. «Molla Nəs-

rəddin» mətbuatdan şəxsi-qərəzlик məqsədləri üçün istifadə etməyin barışmaz düşməni idi. Jurnal yazırdı: ***«...tfu o kəslərə ki, şəxsi qərəzləri tutan vəqt qələmi mürəkkəbə batırıb mətbuat aləmini iftira və böhtan ilə murdarlamaqdan xəcalət çəkmirlər».***

Düşmən cəbhənin bütün söyüşləri və hətta açıq təhqirləri belə «Molla Nəsrəddin»in təmkinini poza və onu ədəb dairəsindən kənara çıxara bilmirdi. O, heç vaxt Molla Nəsrəddin olduğunu yaddan çıxarmır və yazırdı ki, «Belə mərsiyəxan lənətləri mənə yaramaz. ***Çünki mən Molla Nəsrəddinəm! Mən yalan danışmaram !»***

Məhz bu məsləkinə, tutduğu yolda dönməzliyinə, cəmiyyətdəki nöqsanlara qarşı barışmazlığına, həm də bu yolda heç kimə və heç nəyə güzəştə getməməsinə görə idi ki, düşmənləri onu «söyürlər», «baykot edirlər», hətta «puç etmək» niyyətinə belə düşürdülər.

Jurnal 1909-cu il 29-cu nömrəsində dərc etdiyi «Molla Nəsrəddin» başlıqlı yazısında bu məsələlərə işarə edərək göstərirdi ki: «Oxucularımıza gərək məlum ola ki, məcmuəmizi başlayıb yazandan indiyədək başımıza nə qədər işlər gəlib... bizi söyüblər, baykot ediblər və axırda iş o yerə yetişmişdi ki, düşmənlərimiz bizi puç etmək niyyətinə düşmüşdülər. Və lakin əcəlimiz tamam deyilmiş».

Sonra «Molla Nəsrəddin» qeyd edirdi ki, biz həmişə gözləyirdik ki, jurnalımıza abunə olan olmayacaq və

o öz-özünə bağlanacaqdır. «Və belə şeyi gözləməyə haqqımız da var idi. Biz böyükləri, şah və sultanları pisləyəndə qəzetlərimiz onları mədh eləyirdi və hətta qəzetlərin bir parəsi bizim adımızı laməzhəb qoyub möminləri yığmışdı başına ki, öz müştərilərini artırıb bizi ortalıqdan götürsün. İş o yerə dayandı ki, iki il bundan qabaq cəmi Ordubad, İrəvan və Naxçıvan müştərilərimiz bizi qəzetlər vasitəsilə bayкot etdilər». Lakin jurnalın özünün də yazdığı kimi onun əleyhdarlarının bütün bu ciddi cəhdləri heç bir səmərə vermir və ümidləri boşa çıxırdı. «Molla Nəsrəddin» jurnalının oxucuları yenə də başqa qəzetlərin oxucularından çox olurdu. Jurnal yazırdı: «Gərək indi qəzetə aləmindən xəbəri olanlar bilələr ki, Qafqazda indiyədək nə qədər qəzet və jurnal çıxıb cəmisi müştəri cəhətdən daim ac olublar. Amma bir gün də, bir dəqiqə də olmayıb ki, biz müştərilərin azlığından şikayət edək. «Molla Nəsrəddin» oxucuları qeyri qəzetlərin oxucularından həmişə çox olub».

1911-ci ildə Mərvdən və Teymurxan-Şuradan «Molla Nəsrəddin»ə məktub göndərən oxucular jurnala məsləhət görürlər ki, «bir para mətləblərə əl vurmasa» onun müştəriləri daha da çox olar. Qüdrətli satira ustası Mirzə Cəlil oxucularının həmin «məsləhətinə» cavabında bildirirdi ki, ***«hərənin bir etiqadı var, hər cəridənin bir məsləki var, hər yazıçının bir mətləbi var; yoxsa işlər bi-***

hudə deyil, heç bir şairə demək olmaz – elə yazma, belə yaz; heç bir məsləк sahibinə demək olmaz кi, qandığını at, mən qandığımı tut».

«Məsləкini qara pula satmayan və öz başa düşdüyünü sidqi-dildən yazan cəridənin» avama xoş gəlməyəcəyini bilən «Molla Nəsrəddin» redaкtoru açıqca bildirirdi кi, jurnalın məqsədi ***«vəhşi adətləri ortadan götürmək yolunda çalışmaqdır».*** O, qəti surətdə elan edirdi кi, ***bu yoldan onu heç nə döndərə bilməz.»... Yenə cürət edib deyirik кi, abunə mülahizəsi məsləкimizə təğyir verə bilməz və oxucularımız dağılıb ta bircə nəfəri qalınca yazacağıq, yazacağıq. Həmin dairədə yazacağıq кi, altı ildi yazırıq və bu altı ilin ərzində yazdığımız sözləri bu saat yenə min dəfə təкrar edirik».***

ƏKİZ DOĞULDULAR...

«Ölü sükutu çökmiş bu «zülmət səltənəti» içərisində ancaq «Molla Nəsrəddin» jurnalı Valpurgiya gecəsinə baxaraq dəlicəsinə qəhqəhə çəkir...»

S. AĞAMALIOĞLU

Öz ürəyini xalq yolunda məşələ çevirmiş «Molla Nəsrəddin»in naşirləri xalqı, daim zillət çəkən zəhmətkeş kütlələri ayıltmaq üçün özlərini oda-alova vursalar da, yanıb kül olmadılar, bərkidilər, yetkinləşdilər, mətinləşdilər və nəticədə qarşılarına çıxan hər cür maneəyə mərdlikla sinə gərdilər. Heç nə, sözün əsl mənasında heç nə, nə ölüm qorxusu, nə çar senzurası, nə canişin və qubernator hədəsi, nə də din xadimlərinin fitvası Mirzə Cəlil və onun qələm dostlarını öz yollarından döndərə bilmədi.

Görkəmli mollanəsrəddinçi, böyük yazıçı Ə.Haqverdiyev jurnalın nəşri ilə əlaqədar Mirzə Cəlillə söhbətini xatırlayaraq yazırdı: «Mirzə deyərdi: «düşmənnən qorxan adını mühərrir qoymağa haqlı deyil, camaatın ancaq xoşuna gələnləri yazan axundlara, bəylərə, xanlara, sərvətdarlara yaltaqlıq edib milyonlarla əzilənləri yaddan çıxaran mühərririn qiyməti bir qara puldur, o da qəlp. Mən heç bir şeydən, hətta ölümdən də qorxmayıb həqiqəti yazacağam, bir vaxt olar mənim dostum düşmənimdən çox olar, mən ona əminəm».

Qarşısına xalq işi uğrunda mübarizəni ən böyük amal kimi qoymuş, onun yerinə yetirilməsi uğrunda ardıcıl mübarizə yolu seçmiş fədakar bir xalq mübarizi yalnız bu cür hərəkət edə bilərdi, «hətta ölümdən də qorxmaya» bilərdi.

Mirzə Cəlilin sonrakı fəaliyyəti göstərdi ki, o bu ideala axıra qədər və şərəflə xidmət etmişdi.

O zamanın dövri mətbuatının verdiyi məlumatlardan, Mirzə Cəlilin və müasirlərinin xatirələrindən də göründüyü kimi, «mürşidi-kamil» «Molla Nəsrəddin» jurnalı öz nəşrinin ilk günlərindən böyük rəğbətlə qarşılanır və onun nəşri müsəlman Şərqində geniş əks-səda doğurur. Görkəmli ədib Abdulla Şaiq öz xatirələrində yazır ki, Bakıda və başqa şəhərlərdə yaşayan azərbaycanlı ziyalılar «Molla Nəsrəddin» jurnalının hər nömrəsinin çıxacağı günü səbirsizliklə gözləyirdilər. Hətta «qara tanımayanlar da» (N.Nərimanov) jurnalın hər nömrəsini alır və onun yazılarını çox böyük sevinclə qarşılayırdılar.

«Baku» qəzeti 1906-cı ilin mayında yazırdı ki, Bakıya gətirilən min nüsxə «Molla Nəsrəddin» jurnalı müsəlmanlar arasında «əlbəəl satılır». Yenə də həmin qəzetdə dərc olunmuş başqa məqalələrdən birində oxuyuruq: «Məşhur satirik-yumoristik «Molla Nəsrəddin» jurnalı müsəlman aləmində bir növ «Simplizissimis» rolu oynayır. O, elə həvəslə oxunur və müzakirə olunur ki, ancaq qibtə et-

mək olar».

«Molla Nəsrəddin» jurnalının yazıları rəngarəng olduğu kimi, onun təsir dairəsi də çox geniş idi. Jurnalın səhifələrində dərc olunan hər bir felyeton, şer, karikatura və digər yazılar müxtəlif təbəqələrdən olan adamlara çox böyük təsir göstərir, necə deyərlər, ondan hərə öz payını götürürdü. Ona görə də jurnalın yazıları oxucular arasında geniş əks-səda doğurur, qızğın müzakirə və mübahisəyə səbəb olurdu. Cəmiyyət həyatındakı nöqsanları açıq-saçıq və qorxmadan böyük cəsarətlə ifşa edən, «hambal-humbaldan ötrü» çalışan «Molla Nəsrəddin» jurnalı gündən-günə xalqın gözündə yüksəlir, sevilir və yazıları dillər əzbəri olurdu.

Təsadüfi deyildir ki, «Molla Nəsrəddin» jurnalının dostları arasında N.Nərimanov, Ü.Hacıbəyov, A.Şaiq, F.Köçərli, E.Sultanov, H.Minasazov, R.Məlikov və bir sıra başqa demokratik ziyalılar var idi. Həm də onlar «Molla Nəsrəddin» jurnalına təkcə böyük rəğbət bəsləməklə kifayətlənməyərək, «müsəlman demokratiyasına sədaqətlə xidmət edən» bu jurnalı irticaçı ünsürlərin təqib və hücumlarından qorumaqda da fəal iştirak edirdilər.

«Molla Nəsrəddin»in bu qədər geniş yayılaraq, xalq kütlələri tərəfindən sevilməsi jurnalın dostlarının böyük sevincinə və ruh yüksəkliyinə səbəb olduğu kimi, «işığa doğru gedən yolu tutmağa, xalqı yenə də «yat bala»



“Molla Nəsrəddin”in 1907-ci il 33-cü nömrəsində Əbdülhəmid haqqında verilmiş və Ömər Faiqin həbsinə səbəb olmuş karikatura

آخر یالی

İranın baş naziri Atabəy Mirzəələsgər xana sui-qəsdlə əlaqədar verilmiş və çar inzibati-idarə orqanlarının nəzər-diqqətini cəlb etmiş "Axirət aləmi" adlı karikatura ("Molla Nəsrəddin", 1907, № 34)

deyərək «yuxuda» saxlamağa çalışan cəhalətpərəstlər və yenilik düşmənləri tərəfindən isə böyük çaxnaşmayla, etirazla qarşılanırdı. Jurnalın 1906-cı il 4-cü nömrəsinin üz qabığında azadlıq düşmənlərinin Molla Nəsrəddini araya salıb döymələri səhnəsi təsvir olunurdu.

Həmin nömrədəki «Niyə məni döyürsünüz?» felyetonunda jurnal yazırdı: «A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm?... heç eybi yoxdur, döyürsünüz döyünüz. Amma bunu da biliniz, ey mollalar ki, günlər dolanar, sular axar, zəmanə təzələnər və axırda yetim-yesir və keçəl-küçəl qardaşlarım dostu ilə düşmənini tanıyıb haman yoğun dəyənəkləri sizin əlinizdən alar və başlar... dəxi dalısını demirəm».

«Molla Nəsrəddin» jurnalının təqibi demək olar ki, onun nəşrə başlaması ilə əkiz doğulmuşdur. Bakıda çıxan qəzetlərin verdiyi xəbərlərə görə jurnalın nəşrinin birinci il buraxılışının ikinci nömrəsi Bakıya gələn kimi «rəngi qırmızı» olduğu üçün dərhal Bakı polisi tərəfindən kitab mağazalarından və kitab satanlardan yığışdırılmışdı.

Ü.Hacıbəyov «İrşad» qəzetinin 1906-cı il 20 aprel tarixli 94-cü nömrəsində «filankəs» imzası ilə verdiyi «oradan-buradan» felyetonunda bu məsələdən bəhs edərək

yazırdı: «Pristav mənsəbinə çoxdan göz dikmiş... okolodoçnik cənabları qırmızı «Molla Nəsrəddin»dən hürküb, binəvanı konfiskovat edibdir. İndi zavallı «Molla Nəsrəddin» dustaqdır. Həbsxanada oturub, öz-özünə fikir edir: əcaba, ərbabi-hökumət bu qırmızı şeylərdən əcəb yaman hürkürmüş».

«Molla Nəsrəddin» jurnalı özü də bu hadisəni diqqətsiz buraxmamış, həmin il 28 aprel tarixli 4-cü və 5 may tarixli 5-ci nömrələrindəki «Bir para hikmətli danışıqlar», «Qafqaz xəbərləri» yazılarında dolayısı yol, xüsusi yumorla onu öz oxucularına çatdırmışdı. Birinci yazıda oxuyuruq «Kərbəlayi Həsən utanmırsan, qızarmırsan, ayaqyalın və başıaçıq çıxırsan küçəyə?

- Vallah utanmağa utanıram, amma qorxuram qızaram qaradavoylar gəlib tutub aparalar qatalar dama ki, rəngin qırmızıdır».

Digər yazıda isə «İrşad» qəzeti baş mühərririnin Hacı ilə söhbəti verilmiş və qeyd edilmişdir ki, söhbət nəticəsində «baş mühərrir utandığından istəyib qızarsın amma qorxub ki, Bakının qaradavoyları gəlib tutub apararlar ki, niyə sənin rəngin qırmızıdır».

Bütün nəşri boyu «doğru söyləyən» «Molla Nəsrəddin» jurnalı ciddi senzura nəzarətinə məruz qalmışdır. Onun çap olunduğu «Qeyrət» mətbəəsində, C.Məmmədquluzadənin yaşadığı jurnal redaksiyasında, Ö.F.Nemanza-

dənin evində tez-tez axtarışlar aparılmış, jurnalın ayrı-ayrı nömrələri tamamilə müsadirə olunmuş, redaktorları cinayət məsuliyyətinə cəlb edilərək məhkəməyə verilmiş və cərimə olunmuşlar. Təkcə 1906-cı ildə, yəni «Molla Nəsrəddin»in nəşrinin birinci ilində «Qeyrət» mətbəəsində beş dəfə axtarış aparılmışdır. Belə axtarışları jurnal özü də öz səhifələrində diqqətsiz buraxmamış, bu haqda vaxtaşırı gah açıq yazı və karikaturalar vasitəsilə, gah da üstüörtülü yumorla öz oxucularına xəbər vermişdir. Məsələn, jurnalın 1906-cı ildə verdiyi teleqraf xəbərlərindən birində oxuyuruq: «Tiflis. Polis və jandarm idarələri «Molla Nəsrəddin» əmiyə riayət edəcəklərini vəd etdilər».

Jurnalın həmin il axırıncı 39-cu nömrəsində verdiyi karikaturada isə «Qeyrət» mətbəəsində axtarış» təsvir olunmuşdur.

Çar senzorları jurnalın yığılmaq və çap olunmaq üçün mətbəəyə verilmiş ayrı-ayrı yazı və karikaturalarını da daşdan sildirmişlər. Jurnalın naşirləri çox vaxt senzuranın tələbi ilə çıxarılmış karikaturaların yerini boş buraxaraq, üstünə çalın-çarpaz xətlər çəkir, altında isə: «izin verilmədi», «Bizdən asılı olmayan səbəblərə görə bu yer boş qaldı», «Məsləhət belə oldu ki, buradakı şəkli daşdan silək», «Bizdən asılı olmayan səbəblərə görə bu səhifənin şəkili çap olunmadı», «Buradakı şəkilə izin verilmədi və özgə şəkil çəkməyə fürsət olmadı» və sair bu kimi oxu-

cunu intizarda qoyan və onlarda böyük maraq doğuran yazılar verirdilər.

Çar senzorları çapdan çıxmış hazır nüsxələrdəki yazı və karikaturaları qaralamaqdan da çəkinməmişlər. İlk dəfə jurnalın 1906-cı il 2 iyun tarixli 9-cu nömrəsinin altıncı səhifəsindəki «Məktub» sərlövhəli yazı tamamilə qaralanmışdır. Görünür ki, senzor tərəfgirlik etdiyi mollanın tənqid olunması ilə razılaşmamış və elə həmin səhifədə verilmiş «Malını yaxşı saxla mollanı oğru tutma» yazısında «mollanı» sözünün də üstündən qara çəkmişdir.

Jurnalın 1906-cı il 4 avqust tarixli 18-ci nömrəsindəki teleqraf xəbərlərində «Peterburq – Rusiya imperatoru bu günlərdə...» sözlərindən sonra gələn üç sətir də qaralanmışdır.

«Molla Nəsrəddin»də verilmiş, sonra isə senzor tərəfindən üstü qaralanmış bu cür yazı və karikaturaların araşdırılmasının jurnalın təqibi ilə əlaqədar məsələlərin öyrənilməsində mühüm əhəmiyyəti vardır.

Jurnalda dərc olunmuş, lakin sonra senzura tərəfindən üzərinə qara çəkilmiş iki karikatura qocaman tədqiqatçı Qulam Məmmədli tərəfindən aydınlaşdırılaraq «Molla Nəsrəddin» (Bakı, 1966) kitabına daxil edilmişdir. Onlardan birincisi jurnalın 1913-cü il 9-cü nömrəsinin son səhifəsində dərc olunub. Orada bir cücənin xoruza ərizə verməsi təsvir olunur. Xoruz isə qaban, çaqqal və kirpinin arasında təkəbbürlə dayanıb.

Din xadimlərini və cəhalətpərəstləri ifşa edən digər karikatura isə jurnalın həmin il 30 dekabr tarixli 29-cu nömrəsinin birinci səhifəsində verilib.

Jurnalın 1906-cı il 9-cu nömrəsində qaralanmış «Məktub» sərlövhəli imzasız yazının məzmunu da son vaxtlara qədər naməlum qalmışdı. Bu sətirlərin müəllifinin əldə etdiyi nüsxələrin birindəki yazının üzərinə çəkilmiş qara nisbətən solğun olduğu üçün bəzi sözlər və ifadələr qismən oxunurdu. Bu bizə, çətinliklə də olsa bir neçə misranı oxumağa imkan verdi. Sonra həmin mətnin dəqiqləşdirilməsi və dürüstləşdirilməsi üzərində iş davam etdirilərək onun bir neçə variantda neqativi və foto surətləri hazırlandı. Nəticədə üzərinə daha çox qara çəkilmiş, oxunması heç cür mümkün olmayan birinci iki misradan başqa yerdə qalan aşağıdakı iyirmi dörd misranı oxumaq mümkün oldu:

.....

.....

İşbu dediyim sözlərim insana sədadır,
Təşhidi var, əmma!
Dəftərciyəzim ayineyi-sidqü səfadır,
Tənqidi var, əmma!
Şairlərə tərk eyləmişəm hər nə səzadır,
Əzbəs mərəzim yox.
Mən söylədiyim cümləsi hərçənd həcadır,
Şəxsi-qərəzim yox

Həq söz acıdır, həm acı əzvay da dəvadır,
Zəhər oldumu qəndim?!
Bir ləhzə təhəmmül edəsiz, zəhra şəfadır,
Qandınmı, əfəndim?!
Fulad nə üçün ayinə tək cöhrənümadır?
Sühan yeməyindən!
Pambuq niyə pərqu kimidir? Yoxsa, həvadır?
Toxmaq köməyindən!
Öz bildiyini yazsa məgər şəxs, xətadır?
Ya rəb, nə fəlakət!
Ya həq deməmək adəti-dirinə bicadır?
Ta key belə adət...
Həq guluq olan yerdə təməllüğ nə rəvadır?
Vəqt etməyir icab.
Güldürmək isə məqsədimiz onda bükadır,
Qoy anlasın əhbab!..

Göründüyü kimi, şer bilavasitə «Molla Nəsrəddin» jurnalının məramı ruhunda yazılmışdır. Müəllifin «Öz bildiyini yazsa məgər şəxs, xətadır? Ya rəb, nə fəlakət?» - deyə üsyan etməsi və «Molla Nəsrəddin»in «ayineyi-sidqi səfa» olduğu, onun həyat həqiqətlərini açıq-saçıq yazdığını və heç bir «şəxsi-qərəzi» olmadığını bildirməsi, görünür, çar senzorunun xoşuna gəlməmişdir. Şer imzasızdır. Özü də daha çox M.Ə.Sabirin «Molla Nəsrəddin»də dərc olunmuş şerlərinin üslubuna və ruhuna yaxındır. Məlumdur ki, Sabir həmin ilin 8-ci nömrəsindən başlayaraq «Molla Nəsrəddin»də müntəzəm olaraq iştirak etməyə baş-

lamışdır. Elə həmin mətnin qaralandığı 9-cu nömrənin üz qabığında da Sabirin imzasız «Mahi-Kənanın batıb, ey piri-Kənan, qəm yemə !» misrası ilə başlanan şeri də dərc olunmuşdur. «Məktub» Sabirin çox işlətdiyi müstəzad formasında yazılmışdır. Əlbəttə, biz həmin şerin Sabirin olması hökmünü yenidən bir daha vermək fikrində deyilik. Çətinliklə oxunan ikinci misrada «Molla Nəsrəddin»ə müraciət edilməsi və şerin «Məktub» başlığı ilə verilməsi də göstərir ki, o, redaksiyada yazılmamış, kənardan göndərilmişdir. Elə isə onu redaksiyaya kim göndərə bilərdi? Bir daha ümid edirik ki, bu şerin müəllifi mollanəsrəddinşünas alimlərimiz tərəfindən dəqiq müəyyənləşdiriləcəkdir.

İSTİBDADLA ÜZ-ÜZƏ

«Xalqı gərəк yazmaqnan və кinayəli sözlərnən xabi-qəflətdən oyadıb başa salaq».

«MOLLA NƏSRƏDDİN»

«Molla Nəsrəddin» jurnalının başlıca tənqid hədəflərindən biri İran və Türкiyə müstəbidləri idi. Bunu etiraf edərəк Mirzə Cəlil öz xatirələrində yazırdı кi, «Bizim qabağımızda dağ кimi duran istibdad, Şərq istibdadı və Şərq qaranlığı idi; şah və sultan istibdadı idi və şəriət zülməti idi. Vətənimizin İran tərəfində sultanların, şahların «кeyfə-mayəşa»sı idi. Müctəhid və şeyxülislamların cövlanı idi və xəlvət dərədə növ-növ tülкülərin bəyliyi idi».

Şərq istibdadı ilə mübarizəni qarşısında başlıca məqsədlərdən biri кimi qoymuş «Molla Nəsrəddin» İrandan tutmuş Osmanlıya кimi müsəlman bəy-xanlarını, mollalarını rahat qoymur», şahdan və sultandan başlamış adi tüfeylilərə qədər hamını qələmin iti ucuna qoyaraq, «hamı müşкülləri» açırdı. Jurnal öz müəlliflərini başa salırdı кi, «gündə üç şahılıq alış-veriş eləyən fəqir düкançıya sataşmağın heç bir ləzzəti yoxdur. Əgər qoluçomaqlıların hünərindən bizə xəbərlər yazsan, artıq həvəs ilə çap edəriк».

«Molla Nəsrəddin» ilк gündən başlayaraq «baltanı dibindən vurdu» (Ü.Hacıbəyov). İran və Türкiyənin müstəbid Məmmədəli şah, sultan Əbdülhəmid, Atabəy Mirzə

Ələsgər xan, Zilli Sultan, Rəhim xan, Səməd xan Şücaüddövlə, Murtuzaqulu xan və onlarla bu кimi istibdad dirəкlərini rüsvay etdi.

Məlumdur кi, 1905-1907-ci illərdəкi birinci rus inqilabının təsiri ilə İran, Türкiyə, Hindistan və başqa Şərq ölкələrində inqilabi və milli-azadlıq hərəкatının genişlənməsi bir dövrdə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalının elə bir nömrəsi yoxdur кi, orada Şərq müstəbidlərini ifşa edən yazı və кariкatura dərc olunmasın. Sultan Əbdülhəmidi və İran şahı Məmmədəlini ifşa etməк üçün jurnal müxtəlif ədəbi formalardan – felyetonlar, satiriк şerlər, кariкaturalar, teleqraf xəbərləri, tapmacalar, sual-cavablar, taziyanələr və sair maraqlı formalardan istifadə etmişdir. Jurnalda verilən yazılarda bu müstəbidlər onların özləri, arvadları, uşaqları və yaxın adamlarının dilindən də ifşa olunurdu. Məsələn, 1908-ci ilin fevralında Məmmədəli şaha sui-qəsd olunduqda «Molla Nəsrəddin» yazırdı: «Şah həzrətlərinə iкinci bombanı atandan sonra şahın baş hərəmi bir tövrnən ərinə belə ərzihal etmişdi: «A кişi, səni and verirəm yox imanına! Səni and verirəm o bir allaha кi, tanımırsan! Səni and verirəm o peyğəmbərə кi, etiqadın yoxdur! Səni and verirəm o Qurana кi, dörd dəfə yalandan and içmisən, bu padşahlıqdan əl çəк. Məni uşaqlarının başına dolandır. Əhmədə rəhmin gəlsin. Məni ərsiz və uşaqlarını yetim qoyma. Gördün кi, müstəbidliк yerimir, əl çəк, nə istəyirlər ver, кəs bu mərəкəni».

Taxtdan salınaraq xaricə qovulmuş Məmmədəli Mirzə 1911-ci ildə yenidən İrana qayıdaraq taxt-tacı ələ

kеçirmək fikrinə düşərkən Amerika müşaviri Morqan Şüsterin səyi ilə məclis tərəfindən onun başına yüz min tümən qiymət qoyulur. «Molla Nəsrəddin» jurnalında verilmiş karikaturada həmin elanı oxuyan və güzgüdə özözünə tamaşa edən Məmmədəli Mirzə deyir: «Bu başa yüz min tümən, çox təəccüb!»

«Molla Nəsrəddin» öz yazı və karikaturalarında Sultan Əbdülhəmid və Məmmədəli şahı heç vaxt bir-birindən ayırmırdı. Jurnal göstərirdi ki, xalqın qanını şişəyə tutmaqda, hər cür azadlıq və tərəqqi ideyalarını boğmaqda onların hər ikisi eyni dərəcədə cəlladdır. «Molla Nəsrəddin» sultan Əbdülhəmidi və Məmmədəli şahı əsil istibdad mücəssəməsi sayırdı. 1909-cu ilin aprelində sultan Əbdülhəmid taxtdan salınarkən «Molla Nəsrəddin» İstanbuldan verdiyi xəbərdə yazırdı ki, «Yevropa muzeyləri indidən bir neçə milyon frank təklif edirlər ki, Əbdülhəmidin meyidini alıb mumiya yapsınlar və onu istibdad nümunəsi olaraq camaata göstərməklə milyonlar qazansınlar». Bu xəbərlə əlaqədar «İdarədən» verdiyi qeyddə jurnal avropalılara məsləhət görürdü ki, «bir az səbr etsəniz, hər ikisini (yəni Məmmədəli şahı da – A.P.) birdən ələ gətirər, həm də yarı qiymətə alarsınız».

«Molla Nəsrəddin»in səhifələrində sultan Əbdülhəmid və Məmmədəli şah meymun, öküz, donuz qiyafələrində təsvir olunurdular. Lakin onların şəkli hansı qiyafədə təsvir olunsa da bu «allahın heyvanları»nın məharətlə çəkilmiş karikaturaları «lap özlərinə oxşayır», baxanlar həmin dəqiqə onları tanıyırdılar. Ömər Faiq öz xatirələrində yazırdı ki, «Molla Nəsrəddin» də verilmiş

«şəkillərin çoxu karikatura, yəni uydurma, bənzətmə şəkil deyil, vaqiənin, şəxsin, tiplərin özü, bayağı fotoqrafları idi». Doğrudan da jurnalda verilmiş Müzəffərəddin şah, Məmmədəli şah, sultan Əbdulhəmid, Səməd xan, Rəhim xan və başqalarının karikaturaları o qədər özlərinə oxşadılırdı ki, oxucu baxan kimi onun kim olduğunu asanlıqla tanıyırdı. Buna işarə edən Ü.Hacıbəyov «İrşad» qəzetində yazırdı ki, «Mən heç başa düşə bilmirəm ki, bu «Molla Nəsrəddin»in o şəkilçəkənləri bu adamların şəklini necə çəkir ki, lap özlərinə oxşayır? Ağlım kəsir ki, bu "vergi"dir. Yoxsa «vergi» olmasa, adamın ağzı nədir ki, bu cür şəkillər çəksin?!»

Sultan Ədbülhəmid və Məmmədəli şah hər ikisi C.Məmmədquluzadənin felyetonlarında, M.Ə.Sabirin və Əli Nəzminin satirik şerlərində «boynuyoğun», «quldurbaşı», «məndəli», «mədəli» və s. adlandırılaraq, çox kəskin şəkildə ifşa olunmuş, rüsvay edilmişlər.

Yuxarıda deyilənlərdən də göründüyü kimi, Şərq müstəbidləri və dini xurafata qarşı mübarizəni başlıca məqsədlərdən biri kimi qarşıya qoyan jurnal İran və Türkiyə hakim dairələri tərəfindən etinasız qarşılana bilməzdi və qarşılanmadı da. Jurnalın nəşrə başladığı ilk aylardan etibarən onun İran və Türkiyəyə aparılması qadağan edilir.

O dövrdə çıxan qəzetlərin verdiyi məlumata görə «Molla Nəsrəddin» jurnalının nəşrinin ilk ayından, «İranın Batum konsulu rus qarodavoyları ilə əlbir olub» jurnalı bədəfkarlar» siyahısına daxil edir və var qüvvə ilə

çalışır ki, onun «müsəlmanlar arasında yayılmasına mane olsun».

«Molla Nəsrəddin» jurnalının 1906-cı il 8-ci nömrəsinin üz qabığında dərc olunmuş karikaturada Rusiyanın İranla sərhəddi təsvir olunur. Sərhəd yolbəndini «Molla Nəsrəddin»in üzünə bağlayan İran məmuru qoltuğunda jurnalın nömrələri olan nurani qocanı – Molla Nəsrəddini İran torpağına buraxmır. Sərhəddin o tərəfində dayanmış cahil iranlılar isə Mollanı daşa basır, onu yumruq və ağacla divan tutacaqları ilə hədələyirlər.

Jurnalın İrana aparılmasının qadağan edilməsinə işarə ilə «Molla Nəsrəddin» 1906-cı il 16-cı nömrəsindəki teleqraf xəbərlərinin birində yazırdı: «Culfa-İran rəisi kömrükünün hökmü ilə bundan sonra «Molla Nəsrəddin»də olan insan surətlərinin hər birinə insan kimi iki qran torpaq basdı pulu alınacaqdır».

1906-cı ilin axırlarında isə İran taxt-tacının vəliəhdi və İran Azərbaycanının valisi Məmmədəli Mirzə «Molla Nəsrəddin» jurnalının İrana aparılmasını qadağan etmək və onun nömrələrini sərhəddə yandırmaq haqqında göstəriş verir.

1906-cı il dekabr ayının 3-də «İrşad» qəzetində verdiyi elanda «Molla Nəsrəddin» jurnalının redaksiyası «...Möhtərəm iranlı müştərilərinə xəbər verir ki, bu günlərdə İran hökumətinin kömrükat vəziri tərəfindən sərhəd kömrükxanələrinə qərardad olunub ki, «Molla Nəsrəddin» məcmuəsini İran torpağına qoymasınlar və hər yanda görsələr tutub yandırsınlar». Sonra redaksiya bu

səbəbdən jurnalın nömrələrini İranlı müştərilərinə çatdıra bilməyəcəyi üçün üzrxahlıq edirdi.

Bu münasibətlə Tiflisdə, Vladiqafqazda və Rusiyanın başqa şəhərlərində yaşayan iranlılar tərəfindən, habelə İranın «bəzi nöqtələrindən, Xalxaldan və sair yerlərdən də» jurnalın oxucuları bu qərar əleyhinə öz etirazlarını bildirərək Tehrana – milli məclisə «şikayət teleqramları» göndərirlər.

Vladiqafqazda yaşayan iranlıların Tehranda milli əncüməni sədrinin adına göndərdikləri və bir çox qəzetlərdə dərc olunmuş teleqramlarında onlar «Molla Nəsrəddin» jurnalını İrana buraxmadığı üçün gömrük vəzirinə «öz nifrətlərini» bildirir və əncüməni-milli vəkillərindən xahiş edirlər ki, jurnalın «bütün İran şəhərlərinə azad surətdə göndərilməsinə» icazə verilsin.

O dövrdə qəzetlərin verdiyi məlumatdan aşkar olur ki, jurnalın iranlı oxucularının təkidi və tələbi ilə uzun danışıqdan sonra İran hökuməti «Molla Nəsrəddin» jurnalının həmin ölkəyə aparılmasını qadağan etməkdən əl çəkməyə məcbur olmuşdur.

Jurnalın 1906-cı il 6 dekabr tarixli 36-cı nömrəsində dərc olunmuş «Qarnıyoğunlar» felyetonunda C.Məmmədquluzadə bütün bu hadisələrə işarə edərək yazırdı: «Dedik bəlkə təzə müştərilərimizə təqvim və kitabçalar paylamaq vasitəsilə oxucularımızın qədərini bir az

artıraq; amma allah şeytana lənət eləsin; gündə gəlib başımızın üstünü kəsir və başlayır ki, məsələ, götürün məcmuənizdə yazın ki, Təbrizdə vəliəhd «şahsevən» quldurlarını başına cəm eyləyib göndərir İran kəndlərini və şəhərlərini talan etdirir və bu cür qarət olunan malların bir hissəsini quldurlara paylayır, bir hissəsini də özü götürür.

Məcmuəmizdə bu əhvalatı vəliəhd Məmmədəli Mirzə oxuyan kimi hökm eyləyir, məcmuəmizi İran sərhəddində yandırsınlar...».

«Molla Nəsrəddin» jurnalının Türkiyədə təqibi də demək olar ki, İranla eyni vaxtda başlamışdır. Belə ki, Qafqazda və xüsusilə Azərbaycanda nəşr olunan demokratik mətbuatın Türkiyədə təsiri o qədər güclü idi ki, hətta Türkiyə hökuməti rəsmi surətdə çar Rusiyası xarici işlər nazirliyinə müraciət edərək Qafqazda nəşr olunan demokratik fikirli mətbuatın Türkiyəyə göndərilməsini qadağan etməyi xahiş edir. Təkcə «Molla Nəsrəddin» kimi inqilabi-demokratik ruhlu bir jurnalın deyil, hətta səhifələrində «əncümən» və «ədalət» sözləri yazılmış hər hansı qəzet və ya jurnalın belə Türkiyəyə gətirilməsi qadağan olunur.

1907-ci ilin əvvəllərində Qafqazda buraxılan demokratik ideyalı qəzet və jurnalları Türkiyəyə buraxmamaq haqqında Əbdülhəmid hökumətinin göstərişi barədə

«İrşad» qəzeti də xəbər vermişdi. Mirzə Cəlilin «Qarnıyoğunlar» felyetonunda oxuyuruq: «Osmanlı ĸonsulu idarəmizə sifariş göndərir ĸi, «bir də sultan Həmidin pisliyini yazsaz, yəni bir də yazsanız ĸi, osmanlının xariciyə vəziri gəlib, sultana ərz edəndə ĸi, sultan sağ olsun, Avropa hökumətləri Kriti hazırlaşırlar versinlər Yunan padşahına – sultan Əbdülhəmid yunanlı hərəmini yanına çağırıb deyir: «Bəxali hinduət bəxşəm Krit və Şamü Bosnara», İstanbula yazaram, «Molla Nəsrəddin»i Osmanlı torpağına qoymasınlar».

Jurnalda verilmiş yazıları və o dövr mətbuatının dərc etdiyi materialları diqqətlə izlədiĸdə maraqlı faĸtlar ortaya çıxır. «Molla Nəsrəddin» jurnalı Türĸiyə sultanı Əbdülhəmid haqqında ĸariĸatura və yazılar verdiĸdə Türĸiyənin Tiflisdəĸi baş ĸonsulu əvvəlcə «Molla Nəsrəddin» redaĸtorunun özünə «sifariş göndərir» ĸi, sultan Əbdülhəmidi ifşa edən ĸəsĸin yazı və ĸariĸaturalar verilməsini dayandırsın. Əĸs təqdirdə o, redaĸtoru «Molla Nəsrəddin»i Turĸiyəyə buraxmayacağı ilə qorxudur. Laĸin ĸonsul Feyzibəyin bütün bu cidd-cəhdləri «Molla Nəsrəddin» jurnalının sultan Əbdülhəmid istibdadına qarşı döyüşkən ruhunu sarsıda bilmir.

İran və Türĸiyə dövlətləri haĸim dairələrinin nümayəndələri öz ölĸələrində «Molla Nəsrəddin» jurnalını qadağan etməĸ vasitəsilə və ya onun redaĸtoruna xəbər-

darlıqla jurnalın bu ölkələrdə yayılmasının qarşısını almaq, yaxud onun bu ölkələrin hakimlərinə və dövlət quruluşuna qarşı kəskin çıxışlarını dayandırmaq üçün gördüyü bütün tədbirlər uğursuz olur. Əksinə, bu tədbirlər həmin ölkələrdə jurnalın nüfuzunu daha da artırır. Jurnal İran şahı və Türkiyə sultanı haqqında kəskin yazı və karikaturalar vermək işini davam etdirir. Jurnalın mübariz ruhunu qırmaqda aciz qalan İran və Türkiyə hakim dairələri, onu çar Rusiyası inzibati-idarə orqanlarının əli ilə susdurmaq istəyirlər. Onlar dəfələrlə çar Rusiyası hakim dairələrinə müraciət edərək jurnalın səhifələrində İran şahı və Türkiyə sultanı haqqında məqalə və karikaturalar verilməsini dayandırmağı tələb edirlər.

Uzun illər ölkəmizin arxivlərində aparılan axtarışlar bizə «Molla Nəsrəddin» jurnalı ilə əlaqədar bir sıra fakt və hadisələrin həqiqi səbəblərini müəyyənləşdirməyə, dürüstləşdirməyə və dəqiqləşdirməyə, onları yeni tarixi sənədlərlə möhkəmləndirməyə imkan verir.

Son vaxtlara qədər «Molla Nəsrəddin»in 1907-ci ildə ilk dəfə bağlanması səbəbi jurnalın həmin il 2 iyun tarixli 22-ci nömrəsində dərc edilmiş «Qafqaz şeyxül-islamına iki dənə açıq məktub» felyetonu ilə əlaqələndirilirdi. Gürcüstan Mərkəzi Dövlət Tarix arxivində ilk dəfə aşkar etdiyimiz yeni sənədlər isə 1907-ci ildə jurnalın bağlanması səbəbini daha düzgün müəyyənləşdirməyə imkan ve-



"Molla Nəsrəddin" jurnalının 1909-cu ildə 26-cı nömrəsində dərc olunmuş "Əbdülhəmidə köməyə" adlı karikatura

Türkiyənin Tiflisdəki baş konsulunun "Molla Nəsrəddin" jurnalından şikayət edərkən təqdim etdiyi karikaturalardan biri. (1907, № 1)

rir. Arxivdə saxlanan və Rusiya xarici işlər nazirliyinin Qafqaz canişini yanındakı sərhəd məsələləri üzrə məmuru L.S.Koxanovskinin müvəqqəti Tiflis general-qubernatoru N.P.Timofeyevə yazdığı 1907-ci il 28 mart tarixli məktubundan məlum olur ki, həmin ilin martında Türkiyənin Tiflisdəki baş konsulu Feyzibəy şəxsən L.S.Koxanovskinin yanına getmiş və özü ilə «Molla Nəsrəddin» jurnalının 1906-cı il 23 və 29-cu nömrələrini, 1907-ci il 1 və 11-ci nömrələrini aparmışdır.

Türkiyə baş konsulunun gətirdiyi nömrələrdəki karikaturalarda söhbət nədən gedirdi və konsulun narahatlığına səbəb nə idi?

«Molla Nəsrəddin» jurnalının 1906-cı il 23-cü nömrəsinin son səhifəsindəki karikaturada İrandə «Qanuni-əsasi» verilməsi ilə əlaqədar olaraq onun Türkiyədə yayılmasının qarşısını almaq üçün sultan Əbdülhəmid hökumətinin gördüyü sərt tədbirlər ifşa olunur.

Xalqın inqilabi mübarizəsi qarşısında məcbur qalan İran saray xadimləri bir əldə «Qanuni-əsasi» vermək haqqında fərmanı və mürəkkəb qabını Müzəffərəddin şaha uzadırlar ki, əlindəki qələmlə imza etsin. O biri əllərindəki kibritləri isə İranın «Qanuni-əsasi»nə od vurmaq istəyən sultan Əbdülhəmidə uzadırlar.

Jurnalın 1907-ci il birinci nömrəsində verilmiş karikaturada isə bu fikir sanki davam etdirilir. Rusiya və

İranda baş vermiş inqilabi mübarizə dalğalarının Türkiyəyə yayılmasının qarşısını almaq üçün sultan Əbdülhəmid hökumətinin gördüyü sərt tədbirlər ifşa olunur. İnqilab rəmzi kimi təsvir olunmuş mələklər əllərində «Hürriyyət», «Qanuni-əsasi» və «Ədalət» sözləri yazılmış lövhələr tutmuşlar. Əbdülhəmid istibdadının gördüyü sərt tədbirlərin qorxusundan bu lövhələri görən türklər qulaqlarını tutaraq, vahimə və tələş içərisində qaçıb ondan uzaqlaşmağa çalışırlar.

Jurnalın 1906-cı il 29-cu nömrəsində dərc olunmuş «Sultan Əbdülhəmidxan saninin əsrində Türkiyənin halı» adlı karikaturada isə sultan sarayı təsvir olunur. Bardaş quraraq oturmuş sultan Əbdülhəmiddən tutmuş bütün saray əyanları, hətta çalğıçı və oynayanlar da gözübağlı mürgüdədirlər. Sarayın eyvanından açılan mənzərədə isə qızğın iş gedir. Xaricilər orada fabrik və zavodlar tikir və ölkənin var-yoxunu daşıyıb aparmaq üçün dəmir yolları çəkirlər.

«Molla Nəsrəddin»in 1907-ci il martın 17-də çıxmış 11-ci nömrəsindəki «Sultan Əbdülhəmidin dövri-səltənətində Xilafəti-islamiyyə» adlı iki səhifəlik karikatura isə öz məzmununa görə daha dərindir. Burada eyni vaxtda həm sultan Əbdülhəmid istibdadı, həm də Qərb imperialistlərinin müstəmləkəçilik siyasəti kəskin satira atəşinə tutulur. Bu şəkildə sultan Əbdülhəmid həm islam

aləminin xəlifəsi və həm də Türkiyə sultanı kimi ifşa olunur. Şəkildə islam xilafətinin mərkəzi sayılan Osmanlı imperiyası qol-budaqları kəsilmiş qurumaqda və çürüməkdə olan qoca ağac şəklində təsvir edilir. Onun gövdəsinə daraşmış ac qurdlar – «sus sultan sözü danışmaq olmaz» - deyə İzzət paşa, Mühim paşa, Muxtar paşa, Təhsin paşa, Zəki paşa, Şeyx Əbüluda, Şeyx Tahir, Şeyxül-islam və başqa bu kimi «vəzifəpərəstlər» ağacı gəmirərək qurutmaqdadırlar. Bütün budaqlarından təcrid olunmuş ağac Anadolu, Rum eli və Ərəbistan kimi iri şöbələrə bölünmüşdür. Anadolu, Qars və Ərdəhan yazılmış şöbədə sultan Əbdülhəmid yelləncəkdə yellənir. Budaqların birində rahatca dayanmış alman əlindəki mişarla həmin budağı yarıya qədər kəsib. Rum eli və Ərəbistan qolu isə çatlayıb ayrılmaqdadır. Rum eli şöbəsinin – Bosniya, Herseq, Qaradağ, Serbiya, Bolqarıstan kimi budaqları da kəsilmişdir. Avstriyalı və fransız ağaca dırmaşmaqdadır. Ağacın yaxınlığındakı dənizdə isə ingilis gəmiləri dayanmışdır.

Görünür, bu şəklin satira atəşi hədəfə çox sərrast dəymiş, dəfələrlə «Molla Nəsrəddin» jurnalının redaktoruna «sifarişlər göndərən» Türkiyənin Tiflisdəki baş konsulu Feyzi bəyin səbir kasasını doldurmuşdur. Jurnalın həmin nömrəsinin çapdan çıxmasından cəmi bir neçə gün sonra o, «Molla Nəsrəddin»dən çar hakimiyyət orqanlarına şikayət etmişdir.

Konsul Feyzi bəy «Rusiya və Türkiyə dövlətləri arasındakı dostluq münasibətləri ilə əlaqədar olaraq» həmin jurnalda Türkiyə sultanı və Türkiyə haqqında karikaturalar və yazılar dərc edilməsini dayandırmaq barədə müvafiq göstəriş vermək tələbini Qafqaz canişininə çatdırmağı sərhəd məsələləri üzrə məmurdan xahiş edir. Bu haqda L.S.Koxanovskinin ətraflı məlumatını dinləyən Qafqaz canişini isə, öz növbəsində, jurnalın bu cür hərəkətlərinə son qoymaq üçün müvafiq tədbir görmək barədə onun göstərişlərini müvəqqəti Tiflis general-qubernatoruna çatdırmağı tapşırır. Qafqaz canişininin göstərişi ilə həmin il aprelin 2-də Müvəqqəti Tiflis general-qubernatoru N.P.Timofeyev «Molla Nəsrəddin» jurnalının naşiri və baş redaktoru C.Məmmədquluzadəni çağırıb ona jurnalda «Türkiyə və Türkiyə sultanı haqqında karikaturalar dərc etməyi dayandırmağı» tapşırır.

Nəticədə 1907-ci il aprel ayının əvvəllərindən may ayının sonuna kimi «Molla Nəsrəddin» jurnalının səhifələrində Türkiyə və Türkiyə sultanı Əbdülhəmid ilə bağlı heç bir material dərc olunmur. Məlumdur ki, bu vəziyyət uzun müddət davam edə bilməzdi. Jurnal Şərq müstəbidlərinin ən rəzil sifətlərini özündə cəmləşdirən sultan Əbdülhəmid istibdadının ifşasını dayandıra bilməzdi. Nəhayət, jurnalın 1907-ci il 21-ci nömrəsində Türkiyəyə aid karikatura verildi. Həmin karikaturada başı fəsli gen-

şalvar türkün qoltuğunda Türkiyənin var-dövlətinin rəmzi olan tikə ətlərlə dolu böyük tabaq təsvir olunmuşdur. O, ət parçalarını ətrafına doluşmuş quduz köpəklərə – imperialist yırtıcılarına paylayır. Kənarda ac-yalavac oturmuş dilənçi türk itin birini qulaqlayaraq onun ağzındakı ət tikəsini almağa cəhd edir. Türkiyə hakim dairələrini təmsil edən əliqırmaclı türk məmuru isə dilənçini şallaqlayaraq köpəyin ağzından ət tikəsini almağa qoymur. Karikaturanın altında yazı yoxdur. Ancaq elə yazısız da onun məzmunu aydın idi. Jurnalın bu cür «saymamazlığından» hiddətlənən müvəqqəti Tiflis general-qubernatoru, onun nəşrini tamamilə dayandırmaq qərarına gəlir. Yuxarıda göstərilən dörd nömrə ilə bərabər həmin nömrənin də jurnalın bağlanmasına aid işə tikilməsi və «Molla Nəsrəddin»in bağlanması ilə əlaqədar dövlət idarələri arasında gedən yazışmalar tam dəqiqliklə bu fikri sübut edir ki, jurnalın 1907-ci ildə bağlanması səbəbi Mirzə Cəlilin Qafqaz Şeyxülislamı haqqında felyetonu deyil, məhz Türkiyə müstəbidləri haqqında verilmiş bir silsilə siyasi karikatura olmuşdur.

Fikrimizi daha ətraflı aydınlaşdırmaq və dəqiqləşdirmək üçün faktlara və rəsmi sənədlərə müraciət edək. İlk əvvəl bu fikri sübut edən faktlardan biri jurnalın bağlanması haqqında qərar və onunla əlaqədar yazışmalardır.

Müvəqqəti Tiflis general-qubernatoru N.P.Timo-

feyevin 1907-ci il 8 iyun tarixli qərarında «Molla Nəsrəddin» jurnalının, «son dərəcə zərərli istiqamətinə görə, onun bütün hərbi vəziyyət müddətinə bağlanıldığı göstərilir. Elə həmin gün o, təcili olaraq jurnalı bağlamaq haqqında Tiflis polismeysterinə sərəncam göndərir. Buradan da görünür ки, jurnalı belə təcili surətdə, özü də «son dərəcə zərərli istiqamətinə görə» bağlamaq üçün Zaqafqaziya Şeyxülislamının şикayətindən daha ciddi bir səbəb olmalı idi.

Bu fiкri jurnalın bağlanması ilə əlaqədar yazışmalar daha da aydınlaşdırır. Mətbuat işləri üzrə Tiflis кomitəsinin sədri V.Kolobovun Qafqaz canişini dəftərxanasının «Molla Nəsrəddin» jurnalının bağlanması ilə əlaqədar sorğusuna 1907-ci il 22 iyun tarixli 1253 nömrəli cavabında oxuyuruq: «Azərbaycan dilində nəşr olunan «Molla Nəsrəddin» jurnalının bağlanması barədə müvəqqəti Tiflis general-qubernatoru tərəfindən verilmiş sərəncamla əlaqədar olaraq general Timofeyevlə şəxsi danışığımdan aydın oldu ки, ***həmin jurnal haqqında görülmüş tədbirə səbəb qonşu müsəlman dövlətlərinin hөкmdarlarına qarşı yönəldilmiş və diplomatiк nөqteyi-nəzərdən münasib olmayan кəsкin məqalələrin dərc edilməsi olmuşdur»***.

Elə isə bəs necə olmuş ки, bu vaxta qədər həmin məsələ qaranlıq qalmış, jurnalın bağlanması səbəbləri üzə çıxmamışdır? Sənədlər sübut edir ки, çar inzibati idarə or-

qanları tərəfindən jurnalın bağlanması səbəbləri o vaxt çox gizli saxlanmış, hətta jurnalın naşirləri C.Məmmədquluzadə və Ö.F.Nemanzadəyə də məlum olmamışdır. Həm də bu hadisə elə bir vaxta düşmüşdür ki, jurnalın 20-ci nömrəsində çıxmış «Erməni və müsəlman övrətləri» və 22-ci nömrəsində çıxmış «Qafqaz Şeyxülislamına iki dənə açıq məktub» felyetonları çox geniş əks-səda doğurmuş, cəhalətpərəstlər arasında çoxlu söz-söhbət yaratmış və çaxnaşmaya səbəb olmuşdur.

Buna görə hətta «Şeytanbazar müsəlmanları» Mirzə Cəlili öldürmək fikrinə də düşmüşlər. O isə gizlənməyə məcbur olmuşdur. Bu zaman «hicab» məsələsinə görə Cəlil Məmmədquluzadənin ünvanına hər tərəfdən söyüş və hədə ilə dolu məktublar göndərilirdi. Həmidə xanım xatirələrində yazırdı ki, «Mirzə Cəlil bu məktubları yığaraq özündə saxlayırdı. 1913-cü ildə xəfiyyələr mənzilimizdə axtarış apararkən bir çox qiymətli sənədlərlə bərabər, həmin məktubları da apardılar».

«Molla Nəsrəddin»ə qarşı məhz bu cür hay-küyün qalxdığı bir zamanda jurnalın bağlanması və bunun səbəbinin gizli saxlanması oxucularda onun Qafqaz Şeyxülislamının tələbi ilə bağlandığı haqqında fikir doğurur. C.Məmmədquluzadə 1907-ci il iyun ayının 10-da mətbuat işləri üzrə Tiflis komitəsinə yazdığı ərizəsində bildirirdi ki, ***«Mənə tamamilə aydın olmayan səbəblər üzündən***

(kursiv bizimdir – A.P.) Tiflisdə Azərbaycan dilində nəşr və redaktə etdiyim yumoristik «Molla Nəsrəddin» jurnalı müvəqqəti Tiflis general-qubernatoru cənablarının göstərişi ilə bütün hərbi vəziyyət müddətinə bağlanmışdır. Göstərilən jurnal avam müsəlman camaatını maarifləndirməyi və müsəlmanlar arasında olan eyiblərə gülməyi öz qarşısında başlıca vəzifə kimi qoymuş, hər hansı bir siyasi meylə yaddır və bu mənada heç bir qeyri-leqal hərəkətə yol verməmişdir».

Ömər Faiq «İrşad» qəzetinin 1907-ci il 13 iyun tarixli 110-cu nömrəsində dərc etdirdiyi «Molla Nəsrəddin» bağlandı» adlı məqaləsində jurnalın şəxsən müvəqqəti Tiflis general-qubernatorunun əmri ilə bağlandığını ətraflı izah edərək göstərirdi ki, mən jurnalı bağlamağa gəlmiş «polis işçilərini qarşılayıb soruşanda: «Yenə və var?» Pristav dedi ki, «Bir zad yoxdur, ancaq qubernator buyurub ki, «Molla Nəsrəddin» jurnalı və «Qeyrət» mətbəəsi bağlansın».

Ömər Faiqin məqaləsindən bizə bu da məlum olur ki, hətta mətbuat işləri üzrə Tiflis komitəsinə də jurnalın bağlanması haqqında məlumat verilməmiş və komitənin jurnalın bağlanması işindən xəbəri olmamışdır. O, yazırdı: «Ertəsi gün senzor idarəsinə gedib şikayət etdim ki, nə səbəb ilə «Molla Nəsrəddin»i bağladıbsınız. Təəccüb edib dedilər ki, heç bir zaddan xəbərimiz yoxdur..O saat bildim

ki, hansı millət atasısa hökumətə ***danosbazlıq*** (kursiv bizimdir – A.P.) edib, məsləkimizi hökumətə nəzər göstəribdir».

C.Məmmədquluzadə özü isə jurnalın 1907-ci ildə bağlanmasının səbəbini şəxsən Qafqaz Şeyxülislamından görmüşdü. Belə ki, həmin ilin noyabrında Şeyxülislam Axund Pişnamazzadənin ölümü ilə əlaqədar olaraq Bakı qız məktəbinin müdirəsi Məryəm xanım Tiflisə teleqram vuraraq şeyxi «müsəlman övrətlərinin hüququnu müdafiə edən mərhum atamız» adlandırması, onun ölümü üçün «göz yaşı tökməsi» «Molla Nəsrəddin» jurnalının redaktorunu bərk qəzəbləndirir. O, jurnalın 1907-ci il 2 dekabr tarixli 45-ci nömrəsində dərc etdiyi «Məryəm xanım» feltonunda yazırdı ki, «Biz, 20-ci nömrədə yazanda ki, bizim kişilərimiz öz kəbinli övrətlərini evdə qoyub, gedirlər mütrübbazlığa, uşaqbazlığa qurşanırlar – dünyanın hər bir tərəfindən müsəlmanlar tökküldülər üstümüzə və başladılar bizi təkfir etməyə və mərhum şeyx məcmuəmizi bağlatdı».

Maraqlıdır ki, jurnalın nəşrinə yenidən icazə vermək haqqında onun oxucularının xahiş və tələblərində də «Molla Nəsrəddin»in dostları jurnalın bağlanması səbəblərini məhz mollaların «danosu» ilə əlaqələndirmişdilər.

Bu da təsadüfi deyildi. O dövrdə nəşr olunan qəzetlərin məlumatına görə Mirzə Cəlilin «Erməni və mü-

səlman övrətləri» və «Qafqaz şeyxülislamına iкi dənə açıq məкtub» felyetonları cəhalətpərəstlər və fanatiк din xadimləri arasında böyүк çaxnaşma və həyacana səbəb olmuşdur. Hələ 1907-ci il mayın 23-də Tiflis məscidinin vaizi axund Hacı Mirbağır Mirheydərzadə Naxçıvani Şeytanbazar məhəlləsindəкi məsciddə etdiyi uzun-uzadı moizəsində «Molla Nəsrəddin»i şəriətə zidd məcmuə кimi qələmə verir. Onun redaкtorunu dinnən dönmüş, yolunu azmış «кafir» adlandırır, jurnalı isə bayкot etməyə çağırır. «İrşad» qəzetinin verdiyi məlumata görə isə may ayının 25-də iranlıların «İttihad» mədrəsəsi həyətində, mədrəsə şagirdlərinin buraxılışına həsr olunmuş yığıncaqda Baкı qazısı Mirməhəmmədкərim Mircəfərzadə nitq söyləyərəк şeyxülislamı, müftini, üləmaları «biabır eləyən», «axırda» sultan Əbdülhəmid və Müzəffərəddin şah кimi padşahlara da «əl aparan» hətta «onların şəкillərinin də çəкib istehza» edən «Molla Nəsrəddin» jurnalını oxumağı haram buyurur, jurnalı bayкot etməyə çağırır.

İrticaçı din xadimlərinin bu cür çıxışlar etdiyi, qadın azadlığı ətrafında «Molla Nəsrəddin» dostları ilə onların arasında кəsкin mübarizə getdiyi bir zamanda «Tazə həyat» qəzetinin redaкtoru H.Vəzirov «Hər iкi tərəfin məqalələrinə qəzetimiz açıqdır» deyə elan verir. Əslində isə o, «Tazə həyat»ın səhifələrində «Molla Nəsrəddin» jurnalına qarşı təbliğat кompaniyası açır.

«Tazə həyat»ın səhifələrində yuxarda adları çəkilən Hacı Mirbağır Mirheydərzadənin, Mirməhəmmədkərim Mirzəcəfərzadənin, habelə Tiflisdən, Bakıdan, Gəncədən, Naxçıvandan, Ordubaddan və ümumiyyətlə Azərbaycanın digər şəhər və qəzalarından, hətta Petrovskidən də irticaçı din xadimlərinin «Molla Nəsrəddin» jurnalına və qadın azadlığına qarşı uzun-uzadı məqalə və məktubları dərc olunurdu. «Molla Nəsrəddin»ə qarşı təhqirlərlə dolu bu yazılarda jurnalın müəllifləri «kafir»likdə təqsirləndirilir, -onun naşir və baş redaktoru Cəlil Məmmədquluzadənin ünvanına söyüşlər yağdırılırdı.

«Tazə həyat» qəzetinin səhifələrində «Molla Nəsrəddin» jurnalına və ümumiyyətlə azadlıq ideyalarına qarşı yönəldilmiş yazılar oxucuların böyük etirazına səbəb olur. Belə ki, elə həmin vaxtlar Gəncədən 19 nəfər, Şuşadan 62 nəfər, Qubadan isə 17 nəfər açıq fikirli gənc «Tazə həyat»ın redaktoruna açıq məktublar göndərərək ona öz «nifrət»lərini bildirir və bir «fitnəkar» adam kimi onun qəzetini bayкot etməyə çağırırlar. 19 nəfər Gəncə ziyalılarının «İrşad» qəzetində dərc olunmuş məktublarının axırında qəzet redaksiyası tərəfindən belə bir yazı verilmişdir: «Bizim köhnəpərəstlər şad olsunlar. Onların həməqidəsi Tiflis general-qubernatoru Timofeyev «Molla Nəsrəddin»i bağlatdı.»

Oxucu məktublarından sonra ictimaiyyət qarşısın-

da tamamilə nüfuzdan düşməkdən qorxan H.Vəzirov «Tazə həyat» qəzeti vasitəsilə öz oxucularına müraciət edərək «Molla Nəsrəddin» jurnalı ilə «işi olmadığını» sübut etməyə çalışır. Bundan sonra o jurnala qarşı hücum kompaniyasını nisbətən zəiflətsə də dayandırmamışdır.

Göründüyü kimi, «Molla əmi» mübarizə səhnəsində tək deyildi. Din xadimləri və cəhalətpərəstlərin bütün təşəbbüs və cidd-cəhdlərinə baxmayaraq jurnalın bağlanması haqqında qərar hər tərəfdə böyük narazılıqla qarşılanır. «Molla Nəsrəddin»in oxucuları Bakıdan, Nuxadan, Ağdamdan və Azərbaycanın başqa yerlərindən Qafqaz canişininə və müvəqqəti Tiflis general-qubernatoruna məktub və teleqramlar göndərərək, jurnalın nəşrini davam etdirməyə icazə verməyi tələb edirlər.

Nuxa şəhəri və qəzası əhalisindən 75 nəfərin imzası ilə Tiflis general-qubernatorunun adına bu məzmunda teleqram göndərilmişdir: «Etibarlı mənbələrdən aldığımız məlumata görə «Molla Nəsrəddin» jurnalının nəşrinin dayandırılmasına səbəb, mətbuatda öz eyiblərini görməkdən narazı qalan müəyyən qrup şəxslərin iftiraları olmuşdur ki, bu da Nuxa şəhərində və qəzasında müsəlman əhalisi arasında hədsiz kədər doğurmuşdur. Cəmiyyətin bütün təbəqələrinin çatışmazlıqlarını əks etdirən bu jurnal yalnız düzgün əxlaqi-tərbiyəvi təsir göstərir. Odur ki, böhtançılara qarşı dərin nifrətimizi bildirərək, siz zati-

alilərindən acizanə xahiş edirik ki, bu jurnalın nəşrini dayandırmaq haqqındakı sərəncamınızı ləğv edəsiniz».

«Kaspi» qəzetinin 1907-ci il 17 iyun tarixli 132-ci nömrəsində verilmiş məlumata görə onlar bu teleqramın surətini «Qafqaz» və «Zakafkazye» qəzetlərinin redaksiyasına da göndərmişlər.

Bakının Balaxanı kəndindən isə 20 nəfər ziyalı «Molla Nəsrəddin» jurnalının qapanması haqqında qərarın ləğv edilməsi üçün Qafqaz canişini vəzifəsini icra edən N.Şatilova teleqram göndərmişlər. Həmin teleqramda deyilirdi: «Molla Nəsrəddin» jurnalının bağlanması haqqındakı xəbər bizi dərindən təəccübləndirir. Bu jurnal qaranlıqda qalan müsəlman əhalisi arasında mədəniyyət nuru yaymağa başlayan yeganə məşəl idi. O, siyasi partiyalardan uzaq olmaqla demək olar ki, siyasi məsələlərə toxunmayaraq, müsəlmanların həyatının kölgəli tərəflərini kəskin surətdə ifşa edirdi. Buna görə də o, Avropa mədəniyyətindən uzaq, müsəlmanları mövhumat zülməti içərisində saxlamağa çalışan cəhalətpərəstlərin - molla və seyidlərin nifrətini qazanmışdır. Məhz buna görə də biz əminik ki, «Molla Nəsrəddin» bu avam və cahil ünsürlərin fitnə və danosları nəticəsində bağlanmışdır. Biz, müsəlmanların ziyalı hissəsinin nümayəndələri kimi, cəsarət edərək siz cənabi-alilərindən acizanə xahiş edirik ki, mərhəmət göstərərək müsəlmanların bu sevimli jurnalının ye-

nidən nəşrinə icazə verəsiniz və bununla da onların Avropa mədəniyyəti ilə qovuşmasına imkan yaradasınız».

Onu da xatırlatmaq yerinə düşər ki, jurnalın 1907-ci ildə bağlanması Mirzə Cəlilin Həmidə xanım Cavanşirlə evləndiyi bir vaxta təsadüf edir. Məlumdur ki, Qarabağ bəyləri adlı-sanlı mülkədar ailəsindən çıxmış qabaqcıl bir qadının, «bir budaqda oturub min birini yırğalayan», hakim sinif və müsəlman ruhanilərini rüsvayi-cahan edən «kafər» və «lüt» mühərrirə ərə getməsi ilə heç cür razılaşa bilmirdilər. Həmidə xanım öz xatirələrində yazırdı ki, onların evlənməsindən qəzəblənən Qarabağ bəyləri bu haqda «dedi-qodular», «şayiələr» yayırdılar. Tiflisə qayıdarkən bəylər Ağdam bazarında Mirzə Cəlilin faytonunu qəzaya uğradıb özünü də öldürmək və ya təhqir etmək niyyətinə düşmüşdülər. Bunun əksinə olaraq, elə həmin günlərdə Ağdamın qabaqcıl ziyalıları müvəqqəti Tiflis general-qubernatoruna teleqram göndərərək «müsəlmanların həqiqi tərbiyəçisi, onlara əxlaq və şərəf yolunu göstərən «Molla Nəsrəddin» jurnalının yenidən nəşrinə tezliklə icazə verməyi xahiş edirdilər.

Oxucuların tələbi ilə Qafqaz canişini dəftərxanası canişin vəzifəsini icra edən general-leytenant N.Şatilovun şəxsi göstərişi ilə mətbuat işləri üzrə Tiflis komitəsindən və müvəqqəti Tiflis general-qubernatorundan «Molla Nəsrəddin» jurnalının bağlanması səbəbləri haqqında məlu-

mat tələb edir. Mətbuat işləri üzrə Tiflis komitəsinin sədri V.Kolobov öz məktubunda canişin dəftərxanasına bildirirdi ki, onun tərəfindən müvəqqəti Tiflis general - qubernatoruna «Molla Nəsrəddin» jurnalının «bütün diqqətini başlıca olaraq müsəlman aləminin mənafeyinə yönəldərək, daxili siyasət məsələlərinə nəzakətlə yanaşdığı haqqında» məlumat verilmişdir. General-qubernator N.Timofeyev isə oxucuların tələbləri qarşısında məcbur olub onun yenidən nəşrinə razı olur və 1907-ci il 29 iyun tarixli məktubu ilə jurnalın davamına icazə verdiyini və Tiflis polismeysterinə bu barədə lazımi sərəncam göndərdiyini də canişin dəftərxanasına bildirirdi.

Nəhayət, 22 günlük fasilədən sonra iyun ayının 25-də «Molla Nəsrəddin» jurnalının 23-cü nömrəsi çapdan çıxdı. Həmin nömrədə «İdarədən» başlıqlı yazısında jurnal öz oxucularına bildirirdi ki, «Molla Nəsrəddin» məcmuəsi hökumətin binagüzarlığı ilə bağlanıldığından keçən iki həftə nəşr oluna bilmədi».

Jurnalın yenidən nəşri ilə əlaqədar olaraq oxucular redaksiyaya hər tərəfdən təbrik məktubu və teleqramları göndərirdilər. Bakıdan bir qrup gəncin «Molla Nəsrəddin» jurnalına göndərdiyi təbrik teleqramında oxuyuruq: «Açılmağın münasibətilə təbrik edirik. Sənə xalqımızın tərəqqisinin rəhni olan böyük ideallara xidmət yolunda məğlubedilməzlik arzulayırıq».

«Molla Nəsrəddin» redakсiyası 1907-ci ildə jurnalın nəşri bərpa olunduqdan sonra 24-cü nömrənin ilк səhifəsində verdiyi «Təşəккür» sərlövhəli yazıda oxuculara öz təşəккürünü bildirərəк yazırdı: «Məcmuəmiz bağlanan vaxt Nuxa, Bакı və Gəncə şəhərlərinin maarifpərvər cənabları Tiflis general-qubernatoruna teleqram göndərib xahiş etmişlər кi, məcmuənin açılmasına izin versin. Dostlarımızın dualarının bərəкətindən məcmuəmiz açıldı. Və indi də məcmuəmizin açılmağı barəsində Nuxa, Gəncə, Bакı, İrəvan, Cülfa, Şamaxı, Şuşa və hətta Şimali Qafqazdan təbriк teleqramları gəlməкdədir. Təbriк göndərənlərə birbəbir xüsusi surətdə məкtub və ya teleqramla rizamənd əliк göndərməк bizə mümкün olmadı, o səbəbə кi, dostların çoxusu öz adreslərini müəyyən yazmayıblar кi, onlar ilə müxabirə etməк mümкün ola. Belə olan surətdə bizim təкlifimiz budur кi, cəmi «Molla Nəsrəddin»ə məhəbbət göstərənlərə məcmuəmizin vasitəsi ilə izhari-təşəккür edəк».

Jurnalın 1907-ci ildə bağlanması və onun ətrafında qaldırılmış hay-кüyə yeкun vurarкən onu da qeyd etməк yerinə düşərdi кi, cəhalətpərəstlərin ciddi etirazlarına, qadın azadlığı məsələsi ilə əlaqədar olaraq jurnalın yazıları ətrafında bu qədər söz-söhbət getməsinə baxmayaraq o yenə də öz yolundan, məsləкindən dönmür, yenə də öz dediyini deməкdə, yazdıqlarını yazmaqda da-

vam edirdi.

Jurnalın həmin il iyulun 29-da çıxan 28-ci nömrəsində «Cavabımız» adlı yazıda oxuyuruq: «Hicab məsələsi barəsində idarəmizə çoxlu kağızlar göndərib soruşurlar ki, övrət məsələsi bəs harda qaldı və nə yerdə tamam oldu?

Cavabımız – Biz həmin məsələni başlayanda da demişik və indi də deyirik ki, qızlarımızı gərək oxudaq. Hicab məsələsi barəsində bundan artıq sözümüz yoxdur».

«Molla Nəsrəddin» jurnalının Türkiyə sultanını ifşa etməsi və təqibi bununla qurtarmırdı. Jurnal həmin il sentyabr ayının 2-də çıxan 33-cü nömrəsində sultan Əbdülhəmid haqqında yenidən kəskin xarakterli karikatura verir.

Meymun şəklində təsvir olunmuş sultan Əbdülhəmid əllərini döşündə çarpazlayaraq, stol arxasında oturub, Osmanlı imperiyasını bölüşdürmək planı hazırlayan xarici imperialistlərin qarşısında müti qul təki dayanıb, təzim edir. Meymunun quyruğuna da xarici dövlətlərin ordenləri taxılmışdır. Şəklin altında meymunun – Sultan həmidin dilindən yazılıb: «Baş üstə!»

Xarici imperialist yırtıcılarının müstəmləkəçilik siyasətlərinin həyata keçirilməsində küt silaha çevrilmiş sultan Əbdül Həmidin öz ölkəsinə və xalqına qarşı ikiüzlü, satqın siyasətini ifşa edən həmin karikatura yenidən çar inzibati idarə orqanlarının diqqətini cəlb edir. O döv-

rün qəzetləri xəbər verirdilər ки, «Molla Nəsrəddin» jurnalının икinci redaкtoru Ömər Faiq həmin ilin sentyabrında həbs olunaraq, doqquz gün quberniya həbsxanasında saxlanılmışdır. Ömər Faiqin həbs olunmasını «Molla Nəsrəddin»jurnalı da diqqətsiz buraxmamışdır. Jurnalın 37-ci nömrəsində ağzı qıfıllı, ayaqları qandallı, əlləri arxasında Ömər Faiq varlıların və cahil din xadimlərinin arasında təsvir olunmuşdur. Qıraqda oturmuş şeytanlar – çar inzibati-idarə orqanlarının məmurları zurna çalır, cəhalətpərəstlər isə «Molla Nəsrəddin» redaкtorunun bu vəziyyətini görərəк sevinib şənlənirlər. Şəкlin altında Ömər Faiqə lağ edən bu irticaçı ünsürlərin dilindən yazılmışdır:

Noldu balam ədalarin,
Böyüкlərə cəfalarin,
O ucalan sədalarin
Sən deyən oldu, biz deyən?!

Jurnalın 39-cu nömrəsində isə M.Ə.Sabirin bu münasibətlə yazdığı «Soldumu gülzarın, ey Faiqi Neman pəsər» misrası ilə başlanan şeri dərc olunmuşdur.

Mollanəsrəddinçi Rzaqulu Nəcəfov məlumat verir ки, Ömər Faiqin 1907-ci ildə həbs olunmasına səbəb məhz jurnalın 33-cü nömrəsində sultan Əbdülhəmid haqqında verilmiş каriкatura olmuşdur. Tarixi faкtlar da bu məlumatın düzgünlüyünü təsdiq edir. Belə ки, həmin il sentyabrın 11-də Rusiya xarici işlər nazirliyinin Qafqaz

canişini yanında sərhəd məsələləri üzrə məmuru L.Koxanovskı yenidən müvəqqəti Tiflis general-qubernatoruna məktub göndərir. Həmin məktub hələlik əlimizdə yoxdur. Məmurun 1908-ci il 22 fevralda Peterburqa yazdığı digər məktubdan aydın olur ki, burada məhz jurnalın 1907-ci il 2 sentyabr tarixli 33-cü nömrəsindən söhbət getmişdir. Məktubdan bu da məlum olur ki, müvəqqəti Tiflis general-qubernatoru 1907-ci il oktyabr ayının 12-də sərhəd məsələləri üzrə məmura bildirmişdir ki, «Molla Nəsrəddin» jurnalının redaktorundan təkrarən «Türkiyə sultanı və Türkiyə haqqında karikaturalar dərc etməyəcəyi barədə» iltizamnamə alınmışdır. Jurnal haqqında sonrakı yazışmalara yuxarıda göstərilən dörd nömrədən başqa (1906-cı il № 23, 29 və 1907-ci il № 1, 11) 1907-ci il 33-cü nömrənin də əlavə olunması göstərir ki, həmin yazışmalarda söhbət məhz bu nömrədən getmişdir.

Türkiyə sultanına aid karikaturalara görə jurnalın təqibi və Türkiyənin Tiflisdəki baş konsulu Feyzi bəyin şikayəti haqqında məlumat sonralar «Molla Nəsrəddin» jurnalının səhifələrində də öz əksini tapmışdır. 1911-ci il 31 dekabr tarixli 47-ci nömrəsində dərc etdiyi «Əbdülhəmid» adlı felyetonunda jurnal yazırdı: «Pəs bu haman Əbdülhəmiddir ki, bir vəqt onun şəklini çəkəndə konsul Feyzi bəy bizim üstümüzə Rusiya hökumətinə şikayət vermişdi. İndi məlum olur ki, yer üzünə nə qədər hakim şah

və sultan gəlib-gedibdir – Əbdülhəmid kimi millət və dövlətinə düşmən heç biri olmayıbdır».

1908-ci ilin fevralında, cəhalətpərəstlər arasında «Molla Nəsrəddin» jurnalına qarşı təbliğat kompaniyası gücləndiyi bir zamanda mətbuat işləri üzrə Tiflis komitəsi yenidən jurnal haqqında məsələ qaldırır. 1908-ci il fevral ayının 19-da komitə sərhəd məsələləri üzrə məmur L.Koxanovskiyə məktub göndərərək «yerli mətbuatda tez-tez Türkiyə hökuməti və ya sultana qarşı yönəldilmiş inqilabi ruhlu məqalələr dərc olunduğunu» bildirir. Həm də yazırdı ki, belə hallarda bizim cinayət məcəlləsində dost dövlətlərə qarşı yönəldilmiş cinayətlər üçün mətbuat orqanlarını cəzalandırmaq barədə xüsusi maddə var, bu şərtlə ki, həmin dövlətlər arasında bu barədə qarşılıqlı saziş olsun. O, Rusiya və Türkiyə dövlətləri arasında bu məsələ ilə əlaqədar müvafiq sazişin olub-olmadığını soruşur.

Burada bir maraqlı faktа xüsusilə diqqət yetirmək lazımdır. Mətbuat komitəsinin məktubunda konkret olaraq hər hansı qəzet və ya jurnalın adı çəkilmir. L.Koxanovski isə həmin məsələni aydınlaşdırmaq məqsədilə Peterburqa, Rusiya xarici işlər nazirliyi birinci departamentinin direktoru vəzifəsini icra edən A.Neratova göndərdiyi məktubunda bu iş ilə əlaqədar olaraq xarici işlər nazirliyindən rəhbər göstərişlər verməyi xahiş edir və orada «Molla Nəsrəddin» jurnalının Türkiyə sultanı haq-

Jurnalın 1913-cü il 16-cı nömrəsinin tamamilə müsadirə və məhvinə səbəb olmuş karikatura.

qında kəskin karikaturalar dərc etdiyini də göstərir. Həmin məktubla o, jurnalın 1906-cı il 23 və 29-cu , 1907-ci il 1,11 və 33-cü nömrələrini də baxılmaq üçün Peterburqa göndərir. Habelə həmin məktubda sərhəd məsələləri üzrə məmur «Molla Nəsrəddin» jurnalında Türkiyə sultanı və Türkiyə haqqında dərc olunmuş karikaturalar barədə dəfələrlə müvəqqəti Tiflis general-qubernatoruna və Qafqaz canişini dəftərxanasına gizli məktublar yazdığını, jurnal haqqında ciddi cəza tədbirləri görülməsini xahiş etdiyini bildirir və həmin məktubların surətini də məlumat üçün xarici işlər nazirliyinə göndərir.

Türkiyə sultanı Əbdülhəmid haqqında karikaturalar dərc etdiyinə görə «Molla Nəsrəddin» jurnalının təkcə çar inzibati idarə orqanları tərəfindən təqib olunması ilə iş bitmir. Sultanı «bütün islam aləminin xəlifəsi» hesab edən din xadimləri və mətbuat orqanları ilə də «Molla Nəsrəddin» arasında bu məsələ ilə bağlı ciddi fikir ayrılığı olmuşdur.

Din xadimləri və cəhalətpərəstlər sultan Əbdülhəmidi ifşa etdiyi üçün «Molla Nəsrəddin»i cahil və nadan «Kabla Qubuş»ların dili ilə mətbuatda «dədəsindən bixəbər» adlandırır və sübuta yetirməyə çalışırdılar ki, «o kişi zillullahdı, onun surətini jurnala salmaq» günahdır və şəriətə ziddir.

«Molla Nəsrəddin» jurnalının Türkiyə müstəbid-

lərinə qarşı mübarizəsi çox kəskin idi. Bu işdə o, heç bir güzəştə getmir və heç bir məsələni diqqətsiz buraxmırdı. Başqa qəzet və jurnallar türk sultanlarını tərifləyən yazılar verən kimi «Molla Nəsrəddin» onları kəskin satira atəşinə tuturdu. Məsələn «Tərcüman» qəzeti 1907-ci il 36-cı nömrəsində keçmiş türk sultanlarını tərif edən məqalə verərək yazanda ki, «allah onlara rəhmət eləsin, bizim üçün gözəl-gözəl adətləri qoyub gediblər», buna qarşı «Molla Nəsrəddin» çox kəskin cavab yazır: «Tərcüman»ın bu riyakarlığına gülən və onu lağa qoyan jurnal kinayə ilə göstərirdi ki, bəli «gözəl adətlər» qoyub gediblər. Jurnal yazırdı: «Amma, naüzibillah, mənim yadıma belə gəlir ki, keçən türk padşahları quldurbaşı kimi bir zad imişlər. Mənim belə yadıma gəlir ki, onların arzu və məşğələləri övrətbazlıq... və millətin səadətini öz nəflərinə qurban etmək idi».

«Molla Nəsrəddin» göstərirdi ki, sultan Əbdülhəmid və onun ətrafında olan hakim sinfin nümayəndələri Türkiyəni xalqlar həbsxanasına, yoxsulluq, köləlik və cəhalət yuvasına çevirmişdir. Hürriyyət adı çəkənlərin dili kəsilmiş, gözləri çıxarılmış, həbsxanalara atılaraq tələf edilmişlər. «Azadlıq sözü» dilinə gətirənlər Afrika çöllərində «ayaqları bağlı vəhşi heyvanlara» yedirilmişlər.

Panislamizm və pantürkizm ideyalarını yayan, şahlara, sultanlara və sərvətdarlara nökərçilik edərək on-

ları tərifləyən qəzetləri ifşa edən «Molla Nəsrəddin» göstərirdi ки, «Tərcüman» кeçən padşahları tərifləyir, «Tazə həyat» indiки padşahları tərifləyir, amma bu nainsaflar bircə bunu demirlər ки, bəs biz yazığa nə qalsın?»

Öz pantürкist ibarələrini sübuta yetirməyə çalışarкən «Tazə həyat» redaкtorunun «Molla Nəsrəddin»ə istinad etməyə çalışması və Türкiyə sultanına qarşı onun yazıları «zorla» öz məsləкinə uyğunlaşdırmaq təşəbbüsü jurnalın redaкtoru Mirzə Cəlili bərк hiddətləndirir. O göstərirdi ки, «Tazə həyat» yeddinci nömrəsində bizi də zorla çəкir ки, osmanlı sultanına səcdə eyləyəк və yazır ки, «Molla Nəsrəddin» və cəmi müsəlman qəzetləri osmanlı sultanını zati-ali hesab edirlər».

«Molla Nəsrəddin» jurnalında sultan Əbdülhəmidə qarşı кəsкin yazı və кariкaturalar verildiyi və məhz buna görə də jurnalın güclü təqiblərə məruz qaldığı bir zamanda «Tazə həyat»ın bu cəfəngiyyatını ələ salan Mirzə Cəlil кinayə ilə bildirirdi ки, «Yazıq «Tazə həyat» nə eləsin, Күкəmərdən təzə gəlib və «Molla Nəsrəddin»in nə yazılarını görüb, nə də şəкillərini».

«Molla Nəsrəddin»in bu yazısı ilə əlaqədar olaraq «Tazə həyat»ın redaкtoru H.Vəzirov jurnalı nüfuzdan salmaq məqsədilə ona və redaкtoruna qarşı кüçə söyüşləri ilə dolu sözlərlə hücuma кeçdiyi bir vaxtda belə «Molla Nəsrəddin» təmкinini pozmur, ədəb və mərifət dairəsindən

kənara çıxmayaraq, bildirirdi ki, əgər «Tazə həyat» yenə də məsləkində davam etsə və başlasa ki, «ay sultan qadan alım, ay Hacı başına dönüm» onda biz «qəzetə dairəsindən kənara çıxmamaq şərti ilə yenə yazacağıq».

Təkcə Rusiya imperiyası ərazisində deyil, hətta ondan xaricdə çıxan başqa qəzet və jurnallar da Məmmədəli şah və ya sultan Əbdülhəmidi tərifləndikdə «Molla Nəsrəddin» jurnalı ona biganə qalmamış, onları kəskin satira atəşinə tutmuşdur.

Belə ki, 1908-ci ilin iyulunda gənc türklər hərəkatının təzyiqi ilə sultan Əbdülhəmid Türkiyənin məşhur 1876-cı il konstitusiyasının bərpası haqqında fərman verən kimi Kəlküttədə fars dilində nəşr olunan «Həblül-mətin» qəzeti 1908-ci il 3-cü nömrəsində dərc etdiyi məqalədə sultan Əbdülhəmidi tərifləyərək göylərə qaldırır və göstərirdi ki, guya o, «siyasət aləmində əvvəlinci adamlardan hesab olunur». Qəzet yazırdı ki, «Hərçənd avropalılar sultan Əbdülhəmidi müstəbid və müxalifi – məşrutiyyət hesab eyləyirlər, amma sultandan artıq məşrutəxah heç bir padşah dünyaya gəlməyibdir».

«Həblül-mətin» qəzetinin bu yazılarından hiddətlənən Mirzə Cəlil «Molla Nəsrəddin» jurnalının 1908-ci il 25 avqust 34-cü nömrəsində dərc etdiyi «Təməllüq» felyetonunda kinayə ilə yazırdı ki, hərçənd «möhtərəm ruznamə» dediyi sözlərin heç birinə «bir dəlil gətirməyibdir»,

amma ки «Həblül-mətin»in sözləri doğrudur.

Bundan sonra guya ки, qəzetin «doğru» sözlərini sübuta yetirmək üçün, «mətləbi bir az açmaq» istəyən jurnal sultan Əbdülhəmidi tam rüsvay edir. O yazırdı ки, «sultan Əbdülhəmid taxta əyləşəndən indiyədək Osmanlı məmləкəti üz qoyub parçalanmağa və puça çıxmağa. Biz bunu görürük və bilirik; çünки Osmanlı məmləкəti bizə yavıqdır. Amma «Həblül-mətin» bunu görmür və bilmir; ondan ötrü ки, Osmanlı ilə Kəlкüttənin fasiləsi çoxdur».

«Həblül-mətin»in «sultanın məşrutəxah olmağı» haqqındakı yazısını «izah» edən jurnal yazırdı ки, buna sözümüz yoxdur, çünки «indiyədək sultanın hökmü ilə zindanlarda çürüyən min-min məşrutəxahların ahu-naləsi Kəlкüttəyə çata bilməyib, çünки Kəlкüttə çox uzaqdır!»

Nəhayət, jurnal istehza ilə yazırdı ки, «...biz yenə təsdiq edirik ки, siyasət aləmində, sultanın misli yoxdur, səbəb budur ки, məmləкəti puça çıxarda-çıxarda yenə sultan Əbdülhəmid müsəlmanlar içində o qədər məhəbbət qazanıb ки, hətta bizim dılğır Nuxada və Şamaxıda sultan adı çəкilən кimi gərək hamı dura ayağa».

Maraqlıdır ки, jurnalın bu yazısı da cəhalətpərəstlər arasında ciddi narazılıq doğurur. Nuxalı Cabbar Ciğayev «Tazə həyat» qəzetində çap etdiyi «Nuxa şəhərindən «Molla Nəsrəddin»ə cavab» adlı məqaləsində Mirzə Cəlilin «Təməllüq» felyetonunda sultan Əbdülhəmidin tənqid

edilməsinə kəskin etirazını bildirir. O yazırdı ki, Nuxa və Şamaxı nə qədər həqqi dərk etməyənlərin nəzərində «dılğır» isə də, ancaq biz onu ərz edirik ki, Nuxa və Şamaxıda yüz minlər ilə islam camaatı var ki, allahın «xofundan» gündə beş dəfə namaz qılmaq bir tərəfə, daim allahı yad edib ona dua oxuyurlar. O yazırdı ki, sultan həzrətlərinin adı çəkiləndə bir Nuxa, Şamaxı camaatı deyil 400 milyonluq islam aləminin əksəri ayağa durmaq bir yana, bəlkə onların arasında «ömürlərinin sultan həzrətlərinə bəxş olunmasını allahdan arzu edənlər də dəxi az deyildir».

«Tərəqqi» qəzetinin 1908-ci il 29 sentyabr 66-cı nömrəsində verilmiş «Bizim mətbuat» başlıqlı yazıda C.Ciğayevin bu yazısı kəskin şəkildə tənqid olunaraq, onun «Molla Nəsrəddin» jurnalına cavabı «hər kəsi özünə qəhqəhə ilə güldürəcək, xürafatdan ibarət bir cavab» adlandırılır.

1909-cu ildə sultan Əbdülhəmid taxtdan salındıqda bir çox cəhalətpərəst din xadimləri dini mərasimlər zamanı öz moizələrində Əbdülhəmidi müdafiəyə qalxaraq, sübuta yetirməyə çalışırdılar ki, islam aləminin xəlifəsi olan Türkiyə sultanının taxtdan salınması şəriətə və allahın iradəsinə ziddir. «Molla Nəsrəddin»də dərc olunmuş «Əbdülhəmidə köməyə!» başlığı ilə Şamaxılı «Kosa Hacı İbrahimin dəstəsi» adlı karikaturada bu cür din xadimləri kəskin ifşa edilirdi.

Küləyin dəyişməsi ilə öz məsləklərindən dönən, dünənə qədər Əbdülhəmidi tərifləyərək göylərə qaldıran, onun barəsində ***«şahnamələr yazan»*** irticaçı mətbuat 1909-cu ildə Əbdülhəmid hakimiyyətindən qovulan kimi onu tənqid etməyə başlayır. Bu cür mətbuat orqanlarının səbatsızlığını, ikiüzlülüyünü və məsləksizliyini ifşa edən «Molla Nəsrəddin», «Haman söz» felyetonunda yazırdı ki, bir vaxt biz sultan Əbdülhəmidi tənqid edəndə hamı elə bilirdi ki, «sultan ilə bizim ata-baba davamız var, şəxsi ədavətimiz var».

Jurnal göstərirdi ki, dünənki nömrəsində sultanı tərifləyərək göylərə qaldıran qəzetlər bugünkü nömrəsində yazır: «Osmanlı məmləkətinin parçalanmasına, elm və maarifin məhv olmağına və indi də İstanbulda qanların axmağına səbəb bir zat olubdur, onun adı Əbdülhəmid-xani-sanidir...***Mən elə bilirəm ki, hər şey ötüşsə bu ötüşməz»*** (kursiv bizimdir – A.P.)

1911-ci il 47-ci nömrəsində dərc etdiyi «Əbdülhəmid» adlı felyetonunda «Molla Nəsrəddin» jurnalı göstərirdi ki, dörd-beş il bundan əvvəl biz deyəndə ki, Əbdülhəmid cəmi islamın düşmənidir, xalq bizim özümüzü islama düşmən hesab edirdi. Hər dəfə «o, məlunun» adını» çəkəndə «Şamaxı müqəddəslərindən», «Nuxa mömünlərindən», «Dağıstan ləzgilərindən» və «Şimal vəhşilərindən» gündə beş dəfə «fəhş və yaman» eşidirdik.

Amma Bakıda nəşr olunan və avam camaatın hörmətini qazanan gündəlik qəzetlərimiz uzun papaq, nadan sünni qardaşlarımızın xatirini əldə saxlamaq üçün «Əbdülhəmidi tərif və təhsin edirdilər».

Bütün çətinliklərə baxmayaraq, «Molla Nəsrəddin» jurnalına qarşı görülmüş hər cür cəza tədbiri və təqiblər bir nəticə verməmiş, jurnal Türkiyə istibdadını və sultan Əbdülhəmidi tənqiddən bir addım geri durmamışdı.

1908-ci ilin əvvəllərində «Molla Nəsrəddin» jurnalının təqibi yenidən güclənir. Bu dəfə o, təkcə Türkiyə sultanının ifşasına görə deyil, həm də İran şahı və dini fanatizmi qamçılayan yazı və karikaturalar dərc etməkdə ittiham olunur.

Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivində saxlanan çoxlu sənədlər sübut edir ki, İran inqilabçıları ilə yaxın əlaqə saxladığı, İran şahı Məmmədəlini kəskin surətdə ifşa etdiyi üçün də «Molla Nəsrəddin» jurnalı çar inzibati-idarələri tərəfindən ciddi nəzərət altında saxlanılmışdır. Bunu Qafqaz canişini dəftərxanası polis hissəsi üzrə xüsusi şöbəsinin Tiflis quberniya jandarm idarəsinə yazdığı 1908-ci il 7 aprel tarixli bir məktub daha aydın sübut edir. Məktubun məzmununa toxunmazdan əvvəl, 1907 və 1908-ci illərdə jurnalda İran şahı Məmmədəli və onun irticaçı baş naziri Mirzə Ələsgər xana sui-qəsd ilə

əlaqədar verilən yazı və karikaturalara qısaca nəzər salaq.

Jurnalın 1907-ci il 34-cü nömrəsində dərc olunmuş karikaturada axirət dünyası – cənnət, cəhənnəm, qıl körpü və mizan-tərəzi təsvir olunmuşdur. İranın baş naziri Atabəy Mirzə Ələsgərxana sui-qəsd etmiş Abbas ağa öz yoldaşları ilə birlikdə cənnətdə təsvir olunmuşlar. Onun qətl etdiyi Mirzə Ələsgər xan isə cəhənnəm odunda yanır. Hər tərəfdən əllərində körük dayanmış əcinnələr körükləyərək cəhənnəm alovunu daha da şiddətləndirirlər. Buynuzlu şeytanlar isə bir dəstə adamı cəhənnəmlə – cənnət arasında qurulmuş qıl körpüyə doğru itələyirlər. Məmmədəli şahı isə mizan-tərəziyə qoyaraq çəkirlər. Günahları özündən ağır olduğu üçün o da cəhənnəmə getməlidir.

Jurnalın 1908-ci il 4-cü nömrəsində «cəhənnəmdəki öz məxsusi müxbirimizdən» adlı teleqraf xəbərində oxuyuruq: «Cəhənnəmdə böyük bir hazırlıq var. Səqər stansiyasından Veyl səmtinə gedən yolu çox cəlallı bəzəyirlər. Deyirlər ki, yaxınlarda bir müqəddəs vücud buraya təşrif gətirəcək. Sirat körpüsünün çox qorxusu var, çünki ola bilər ki, qılı davam gətirməyib qırıla. Əhvalatı gələcəkdə yenə yazaram».

1908-ci il fevralın 15-də Tehranda Məmmədəli şaha qarşı sui-qəsd baş tutmur. Bundan 3 gün sonra, yəni fevralın 18-də «Molla Nəsrəddin» jurnalı yenidən «cəhən-

nəm öz məxsusi müxbirimizdən» adlı teleqramında yazırdı: «Hamı hazırlandı ки, buraya təşrif buyuracaq müqəddəs şəxsin pişvazına çıxsınlar. Amma Veyl mənbəindən alınan ***doğru*** xəbərə görə vücudi-möhtərəmin təşrifi təxirə düşüb».

Gətirdiyimiz yazıların məzmunundan aydın olur ки, «cəhənnəm» dediкdə «Molla Nəsrəddin» jurnalı bilavasitə «İranı», orada ölкəni cəhənnəmə çevirmiş şah istibdadına qarşı gedən ölüm-dirim mübarizəsini nəzərdə tuturdu. Jurnalın digər felyeton və yazılarında da cəhənnəm ifadəsi bilavasitə İrana aid edilirdi.

Adı çəкilən məкtubda məhz bu каriкatura və yazılar diqqətlə izlənmiş və nəticədə Qafqaz canişini dəftərxanasının polis hissəsi üzrə xüsusi şöbəsi həmin məкtubunda bu qərara gəlmişdir ки, «indi xüsusilə Tehrandaкı hadisələrlə əlaqədar olaraq, yuxarıda göstərilən yazıların məzmunu, yəni «vücudi-müqəddəsin» xatırladılması şübhə doğurmaya bilməz. İran fədailərinin Qafqaz inqilabi dərnəкləri ilə sıx və yaxın münasibətdə olduqları artıq çoxdan etibarlı mənbələrdən müəyyən edilmişdir.

...Çoxlu İran təbəəsinin Qafqazda yaşaması ilə əlaqədar olaraq, İranda baş verən müxtəlif inqilabi hadisələrin əvvəlcədən Baкı və Tiflisdə ətraflı surətdə məlum olduğunu deməк o qədər də çətin deyildir. «Molla Nəsrəddin» qəzetində (jurnalında – A.P) yuxarıda göstərilmiş ya-

zıların tarixini müqayisə etdikdə bu fikir bir daha aydın olur».

1908-ci il aprelin 9-da Qafqaz mühafizə şöbəsi Tiflis, Bakı və Batum mühafizə şöbə və məntəqələrinə «Molla Nəsrəddin» jurnalının İran və Qafqaz inqilabçıları ilə əlaqəsini müəyyənləşdirmək haqqında gizli sərəncam verir. Həmin sərəncamda deyilirdi: «Rayon mühafizə şöbəsinə daxil olan məlumatlardan görünür ki, Tiflis şəhərində nəşr edilən «Molla Nəsrəddin» qəzeti (jurnalı – A.P.) yanvar və fevral nömrələrində İran şahının həyatına sui-qəsd ediləcəyini əvvəlcədən xəbər verən yazılar dərc etmişdir ki, bu da həmin qəzet redaksiyasının İran və Qafqaz inqilabi təşkilatları ilə əlaqədə olduğu nəticəsini çıxarmağa imkan verir...

Yuxarıda yazılanlar barədə xəbər verərək Qafqaz rayon mühafizə şöbəsi xahiş edir ki, İran və yerli inqilab təşkilatların əlaqələrini öyrənmək üçün tədbirlər görün və axtarışın nəticələri barədə məlumat göndərin».

Maraqlıdır ki, bu yazışmalardan bir qədər sonra, yəni iyun ayının axırlarında «Baku», «Tazə həyat» və başqa qəzetlərin səhifələrində belə bir elan dərc edilmişdir: «Tiflisdə nəşr olunan «Molla Nəsrəddin» məcmuəsinin İrana maneəsiz buraxılmasına hökumət tərəfindən izn verilmişdir».

Məmmədəli şah haqqında karikaturalar və kəskin

siyasi xarakterli yazılar dərc etdiyi üçün «Molla Nəsrəddin» jurnalı sonralar da nəzarət altında saxlanmışdır. Tiflis qubernatoru dəftərxanası 1908-ci il 2 sentyabr tarixli «çox təcili» məktubu ilə mətbuat işləri üzrə Tiflis komitəsindən «Molla Nəsrəddin» jurnalının axırıncı 10 nömrəsini göndərməyi tələb edir. Jurnalın həmin il 26-35-ci nömrələrini alan qubernator dəftərxanası mətbuat komitəsindən «Molla Nəsrəddin»in 10 nömrəsində getmiş karikaturaların şəkilaltı yazılarının rus dilinə tərcüməsini də tələb edirlər. Qubernator jurnalın 10 nömrəsinə baxır və onların şəkilaltı yazıları ilə tanış olur. Bundan sonra o, sentyabrın 13-də öz dəftərxanası vasitəsilə jurnalın tələb olunmuş nömrələrini mətbuat komitəsinə qaytararaq Qafqaz canişini adından komitəyə göstəriş verir ki, «gələcəkdə həmin jurnalın səhifələrində İran şahına hücum edilməsi üzərində nəzarət qoyulsun».

Yeri gəlmişkən qeyd edək ki, bu məktubla əlaqədar olaraq, mətbuat işləri üzrə Tiflis komitəsinin sədri V.Kolobov ilə Tiflis qubernatoru M.Lozino-Lozinski arasında münaqişə də yaranır. Komitənin sədrinə xoş gəlmir ki, canişinin göstərişini ona qubernator öz imzası ilə deyil, məhz dəftərxana müdirinin imzası ilə göndərmişdir. Buna görə də o, sentyabr ayının 22-də Tiflis qubernatoruna etiraz məktubu yazmış, habelə Qafqaz canişini dəftərxanasına müraciət edərək Tiflis qubernatorunun

hərəkətlərinə qarşı öz nararazılığını bildirərək həqiqətən də canişin tərəfindən Tiflis qubernatoruna belə bir göstəriş verilib-verilmədiyini soruşmuşdur.

Bu yazışmalarda diqqəti daha çox cəlb edən başlıca cəhət budur ki, onların hamısında belə bir məlumat var: «Molla Nəsrəddin» jurnalının ***«son dərəcə inqilabi istiqaməti haqqında»*** (kursiv bizimdir – A.P.) Qafqaz canişini vəzifəsini icra edən N.Şatilova məlumat verilmişdir.

V.Kolobov Qafqaz canişini dəftərxanasına yazdığı məktubunda Tiflis qubernatorunun hərəkətinə qarşı öz etirazını bildirir və yazırdı ki, əgər sizin dəftərxanada bu məsələ ilə əlaqədar Tiflis qubernatorunun yazılı məruzəsi və canişinin onunla əlaqədar rəhbər göstərişi varsa, o haqda məlumat verməyi xahiş edirik. Həm də öz məktubunda V.Kolobov bildirirdi ki, xarici ölkə başçılarına hücum üçün mətbuat orqanını cəzalandırmaq məsələsi bizim qanunlarda nəzərdə tutulmamışdır. Bilavasitə «Molla Nəsrəddin» jurnalına aid olan materiallara gəldikdə isə mətbuatda çap olunacaq materialların əvvəlcədən baxılmaq üçün senzuraya təqdim olunmasının ləğv edilməsi komitənin işini çətinləşdirir və ona imkan vermir ki, gələcəkdə İran şahına qarşı hücumun qabağını almaq üçün jurnalın materiallarını izləsin. Qanunlar mətbuat komitəsinə ixtiyar verir ki, bu işdə cinayətkarı fakt qarşısında

(Post factum) qoyaraq məhkəmə məsuliyyətinə cəlb etsin. Komitənin ixtiyarı var ki, baxılmaq üçün əvvəlcədən təqdim olunmuş karikaturanı buraxmasın. Qubernator isə İran şahına bu cür hücumları xüsusi qərarla qadağan edə bilər və ya jurnalın redaktoruna xəbərdarlıq edə bilər ki, onun şaha qələm hücumları zərərli bir iş kimi inzibati yolla cəzalandırılacaqdır.

V.Kolobovun həmin məktubundan bu da aydın olur ki, sentyabr ayının 5-də o, Qafqaz canişini vəzifəsini icra edən N.Şatilova «Molla Nəsrəddin» jurnalı haqqında şəxsən yazılı şəkildə məruzə etmiş, özü də canişini inandırmağa çalışmışdır ki, jurnalın «son dərəcədə inqilabi istiqaməti haqqında» ona verilmiş məlumat yanlışdır və real əsası yoxdur. V.Kolobovun yazdığına görə canişin gətirilən dəlillərə inanmış və onunla razılaşmışdır.

Tiflis qubernatoru M.Lozino-Lozinski isə mətbuat komitəsinə 24 sentyabr tarixli təcili məktubu ilə bildirirdi ki, gündəlik məruzələrimdən birində mən Qafqaz canişinindən «Molla Nəsrəddin» jurnalına qarşı diqqəti artırmaq haqqında göstəriş aldım. Sizin komitədən aldığım jurnalın on nömrəsinə baxdım və növbəti məruzələrimin birində şifahi olaraq canişinə «Molla Nəsrəddin» jurnalında zərərli bir şey tapmadığımı bildirdim. Onda canişindən yeni göstəriş aldım ki, «həmin jurnalın redaktoruna xəbərdarlıq et ki, gələcəkdə İran şahına qarşı

hücumu dayandırsın, Mətbuat işləri üzrə Tiflis komitəsinə xəbər ver ki, bu işə nəzarət etsinlər. Bu göstərişi mən olduğu kimi icra etmişəm».

Həqiqətdə də sentyabr ayının 13-də Tiflis qubernatoru dətərxanası, Tiflis polismeysterinə «Molla Nəsrəddin» jurnalının redaktoru Cəlil Məmmədquluzadənin yaxın günlərdə qubernatorun hüzuruna gəlməsini təmin etmək haqqında göstəriş verir. Sentyabrın 17-də isə C.Məmmədquluzadə həmin sərəncamın ona elan olunduğu barədə qəbz vermiş və həmin günlərdə qubernatorun hüzuruna getmişdir.

Bütün bu xəbərdarlıqlara baxmayaraq, Şərq müstəbidlərinə qarşı mübarizədə öz qarşısında «öldü var, dönü yoxdur» kimi məqsəd qoymuş «Molla Nəsrəddin» jurnalı axıra qədər Məmmədəli şahı və sultan Əbdülhəmidi rüsvay edən yazı və karikaturalar verməkdə davam etmişdir.

Rusiya hökumətinin İrandakı səfiri Poklevski-Kozelli 1910-cu il avqust ayının 21-də Tehrandakı hadisələrə dair Peterburqa göndərdiyi rəsmi məlumatlarının birində yazırdı ki, İran «məclisinin tam bir iclası müxtəlif yaramaz hərəkətlərinə görə, Tiflisdə çıxan yumoristik «Molla Nəsrəddin» jurnalında ittiham olunmuş deputat Seyid Nəsrullahın özünü təmizə çıxarmaq təşəbbüsünə həsr edilmişdir».

Bu necə olmuşdur? Məlumdur ки, «məşrutə yaxşı şeydir» və ya «məşrutə pis şeydir» deyərкən yalnız «bəli, bəli əlbəttə» deyən xalqın cəhalət və avamlığından istifadə edən bir çox din xadimləri müxtəlif yollarla məclisə üzv seçilmişdilər. Elələrindən biri də Hacı Seyid Nəsrullah idi. «Molla Nəsrəddin» jurnalının 1910-cu il 29-cu nömrəsində «Ağayi-müqəddəs» başlığı ilə fars dilində verilmiş yazıda seyid Nəsrullahın кeçmişi və onun hərəкətləri ciddi tənqid olunur. Avqustun 17-də İran məclisinin 134-cü iclasını açan sədr deputatlardan Hacı Seyid Nəsrullahın Tiflisdə nəşr olunan «Molla Nəsrəddin» jurnalında tənqid olunduğunu bildirir. Bu məsələ ilə əlaqədar olaraq, söz alan Seyid Nəsrullah onun haqqında verilmiş yazıların doğru olmadığı haqqında məclis üzvlərinə uzun-uzadı izahat vermiş və tələb etmişdir ки, xarici işlər nazirliyi vasitəsilə «Molla Nəsrəddin» jurnalı idarəsindən məqalə müəllifinin adı tələb edilsin. Həqiqətdə məclisin tam bir iclası bu məsələnin müzaкirəsinə həsr olunmuş, nəhayət, məclis üzvləri bu haqda müəyyən qərar çıxarmaq təкlif etdiкdə iclasın sədri başa düşür ки, necə deyərlər bu məsələnin müzaкirəsində çox «dərinə getmişlər». Ona görə də məclisin bu barədə qərar çıxarmasına mane olaraq deyir: «Eşidildi və nəzərə alındı. Kifayətdir».

«Molla Nəsrəddin» jurnalı yenə də bu məsələyə biganə qalmamış 35-ci nömrəsində dərc etdiyi «İran əldən gedir» felyetonunda İran məclisini кəsкin satira atəşinə

tutmuşdur. Jurnal yazırdı: «İndi bu məclisdən nə gözləmək olar? Bu məclisdən onu gözləmək olar ki, rəisi məclisi açar və vükaləyə xitab edər ki, «həzarat! Tiflisdə bir «Molla Nəsrəddin» var. O, «Molla Nəsrəddin» Hacı Seyid Nəsrullah ağaya sataşıb, gəlin onu müzakirəyə qoyaq». Bəli o gün İran məclisi-millisinin müzakirəsi o olur ki, vüzəra vasitəsilə yazıb hökmən «Molla Nəsrəddin»dən o məqaləni yazanın imzasını istəsinlər».

İran milli məclisinin dövləti idarə işlərini buraxaraq bu cür məsələlərlə məşğul olmasından hiddətlənən jurnal yazırdı: «Orada bir nəfər tapılmır ki, bunlara desin – Cənab vəkillər, bəlkə bir nəfər vəkilin həyat yoldaşı bozbaşı şit bişirdi o da məclisi-millidə müzakirəyə qoyulacaqmı?» Jurnal qeyd edirdi ki, bir qəzet, jurnal, ya müxbir «Hacı Seyid Nəsrullaha və bir qeyrisinə toxunubsa, bunun məclisi-milliyə nə dəxli?! Qoy o, getsin özü öz şəxsi davasını çəksin».

İran, Türkiyə xüsusilə sultan Əbdülhəmid və Məmmədəli şah istibdadının «Molla Nəsrəddin» jurnalı çar mütləqiyyətinin hökm sürdüyü bir şəraitdə nəşr olunduğu halda istibdad üsulu-idarəsi müstəbidlərini seçmişdir? Məgər onun bilavasitə yaşadığı «xalqlar həbsxanası» olan çar Rusiyasında II Nikolayın xalqa etdiyi zülm sultan Əbdülhəmidin, yaxud Məmmədəli şahın istibdadından gerimi qalırdı? Bu suala ən dolğun cavabı Mirzə Cəlil özü vermişdi: «Nikolay padşahla o qədər də işimiz yox idi;

çünki bunu da görürdük ki, ***Rus padşahı və Rusiya istibdadını bizdən də çox qüvvətli olan şimal və xaçpərəst qələm yoldaşlarımız iti qələmlərinin nişanəsinə qoymuşlar*** (kursiv bizimdir – A.P.) Bizim qabağımızda dağ kimi duran istibdad Şərq istibdadı və Şərq qaranlığı idi, şah və sultan istibdadı idi».

Ancaq bu heç də o demək deyildi ki, jurnal çar istibdadını ifşa etmək işini tamamilə yaddan çıxarmışdı. Məlumdur ki, jurnalda II Nikolayın irticaçı yüksək rütbəli nazir və məmurları P.N.Durnovo, V.M.Puruşkeviç, K.P.Pobedonossevdən tutmuş Şamaxı pristavı Cəbrayılova qədər çar istibdadının onlarla sadiq nökərləri kəskin satira atəşinə tutulmuşdur.

«Molla Nəsrəddin» Şərqdə istibdad quruluşu, Şərq müstəbidləri – İran şahı Məmmədəli və Türkiyə sultanı Əbdülhəmid haqqında onlarla karikatura, satirik şer, felyeton və digər yazılar verərək onları açıq şəkildə rüsvay edirsə, 1917-ci ilə qədər II Nikolayın adı bilavasitə «Molla Nəsrəddin» jurnalında tək bircə dəfə 1906-cı ildə çəkilmişdir. Özü də dolayı yolla Şamaxı məhkəməsinin üzvü Hacı Əbdürrəhim əfəndinin ərəb dilində yazıb «imperator Nikolay və imperatriça adına» Peterburqa göndərdiyi şerlə əlaqədar çəkilmişdir. Həm də burada jurnal II Nikolayı Əbdürrəhim əfəndinin dilindən lağa qoyaraq onu «uca olan və yenə ucadan da, ucadan da, ucadan da, uca olan imperator-əzəm sələməllahü təaliyyə» adlandırır. Düzdür, sonralar Rusiyadan söhbət gedərkən «imperator», «pad-

şahi-ali», «padşah» ifadələrini işlətməklə jurnal bilavasitə II Nikolayı nəzərdə tutur, ancaq onun haqqında ayrıca olaraq heç bir yazı və karikatura vermirdi.

Bu, bir tərəfdən jurnalın redaktorundan «əlahəzrət imperator və ailəsi haqqında» yazılar verəcəyi barədə müntəzəm olaraq iltizamnamələr alınması ilə əlaqədar idisə, digər tərəfdən də mollanəsrəddinçilər əmin idilər ki, rus padşahı və Rusiya istibdadını «çox qüvvətli olan Şimal və xaçpərəst qələm yoldaşları iti qələmlərinin nişanəsinə qoymuşlar». Molla nəsrəddinçilər və onun ideya rəhbəri Mirzə Cəlil yaxşı başa düşürdü ki, sultan Əbdülhəmid, yaxud Məmmədəli şahı ifşa etmək onlardan geri qalmayan II Nikolayı da ifşa etmək deməkdir. Nəhayət, «Molla Nəsrəddin» jurnalı İran və Türkiyədə istibdad üsuli-idarəsini ifşa etməklə, həm də onların hər hansı müstəbid, mütləqiyyət quruluşu, o cümlədən çar mütləqiyyəti ilə doğmalaşdıran ümumi cəhətlərini də rüsvay etmiş olurdu.

Jurnal bir lüğətində verdiyi: «İstibdad» sözünü belə mənalandırırdı: «füqəranın və qurbanın dadına yetişmək. İran, Rusiya və Osmanlı hökumətləri idarəsinin övzası». Beləliklə «Molla Nəsrəddin» jurnalı İran, Rusiya və Türkiyədəki monarxiya quruluşu, onların xalqa etdikləri zülm və sitəmlər arasında əsaslı fərq görməmişdir.

«Molla Nəsrəddin» jurnalında II Nikolay haqqında yazı və karikaturalar verilməməsinə başlıca səbəblərdən biri də bu idi ki, hər tərəfdən təqib olunan, sıxışdırılan, dəfələrlə bağlanan və müsadirə olunan, həm də senzura tərəfindən ciddi surətdə izlənən jurnal belə bir hərəkətlə

özünü tamamilə məhv olmaq təhlükəsi qarşısında qoya bilərdi. Mirzə Cəlil və Ömər Faiq çar məmurlarını jurnalın Rusiya mütləqiyyətinə qarşı ***«siyasi cəhətdən istiqamətinin nəzakətli»*** (kursiv bizimdir – A.P.) olduğunu inandırmağa çalışırdılar. Onlar müəyyən dərəcədə öz məqsədlərinə nail ola bilmişdilər. Son illərin tədqiqatları göstərir ki, bu işdə 1906-cı ilin yayından mətbuat işləri üzrə Tiflis komitəsində Şərq dilləri üzrə senzor işləyən və «Molla Nəsrəddin» jurnalının materiallarını bilavasitə yoxlayan, Mirzə Cəlil və Ömər Faiqlə yaxınlıq edən Mirzə Şərif Mirzəyevin də müəyyən köməyi olmuşdur. Bunu onun 1914-cü il mart ayının 19-da jurnalın redaktorları C.Məmmədquluzadə və Ə.Qəmküsarın məhkəmə işi zamanı ekspert kimi etdiyi çıxışı və Mirzə Cəlilin arxivində saxlanan «Qafqazda türk mətbuatı tarixinə aid xatirələri»ndə verilmiş məlumatlar da sübut edir. Görünür ki, komitənin sədri V.Kolobovun yanında böyük nüfuz sahibi olan M.Ş.Mirzəyev ona «Molla Nəsrəddin» jurnalının daxili siyasət məsələlərinə «nəzakətlə yanaşdığını» inandıra bilmişdir.

Buna görə idi ki, 1907-ci ildə «Molla Nəsrəddin» müvəqqəti Tiflis general-qubernatoru N.Timofeyev tərəfindən bağlanarkən V.Kolobov Qafqaz canişini dəftərxanasına göndərdiyi məktubda jurnalın «bütün diqqətini başlıca olaraq, müsəlman aləminin mənafeinə yönəldərək daxili siyasət məsələlərinə nəzakətlə yanaşdığını» yazır və jurnalın yenidən nəşrinə icazə verməyi tamamilə mümkün hesab edirdi.

Bu fikri sübut edən faktlardan biri də odur ki, jurnalda verilən yazıların çoxu məzmunca daha kəskin olduqları halda jurnal ən çox öz karikaturalarına görə təqib olunmuşdur. Çox güman ki, senzor mətnlərdəki kəskin yazıların məzmununu mətbuat komitəsinin rəhbərliyinə ya bildirməmiş, ya da belə kəskin məzmunlu yazıların çoxu xarici ölkə təbəələrinə qarşı yönəldildiyinə görə, nəhayət bu yazıların çox zaman ezop dilində olması Azərbaycan realitstlərinin xeyrinə olmuş və senzuradan diqqəti yayındırmaq işində yaxşı kara gəlmişdir.

Burada məlum bir faktı da yada salmaq yerinə düşər ki, Mirzə Cəlil jurnalın nəşrini davam etdirmək üçün özünün və yaxın dostlarının əlaqə saxladığı nüfuzlu şəxslərdən də istifadə etmişdir. Bu baxımdan hələlik şəxsiyyətini müəyyənləşdirə bilmədiyimiz bir nəfərin 1910-cu il oktyabrın 11-də Tiflis qubernatoru dəftərxanasının rəisi K.E.Rodzeviçə yazdığı məktub olduqca maraqlıdır. Burada o, «Molla Nəsrəddin» redaktorunun Ağdama getməsi ilə əlaqədar olaraq onun yerinə Məmmədəli Sidqinin müvəqqəti redaktor təsdiq olunması işini ləngitməməyi xahiş edərək yazırdı ki, «onlar mənə sizin ən yaxşı tanışınız kimi müraciət etmişlər. Ümid edirəm ki, xahişim yerinə yetiriləcəkdir.

Sənədlər sübut edir ki, bu məktubdan sonra Məmmədəli Sidqinin «Molla Nəsrəddin» jurnalına müvəqqəti redaktor təsdiq olunması işi həqiqətən də tezləşdirilmişdir.

MOLLALAR "TUFAN" QOPARIR

"...Gahdan bir məcmuədə arının yuvasına çöp uzadan da gürcü məhəlləsinin bir xəlvət yerində gizlənirdim və arıların hirsinin yatmağına müntəzir olurdum"

C. Məmmədquluzadə.

"Molla Nəsrəddin"in 1907-ci il 48-ci nömrəsindəki "Məsləkimiz" adlı felyetonda yeni il məramnaməsi belə müəyyən edilmişdi: "...Həmin təzə 1908-ci ildə də "Molla Nəsrəddin" öz məsləkində davam edib yazacaqdır; yəni hərdən bir xalqın üstünə güləcək və hərdən də bir xalqı öz üstünə güldürəcək. Rabiən və bundan da əlavə "Molla Nəsrəddin" köhnə sayaqdan hürriyyət və ədalət bayrağı altında çalışacaqdır".

1908-ci ildə böyük əziyyətlər bahasına da olsa Mirzə Cəlil jurnalın 52 nömrəsini buraxa bilmişdir. Ancaq həmin il "Molla Nəsrəddin" jurnalı öz tarixində ən çox təqib olunmuş və redaktoru ilk dəfə məhkəməyə çəkilmişdir.

"Kaspi" qəzetinin 1908-ci il 62-ci nömrəsində belə bir xəbər verilmişdi: "Tiflis dairə məhkəməsinin cinayət işləri şöbəsi üzrə binagüzarlıq iclasında Azərbaycan dilində "Molla Nəsrəddin" jurnalı redaktorunun cəza qanunlarının 1536-cı maddəsinə[1] uyğun olaraq, ittiham edilməsi işi dayandırılmışdır".

---

[1] Həmin maddədə bədii əsər və ya rəsmlər vasitəsilə başqasının heysiyyətinə toxunan və başqasına qarşı böhtan yaymaqda müqəssir sayılan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsindən bəhs olunur.

Jurnalın tədqiqatçılarından qocaman mətbuat işçisi Q.Məmmədli Həmidə xanımın xatirələrinə əsaslanaraq, "Molla Nəsrəddin" kitabında bu xəbər haqqında yazır: "Ehtimal ki, bu, qubernator qraf Tizenqauzenin "Fatı" şeri əleyhinə qaldırdığı ittiham idi".

Həmidə xanım xatirələrində yazır ki, "1908-ci ilin qışında bir gün İrəvan qubernatorunu mətbuatda təhqir etdiyi üçün Mirzə Cəlilin məsuliyyətə cəlb olunması haqqında altıncı nahiyyənin məntəqəsindən çağırış vərəqi aldıq. Vərəqədə göstərildiyinə görə Mirzə Cəlil istintaq üçün İrəvana getməli idi".

Həmidə xanımın məlumatına görə İrəvanda istintaq zamanı məlum olur ki, "Molla Nəsrəddin" redaktorunu jurnalın 1907-ci il 34-cü nömrəsində verilmiş "Fatı" mənzuməsində İrəvan qubernatoruna sataşmaqda təqsirləndirirlər. Şeri M.S.Ordubadinin atası Hacı ağa Fəqir yazmışdır.

Mənzumənin məzmunu belədir ki, yoxsul kürd qadını Fatı gözəl bir at çulu toxuyub əri Şemova verir ki, aparıb şəhərdə satsın və uşaqlarına pal-paltar alsın. Çulu bazarda sata bilməyən kişi onu aparıb qubernatora bağışlayır və ümid edir ki, qubernator ona çulun qiymətindən daha artıq pul verəcək. Qubernator isə çulu alaraq, kişiyə üç dəfə "xoroşo" və bir dəfə "molodes" deyib, onu yola salır.

Mirzə Cəlil izahat verir ki, bu şeri o deyil, hələ 20 il bundan əvvəl vəfat etmiş Hacı ağa Fəqir təxəllüslü şair yazmış və onun indiki İrəvan qubernatoru Tizenqauzenə

heç bir dəxli yoxdur. Həmidə xanımın yazdığına görə bu işə o şərtlə xitam verilir ki, Mirzə Cəlil bu haqda mətbuatda çıxış edib mənzumənin İrəvan qubernatoru Tizenqauzenlə heç bir əlaqəsi olmadığını izah etsin.

Həqiqətdə isə jurnalın 48-ci nömrəsində "İdarədən" başlığı altında məcmuənin müdir və baş mühərriri Cəlil Məmmədquluzadənin imzası ilə belə bir izahat verilmişdir: "Məcmuəmizin 34-cü nömrəsində dərc etdiyimiz "Fatı" sərlövhəli mənzumə gərək oxucularımızın nəzərində ola. Mənzumənin 3-cü sətrində şair deyir ki, əhvalat vaqe olub "keçən il". Belə olan surətdə əhvalatı nəzmə çəkən məşhur Fəqiri tanımayan oxucularımız belə xəyal edə bilərlər ki, Fatının qubernatoru çul aparmağı həqiqətdə keçən il vaqe olub.

Oxucularımızı bu cür iştibahdan çıxarmaqdan ötrü lazım bilirik bunu söyləyək ki, həmin mənzumənin müsənnifi Ordubad şairlərindən məşhur Fəqir vəfat edib təxminən 20 il bundan qabaq və həmin əhvalatı yazıb bəlkə otuz il bundan irəli. Bunu Naxçıvan və Ordubad mahalında hamı təsdiq edə bilər, çünki oralarda mərhumu tanımayan müsəlman azdır. Hər halda Fatının qubernatora çul təqdim etməyinin indiki qubernatora dəxli ola bilməz. Əvvəla bu səbəbə ki, hazırdakı qubernator qraf Tizenqauzeni biz dövlətli bir şəxs kimi tanıyırıq və əgər müşarileyh bir kasıb kürddən bir çul qəbul etməli olsaydı, onu dəxi artıq ənam ilə yola salardı və ikincisi də budur ki, necə də yuxarıda işarə olunurdu, "Fatı" mənzuməsi indiki qubernatordan çox irəlidə yazılıb".

Yuxarıda göstərilən tarixlərə diqqət yetirdikdə görürük ki, İrəvan qubernatoru ilə əlaqədar iş üçün Mirzə Cəlil 1908-ci ilin qışında deyil, təxminən 1907-ci il noyabrın axırları və ya dekabrın birinci ongünlüyündə İrəvana getmişdir.

Elə isə 1908-ci ilin əvvəllərində "Molla Nəsrəddin" jurnalının çar inzibati-idarə orqanları tərəfindən təqibinə və məhkəmə məsuliyyətinə cəlb edilməsinə səbəb nə ola bilərdi?

O dövrün mətbuatında "Molla Nəsrəddin" haqqında gedən yazılar bu məsələni aydınlaşdırmağa imkan verir. Həmin ilin fevralında "Zakafkazye" qəzetinin verdiyi məlumatlardan göründüyü kimi, jurnalın ittiham edilməsinə səbəb Bakı ruhanilərinin Qafqaz canişininə min nəfərin imzası ilə vurduqları teleqram olmuşdur. Burada cəhalətpərəstlər "Molla Nəsrəddin" jurnalını bağlamağı, əməkdaşlarını isə inzibati qaydada cəzalandırmağı tələb edirdilər. Həmin qəzet 1908-ci ilin 13 fevralında yazırdı ki, "Molla Nəsrəddin" jurnalı bakılı Molla Məhəmmədəminə sataşdığı üçün, həmin molla "Qasımbəy məscidində" məhərrəmlik təziyəsi zamanı müsəlmanları Kərbəla şəhidləri naminə "Molla Nəsrəddin"i bağlatdırmağa çağırmışdı.

Molla Məhəmmədəminin bu qədər dərin nifrətinə səbəb "Molla Nəsrəddin" jurnalının 1908-ci il 5-ci nömrəsində onun haqqında verilmiş karikatura olmuşdur. "Bakı-

nın Hacı Cavad məscidində" mömin müsəlmanların əhatə etdiyi "Molla Məhəmmədəminin" sağ əlində quranı, sol əlində isə, murdar olduğu üçün barmaqlarının ucu ilə tutduğu "Molla Nəsrəddin" jurnalını göstərib deyir: "Evin yıxılsın, "Molla Nəsrəddin", sən bizim məscidləri və qəbristanlarımızı dağıtdın!..."

Mirzə Cəlilin təbrincə desək, "arının yuvasına çöp uzatmış", "Molla Nəsrəddin" jurnalı yenə də onları acıqlandırmışdır. Məhz Molla Məhəmmədəminin təhriki ilə bir qrup qaragüruhçu din xadimi avam xalqı tovlayıb min nəfərin imzasını toplayaraq, Qafqaz canişininə teleqram göndərmiş və jurnalın cinayət məsuliyyətinə cəlb olunmasını tələb etmişdi.

Həmidə xanımın yazdığına görə, bununla ürəyi soyumayan Bakı ruhaniləri "Mirzə Cəlili öldürmək üçün Tiflisə üç nəfər cani göndərmişlər. Həmin günlər Tiflisdə İrəvanski meydanının yaxınlığında, Sololak küçəsində belinə üç tapança bağlamış, yapıncıya bürünmüş şübhəli bir adam tutulmuşdur. Məlum olmuşdur ki, o bakılıların göndərdiyi canilərdən biridir".

Elə həmin vaxt jurnalın dostları ona bu barədə xəbər göndərmiş və ehtiyatlı olmağı tapşırmışlar.

Həmin günlərdə cəhalətpərəstlər Bakıda "Molla Nəsrəddin" jurnalının redaktoru Mirzə Cəlilin öldürüldüyü barədə şayiə yaymışlar. Jurnalın Bakı müvəkkili Tif-

lisə teleqram vuraraq, bu xəbərin doğru və ya yalan olduğunu öyrənmək istəmiş və o, Mirzə Cəlildən belə bir teleqram almışdır: "Səhhəti-kamildə varıq. Salam göndəririk".

Bununla da sakit olmayan cəhalətpərəstlər Mirzə Cəlil barədə dedi-qodular və şayiələr uydurur, onu təhqir edən həcvlər yazaraq camaat arasında yayır, onu hörmətdən salmağa çalışırdılar. Görkəmli ədib Abdulla Şaiq xatirələrində yazırdı ki, "...Yenilik düşmənləri Mirzə Cəlilin arxasınca söyür, onu öldürməklə hədələyir və çirkin məzmunlu məktublar yazıb göndərirlər. O cümlədən Dərbənd şairlərindən Mirzə Səməndər bir həcv yazıb C.Məmmədquluzadəyə göndərmiş, həmin həcvin başqa misralarını isə Bakı dövlətliləri arasında yaymışdı. Onlar həmin həcvi məclislərdə oxuyur, bu yolla Mirzə Cəlili hörmətdən salmağa çalışırdılar".

Azərbaycanın hər yerindən bu cür fitnələrə və onları törədən fitnəkarlara qarşı yenə də "Molla Nəsrəddin" dostlarının etiraz səsi ucalır. Bakıdan, Tiflisdən, Gəncədən Qafqaz canişininin adına və qəzet redaksiyalarına vurulmuş teleqramlarda "Molla Nəsrəddin" jurnalının oxucuları onu bağlatmağa çalışanlara öz nifrətlərini bildirirdilər.

Mirzə Cəlilin öldürüldüyü haqqında yalançı şayiə yayanlara cavab olaraq "İrşad" qəzetində gedən bir məqa-

ləsində Üzeyir Hacıbəyov yazırdı ki, "bir-iki nəfər məmmədquluzadələrin, nemanzadələrin ölümü ilə elə bilirsiniz ki, "Molla Nəsrəddin"i öldürəcəksiniz? Xalqımızın bu mücahid fədakarlarının qətlinə əl qalxıza bilən bir dəni və əclaf tapılsa da bunu biliniz ki, onların xudanəkərdə, ölməkləri ilə yaratdıqları fədakarlıq, ali fikirlər ölməz. Bunu biliniz ki, "Molla Nəsrəddin"i öldürmək mümkün olsa da, mollanəsrəddinçiliyi öldürmək olmaz!".

Q.Musabəyov, M.H.Vəzirov, M.Y.Vəzirov, M.Mirqasımov və başqaları "Baku" qəzetinə göndərdikləri məktubda "Molla Nəsrəddin" əminin işığını söndürmək istəyənlərə öz nifrətlərini bildirirdilər. Onlar yazırdılar ki, "bu jurnal öz qarşısında müsəlmanların yaşadığı çoxəsrlik cəhalət zülmətini dağıtmaq, avam kütlələrə onların istismarının səbəblərini göstərmək, hamının, yəni istər varlı, milyoner, molla və seyidlərin hərəkətlərini, istərsə də müxtəlif falçı və fırıldaqçıların aldatmalarına uyan avam camaatın sadəlövhlüyünü qamçılamağı öz qarşısında məqsəd qoymuşdur".

Nəhayət, onlar jurnalın "müsəlman demokratiyasına namusla xidmət etdiyini", onun əhəmiyyətini gözdən salmağın "bütün yer üzündə yaşayan müsəlmanlar üçün insafsızlıq olduğunu" bildirir və jurnala "sidq ürəkdən uzun ömür arzulayır"lar.

S.Ağamalıoğlu "Zakavkazye" qəzetinin 17 fevral

tarixli 40-cı nömrəsində çıxan məqaləsində yazırdı ki, cəhalətpərəstlər nə etsələr də "...işığa doğru olan cidd-cəhdin qabağını almaq mümkün olmayacaqdır. İstəyir lap "Molla Nəsrəddin"i bağlatdırıb, yerində min dənə "Həyat" açdırsınlar". "Tazə həyat" qəzeti S.Ağamalıoğlunun bu məqaləsinə qarşı onun müəllifinə təhqiramiz bir cavab vermişdir.

* * *

"Molla Nəsrəddin" jurnalı və "Qeyrət" mətbəəsində 1908-ci il üçün buraxılmış divar təqvimində İranın irticaçı baş naziri Atabəy Mirzə Ələsgər xana sui-qəsd etmiş Abbas ağaya müsbət münasibət bildirilərək, onun şəkli verilmiş, altında "böyük şəhid" sözləri yazılmışdır. Bu isə mürtəce mətbuatın xoşuna gəlməmiş, hiddətinə səbəb olmuşdur. Peterburqda çıxan "Rossiya" qəzeti "Urus" imzası ilə çap olunmuş "Fədai" və İran inqilabı" adlı məqaləsində "Qeyrət" mətbəəsi və "Molla Nəsrəddin" jurnalına hücum edir, "Qeyrət" mətbəəsini "inqilabi məzmunlu əsərlər" buraxmaqda təqsirləndirirdi.

"Andrey Pervozvannıy kimi ali rus ordeni ilə təltif edilmiş, İranın üç şahı zamanında baş vəzir olmuş" Atabəy Mirzə Ələsgər xanı öldürən Abbas ağanın "böyük şəhid" adlandırılması "Rossiya" qəzetinin müəllifinə xoş gəlməmişdi. Abbas ağanı "rəzil qatil" adlandıran müəllif

göstərirdi ki, belə şəkillərin və yazıların çap olunması Rusiya qanunlarına tamamilə ziddir. O, bunların çapına icazə verənlərə kəskin narazılığını bildirirdi.

"Rossiya" qəzetinin bu məqaləsi çar inzibati-idarə orqanlarının diqqətini cəlb etmiş və Qafqaz canişini dəftərxanası ilə mətbuat işləri üzrə Tiflis komitəsi arasında gizli yazışma getmişdir.

Qafqaz canişini dəftərxanası mətbuat işləri üzrə Tiflis komitəsinə göndərdiyi 1908-ci il 19 mart tarixli məktubunda komitəyə "Tiflisdə İran inqilabçılarının vəsaiti ilə saxlanılan və inqilabi məzmunda xüsusi ədəbiyyat nəşr edən mətbəə olub olmaması haqqındakı" məlumatı yoxlamaq barədə göstəriş vermiş ki, bu da "Rossiya" qəzetinin səhifəsində gedən məqalə ilə bağlıdır.

Mətbuat işləri üzrə Tiflis komitəsinin canişin dəftərxanasına 22 mart tarixli cavab məktubu "Molla Nəsrəddin" jurnalı və "Qeyrət" mətbəəsi ilə bağlı bir sıra məsələləri aydınlaşdırmağa imkan verir. Əvvəla komitənin sədri öz məktubunda sübut etməyə çalışırdı ki, "Molla Nəsrəddin" jurnalı və "Qeyrət" mətbəəsində nəşr olunan materiallar "bizim hökumət siyasətimiz nöqteyi-nəzərindən tamamilə vicdanlıdır". O, başqa məsələlərlə əlaqədar yazdığı məktublarda olduğu kimi burada da belə fikri təsdiq edirdi ki, "Molla Nəsrəddin" jurnalı və "Qeyrət" mətbəəsi "Hər hansı siyasi partiyaya yaddır və hər şeydən

əvvəl müsəlman aləminin təkamülünə çalışır. O, göstərirdi ki, "mühafizəkar əks cəbhənin nümayəndələri bu jurnala qarşı həmlə edərək onu və çap edildiyi "Qeyrət" mətbəəsinin inqilabi istiqamətdə olduğunu sübut etməyə çalışırlar".

"Qeyrət" mətbəəsinin siyasi partiyalara münasibətindən və onlar tərəfindən maddi kömək alıb-almaması məsələlərindən bəhs edərkən komitə bildirirdi ki, "bu mətbəəyə hər hansı siyasi partiya tərəfindən kömək edilib edilmədiyi haqqında komitəyə heç nə məlum deyil".

Maraqlı cəhət budur ki, "Qeyrət" mətbəəsinin məqalədə göstərilən "Fədai" partiyası ilə "heç bir münasibətdə olmadığını" sübut etməyə çalışan komitə həmin mətbəənin bilavasitə sosial-demokrat xüsusiyyətli ədəbiyyat nəşr etməsi barədə bizim üçün daha mühüm və əhəmiyyətli məlumat verir. Məktubda göstərilirdi ki, müxtəlif qəzet məlumatlarına görə Tiflisdə "qarşısında müsəlmanları sosial-demokratiya ruhunda tərbiyə etmək məqsədi qoymuş" dərnək təşkil olunmuşdur. Komitə öz məktubu ilə sübut etməyə çalışır ki, ola bilsin "Rossiya" qəzeti müxbiri "inqilabi məzmunlu ədəbiyyat nəşri deyərkən" həmin nəşrləri nəzərdə tutur. Həm də məktubda göstərilirdi ki, bu cür nəşrlər qrupuna daxil olan və Azərbaycan dilinə tərcümə olunaraq "Qeyrət" mətbəəsində nəşr olunmuş "Çörək, işıq və azadlıq" broşürası komitə tərəfindən müsadirə olunmuşdur.

Komitə yazırdı ki, həmin divar təqvimi və onun şəkilaltı yazılarında qanuna zidd bir şey yoxdur.

Nəhayət, komitə bildirirdi ki, "Rossiya" da dərc olunmuş məqalə ola bilsin müsəlmanların mühafizəkarlar qrupu tərəfindən yazılmışdır.

Burada çar hakimiyyət orqanlarının yerli xalqların bir-birinə qarşı vuruşduğu bir vaxtda yeritməli olduqları siyasət də açıqca etiraf edilmişdir. Komitə aydın etiraf edirdi ki, əgər müsəlmanların arasında mübarizə gedirsə, belə hallarda dövlət hakimiyyət orqanlarının vəzifəsi "tamamilə bitərəf qalaraq mübarizənin qanunla müəyyən olunmuş sərhəddən kənara çıxmamasına nəzarət etməkdir".

* * *

1908-ci ildə "Molla Nəsrəddin" jurnalının təqibinə səbəb olmuş faktlardan biri də jurnalın həmin il 3-cü nömrəsində Nəcəf müctəhidləri haqqında verdiyi karikatura olmuşdur. "Müctəhidlər" adlı həmin karikaturada Nəcəfdə Ümməra məhəlləsində müctəhidlər küçədə dizə qədər çırmanmış rəiyyətin belinə minərək su və çirkabla dolu küçələrdən keçirlər. Nəcəfdəki mömin müsəlman dini rəhbərləri haqqında belə bir şəklin verilməsi ruhanilərin kəskin qəzəb və nifrətinə səbəb olur. Yenə də hər tərəfdən jurnala qarşı hədə və söyüşlər yağır. Nəcəf müctəhidləri "Molla Nəsrəddin" jurnalının redaktorunu ölümə məhkum edən "Fitva" verirlər. Sonralar jurnalın verdiyi məlumata görə "bu fitva bir neçə min nüsxə çap edilərək Qafqaza

göndərilmişdir. Lakin Mollanın tərəfdarlarından birisi bu fitvaları tamojnada tutub saxlamış, intişarına imkan verməmişdir".

Bu fitvada deyilirdi ki, bəzi idarə düzəldib ruznamə nəşr edən şəxslərdən Naxçıvanlı Mirzə Cəlili göstərmək olar ki, "Molla Nəsrəddin" ruznaməsinin müdiridir. Öz yazılarında o, dinə rişxənd edərək məscidə getməyi xalqa mən edir, moizəyə qulaq asmağın zərərini sübut etməyə çalışır. Fitvada Nəcəf müctəhidləri "Molla Nəsrəddin" jurnalını "haram" buyurur və onun redaktorunun "qətlinə" fərman verərək bildirirlər ki, kim "Molla Nəsrəddin" jurnalının naşir və redaktoru C.Məmmədquluzadəni öldürsə, yeri cənnətdir.

Həmidə xanımın yazdığına görə, Nəcəf müctəhidləri həmin fitvanın bir nüsxəsini də Mirzə Cəlilin özünə göndərmişdilər. O nüsxə indi də Mirzə Cəlilin Azərbaycan Milli Elmlər Akademiyası Respublika əlyazmaları fondundakı şəxsi arxivində saxlanır.

* * *

Bu vaxta qədər mollanəsrəddinşünaslıqda qaranlıq qalan və öyrənilməsi vacib məsələlərdən biri də Tiflisdə Hacı Mirhəsən Mərsiyəxananın şikayətinə görə C.Məmmədquluzadənin məhkəmə məsuliyyətinə cəlb olunmasıdır.

1909-cu ildə İranda hakimiyyətdən qovulmuş Məmmədəli şah 1911-ci ildə gizli surətdə ölkəyə qayıdaraq

yenidən taxt-tacı ələ keçirmək niyyətinə düşür. Bu işdə çar hökuməti də keçmiş şaha kömək göstərir və onu hakimiyyətə şirnikdirirdi.

Lakin keçmiş şah yenidən ölkəyə qayıdan kimi ona qarşı geniş xalq hərəkatı başlanır. "Molla Nəsrəddin" jurnalı "istibdad mücəssəməsi" saydığı Məmmədəli şaha qarşı bu mübarizədən geri qala bilməzdi. Jurnalda keçmiş şahın qayıtması, onun niyyətləri və bu işdə çar Rusiyasının oynadığı ikiüzlü rol kəskin tənqid olunurdu.

O da məlumdur ki, keçmiş şahın yenidən İrana qayıtmasını təkcə onun öz ölkəsində deyil Arazın "bu tayında" da alqışlayan və hətta ona kömək etməyə hazır olan şahpərəst ünsürlər və irticaçı din xadimləri də az deyildi. Məscid moizələrində onlar keçmiş şahın bu hərəkətlərinə haqq qazandırmağa çalışırdılar. "Molla Nəsrəddin" jurnalı belələrini öz səhifələrində kəskin satira atəşinə tuturdu.

Jurnalın 1911-ci il komplektini vərəqləyərkən onun 20 iyul tarixli 26-cı nömrəsində belə bir yumoristik yazıya rast gəlirik: "Dünən Hacı Mirhəsən Mərsiyəxan (Məhəmmədəli şahın bibisi oğlu) öz başında olan dəstəsindən iki min atlı və piyada başı keçəl Şeytanbazar müsəlmanlarından uzun Rza adlı bir igidin təhti-komandasında Astrabada Məmmədəli şaha kömək etmək üçün xəlvətcə yola saldı".

Bu yazı diqqəti ona görə cəlb edir ki, Gürcüstan Mərkəzi Dövlət Tarix arxivində Tiflis məhkəmə palatasının sənədləri içərisində belə bir material var: "Hacı Mir-

həsənzadənin guya Məmmədəli şaha kömək göstərmək üçün İrana iki min atlı göndərməsi barədə böhtançı məqaləyə görə yumoristik "Molla Nəsrəddin" jurnalının redaktoru Mirzə Cəlil Məmmədquluzadə haqqında ittiham işi".

Jurnalın yazısını və bu başlığı müqayisə etdikdə şübhə yeri qalmır ki, Hacı Mirhəsən Mərsiyəxan yuxarıda göstərilən yazı ilə əlaqədar olaraq "Molla Nəsrəddin" redaktorundan şikayət etmiş və onun haqqında cinayət işi qaldırılmasına müvəffəq olmuşdur.

1912-ci ildə başqasına qarşı mətbuat səhifələrində "böhtan" yazmaq üstündə C.Məmmədquluzadə həqiqətən də məhkəmə qarşısında dayanmalı olmuşdur.

Məsələn, 1916-cı il yanvar ayının 21-də Tiflis şəhəri 8-ci sahə baş nəzarətçisinin həmin sahənin pristavına yazdığı məlumatda deyilir: "Cəlil Məmmədquluzadə (Məmmədqulu oğlu) 1906-cı il aprelin 7-dən 1914-cü il oktyabrına qədər "Molla Nəsrəddin" jurnalı redaksiyasının sahibi olmuş və bu müddət ərzində mətbuatda başqasına böhtan atmaq üstündə Tiflis dairə məhkəməsi tərəfindən 1912-ci ildə məhkəmə məsuliyyətinə cəlb olunmuş, lakin bəraət qazanmışdır".

Deməli, rəsmi sənəddə verilmiş bu məlumat, 1912-ci ildə Mirzə Cəlilin həmin məsələ ilə əlaqədar olaraq, həqiqətən məhkəmə qarşısında dayandığını göstərir.

«NƏHS VƏ TƏRS» 1913-cü İL

«Kim deyir ki, Mirzə Cəlil gülüb, yanılır, Azərbaycan torpağında hələ belə ağlayan olmayıb».

SÜLEYMAN RƏHİMOV.

«Molla Nəsrəddin» jurnalının nəşri tarixində 1913-cü il ən çətin, hadisələrlə dolu və onun ən çox təqib edildiyi il olmuşdur. Bu ildə jurnal müntəzəm nəşr oluna bilməmiş, cəmi 29 nömrəsi çapdan çıxmışdır. Həmin 29 nömrədən isə 16-cı nömrə tamamilə müsadirə olunmuş, 20 və 21-ci nömrələr ilə əlaqədar məhkəmə işi qaldırılmış, 9-cu nömrənin axırıncı və 29-cu nömrənin birinci səhifəsindəki karikaturaların üstünə qara çəkilmiş, 23-cü nömrənin birinci səhifəsindəki karikatura isə tamamilə daşdan silinmişdir.

Həmin bu «nəhs və tərs» ildə jurnalın redaktorları C.Məmmədquluzadə və Əliqulu Nəcəfov[1], habelə «Molla Nəsrəddin» jurnalının çap olunduğu Gürcü nəşriyyat şirkəti mətbəəsinin müdiri A.G.Cabadari məhkəmə məsuliyyətinə cəlb olunmuşlar.

---

[1] 1913-cü il fevralın 25-də Tiflis qubernatoru tərəfindən şair Əliqulu Nəcəfov (Qəmküsar) «Molla Nəsrəddin» jurnalının ikinci redaktoru təyin olunur və həmin ilin 7-ci nömrəsindən başlayaraq jurnal «Müdir və baş mühərrirlər Cəlil Məmmədquluzadə və Əliqulu Nəcəfov» imzası ilə çıxmağa başlayır.

Məlumdur ки, 1912-ci ildə jurnalın cəmi 9 nömrəsi buraxıldıqdan sonra martın 8-dən onun nəşri dayanır. «Molla Nəsrəddin» jurnalının oxucuları hər tərəfdən məкtublar göndərərəк «bu gözəl məcmuənin davamını təmanna edirlər». Nəhayət, 1913-cü il yanvarın 13-də jurnalın birinci nömrəsi yenidən çapdan çıxır. Həmin nömrədəки «Molla Nəsrəddin» çıxdı» məqaləsində jurnal oxucularına «mollalar, sərvətdarlar» və sairələrin «rahat nəfəs aldıqları»nı bildirərəк göstərirdi ки, bu müddətdə mollalar gecə-gündüz məscid minbərlərində «Molla Nəsrəddin» jurnalının bir daha çıxmaması üçün dua edirdilər. Jurnal yazırdı: «Heyhat! Heyf oldu o əziz günlər! Əfsus fövt oldu o qiymətli dəqiqələr ки, heç кəsi dindirib-dirçədən yox idi. Qurd qoyunla otlayırdı. Xəlqin öz əli, öz başı idi. Amma indi... İndi bu məzərrət «Molla Nəsrəddin» yenə camaatın gününü göy əsgiyə döndərəcəк. Yetənə yetib, yetməyənə bir daş atacaq».

1913-cü ilin axırıncı 29-cu nömrəsinin ilк səhifəsində verilmiş «1914-cü il üçün abunə dəftərimiz açıldı» yazısında isə jurnal xüsusi yumorla həmin ildə başına gələn hadisələr haqqında oxucularına ətraflı məlumat verərəк yazırdı ки, «...biz həqiqətdə on üç sayının nəhs, tərs və çəpəşiк bir hesab olduğuna nail olsaydıq bu 1913-cü ildə

əsla jurnal çıxarmazdıq və necə ki, 1912-ci ildə doqquz ay tətil etmişdik, bir il də dəxi dübarə tətil edib bu üzümüzə gələn 1914-cü ildə «Molla Nəsrəddin»i nəşrə başlardıq və daha bu qədər keşməkeş və qəzavü-qədərə giriftar olmazdıq, 1913-cü ildə biz işə şüru eylədik, 16 və 21-ci nömrələrimiz hökumət tərəfindən müsadirə olunub, özümüz də külli xəsarətə düşüb təhti-mühakimeyə alındıq! Həmin bu nəhs və tərs ildə jurnal çıxardıq ki, camali-mübarəkin batini bizi vurub. Hər tərəfdən protestlərə, tənələrə və təhdidlərə düçar olub, «okrujnoy sudlara» çəkildik başımıza ənva müsibətlər gəldi...»

Jurnalın 1913-cü ildə təqibi onun 25 may tarixli 16-cı nömrəsinin tamamilə müsadirə olunması ilə başlanmışdır. «İqbal» qəzetinin 1913-cü il 2 iyununda «Molla Nəsrəddin» jurnalı «İdarəsi» belə bir elan vermişdi: «İş bu may ayının 30-da bizim idarəni təftiş etdikdən sonra 16-cı nömrəmizi dəxi tövqif etdilər. Hörmətli müştərilərimizə bunu demək istəyirik ki, jurnalımız tədrici çıxır və çıxacaq və həmin 16-cı nömrəni yenə də məhkəmeyi-ədliyyədən alıb onlara göndərəcəyik».

Qəzetin həmin nömrəsinin «Qafqaz işləri» xəbərləri bölməsində isə «Molla Nəsrəddin» jurnalının axırıncı nömrəsinin üç mindən yuxarı nüsxəsinin hökumət tərə-

findən müsadirə edildiyi göstərilirdi.

Bu müsadirəyə səbəb nə idi? Çar senzurası bu nömrədəкi hansı materialldan narazı qalmış və bu münaqişənin axırı nə ilə qurtarmışdır? «Molla Nəsrəddin» idarəsi «məhкəmeyi-ədliyyədən» həmin nömrəni alıb oxucularına göndərə bilmişmi?

Gürcüstan Respubliкası Mərкəzi Dövlət Tarix Arxivində saxlanan çoxlu rəsmi sənəd həmin suallara dəqiq və düzgün cavab tapmağa imкan verir.

Sənədlərdən görünür кi, «Molla Nəsrəddin» jurnalının 16-cı nömrəsinin müsadirəsinə səbəb onun axırıncı səhifəsində verilmiş «İctimai-höccət» adlı siyasi məzmunlu каriкatura olmuşdur. Bu каriкaturada Təbriz inqilabçılarına divan tutulması səhnəsi təsvir edilir. Əlqolları qandallı inqilabçıların başları üzülərəк atılmış, bədənlərini isə qarğa-quzğun didir. Təbriz hакimi cəllad və qaniçən Hacı Səmədxan Şücaüddövlə və onun yaxın məsləкdaşı quldur Rəşidəlmülк ölülərin arası ilə addımlayırlar. Kənarda isə onların xalqdan qarət etdiкləri var-dövlət yığılmış və üzərində 10, 15, 20 min tümən yazılmış кisələr bir-birinə söyкənmişdir. Şəкlin altında Hacı Səmədxanın dilindən yazılmışdır:

Gərəк aləmi qan ilə dolduram,
Bütün Təbrizə od vurub yandıram!

Nə qədər olsa İranda məşrutəxah,
Tapam birbəbir, təşnəkam öldürəm!

Mətbuat işləri üzrə Tiflis komitəsi 1913-cü il 29 may tarixli təcili məktubu ilə xüsusi göstəriş olana qədər «Molla Nəsrəddin» jurnalının 16-cı nömrəsini buraxmamaq haqqında jurnal redaksiyasına tapşırıq verir. Elə həmin gün də başqa bir təcili təliqə ilə Tiflis polismeysterinə «Molla Nəsrəddin» jurnalının 16-cı nömrəsini müsadirə edib mətbuat komitəsinə göndərməyi xahiş edir.

Bu işdə «böyük fəallıq» göstərən Tiflis polismeysteri jurnalın yayılmasına imkan vermədən onun bütün tirajını mətbəədə müsadirə edir. Artıq mayın 30-da o, öz təcili məktubu ilə mətbuat işləri üzrə Tiflis komitəsinə bildirirdi ki, «Molla Nəsrəddin» jurnalının 16-cı nömrəsinin müsadirə olunmuş 3505 nüsxəsini komitənin sərəncamına göndərirəm».

Elə həmin gün mətbuat komitəsi Tiflis şəhəri ikinci dairə sülh məhkəməsi hakiminə təcili təliqə göndərərək axırıncı səhifəsində dərc olunmuş şəklə görə komitə tərəfindən «Molla Nəsrəddin» jurnalının müsadirə olunmuş nüsxələrinin məhv edilməsi qərarını təsdiq etməyi xahiş edir.

Tiflis şəhəri 2-ci dairə sülh məhkəməsi isə bu işin

məhkəməlik olmadığını bildirərək «Molla Nəsrəddin»i məsuliyyətə cəlb etməkdən boyun qaçırır.

Uzun mübahisə və yazışmalardan sonra «Molla Nəsrəddin» jurnalında naşir və məsul redaktorun imzasını vermədiyinə və həmin nömrənin karikaturalarını bayxılmaq üçün əvvəlcədən mətbuat işləri üzrə Tiflis komitəsinə göstərmədiyinə görə Tiflis şəhəri 2-ci dairə sülh məhkəməsi A.G.Cabadarini əlli manat məbləğində pulla cərimə etmək, ödəyə bilməyəcəyi halda isə on sutka həbs cəzasına məhkum etmək barədə hökm çıxarır.

Ancaq məhkəmənin hökmündə yenə də jurnalın 16-cı nömrəsinin müsadirəsi haqqında mətbuat komitəsinin qərarı təsdiq olunmur. Komitə bununla əlaqədar sonralar yenidən məsələ qaldırırsa da nəticəsiz qalır.

Jurnalın 16-cı nömrəsinin müsadirəsi ilə əlaqədar iki məsələyə xüsusi diqqət yetirmək lazım gəlir. Əvvəlan, həmin nömrə ilə əlaqədar yazışmalarda jurnalın məsul redaktor və naşirinin imzasının göstərilmədiyi qeyd olunur. Əslində isə əlimizdə olan və mətbuat işləri üzrə baş idarənin Sankt-Peterburqdakı Mərkəzi Dövlət Tarix Arxivində saxlanılan fondundakı «Molla Nəsrəddin» jurnalı ilə əlaqədar işlər arasındakı 16-cı nömrənin mətnlərinin qurtardığı 7-ci səhifəsinin axırında onun bütün başqa nömrələrində olduğu kimi, «Müdir və baş mühərrirlər: Cə-

lil Məmmədquluzadə və Əliqulu Nəcəfov» imzaları da vardır.

İkinci məsələ isə budur ki, mətbuat komitəsi dəfələrlə təkid edirsə də onun «Molla Nəsrəddin» jurnalının 16-cı nömrəsini müsadirə etmək haqqında qərarı Tiflis şəhər 2-ci dairə sülh məhkəməsi tərəfindən təsdiq olunmur. Elə isə komitə o dövrün müvafiq qanunlarına əsasən jurnalın müsadirə olunmuş nüsxələrini jurnal redaksiyasına geri qaytarmalı idi. Əlimizdə olan çoxlu dəlillər isə bunun əksini sübut edir. Yəni komitənin qərarının təsdiq edilməməsinə baxmayaraq mətbuat komitəsi həmin nömrənin müsadirə olunmuş tirajını jurnal redaksiyasına geri qaytarmayaraq məhv etmiş və bununla da jurnalın sonralar yazdığı kimi, onu "külli-xəsarətə" salmışdır.

* * *

Yuxarıda jurnalın 1913-cü il 16-cı nömrəsinin müsadirəsi ilə əlaqədar məsələləri nəzərdən keçirdik. Onu da qeyd edək ki, 16-cı nömrə ilə əlaqədar olaraq jurnalın təqibi ilə yalnız çar inzibati-idarə orqanları məşğul olmuşdur. Tezliklə jurnalın həmin il 20 və 21-ci nömrələri haqqında böyük hay-küy qopur. Özü də bu işdə çar inzibati-idarə orqanları ilə cəhalətpərəstlər və dini fanatiklər müştərək şəkildə çıxış edirlər.

1913-cü il avqustun 19-da Mətbuat işləri üzrə Tiflis komitəsi Tiflis polismeysterinə, Zaqafqaziya dəmir

yolu jandarm idarəsinə və Tiflis dairə poçta-teleqraf idarəsinin rəisinə göndərdiyi təcili təliqələrində göstərilirdi ki, telefonla verdiyimiz məlumata əlavə olaraq, bildiririk ki, avqustun 17-də buraxılmış «Molla Nəsrəddin» jurnalının 14 avqust tarixli 21-ci nömrəsinin harada ələ keçərsə müsadirə olunması və müsadirə olunmuş nüsxələrin isə mətbuat işləri üzrə Tiflis komitəsinə göndərilməsi haqqında sərəncam verəsiniz.

Ancaq, çar inzibati idarə orqanlarından yalnız Tiflis polismeysteri «Molla Nəsrəddin» jurnalının 21-ci nömrəsindən 19 nüsxə müsadirə edə bilmiş və komitəyə göndərmişdir. Zaqafqaziya dəmir yolu jandarm polisi idarəsi isə özünün 8 sentyabr tarixli 1632 nömrəli gizli məktubu ilə bildirirdi ki, avqustun 19-da bütün Zaqafqaziya dəmir yolu polisinə «Molla Nəsrəddin» jurnalının 21-ci nömrəsini müsadirə etmək haqqında göstəriş verilmişsə də, hələ sentyabrın 8-nə qədər bir nüsxə də olsun jurnal bizim idarəyə daxil olmamışdır. Bu fakt bir daha «Molla Nəsrəddin» jurnalının oxucular arasında necə böyük sürətlə yayıldığını sübut edir. Jurnal satışa buraxıldıqdan iki gün sonra artıq kitab mağazalarında və şəxsi qəzet və jurnal satanların əlində qalmamışdır.

Mətbuat İşləri üzrə Tiflis Komitəsi Tiflis dairə məhkəməsi prokuroruna 20 avqust tarixli təliqə ilə müraciət edərək, «Molla Nəsrəddin» jurnalının 21-ci nömrə-

sində cəza məcəlləsinin 1001-ci maddəsinə əsasən[1] cinayət əlamətləri olan material dərc etdiyi üçün həmin nömrənin müsadirə olunması haqqında göstəriş verdiyini bildirir. Avqustun 28-də isə komitə dairə məhkəməsinə ətraflı məktub yazaraq jurnalın 21-ci nömrəsinin müsadirə edilməsi səbəblərini aydınlaşdırır. Məktubdan məlum olur ki, həmin nömrənin müsadirəsinə səbəb orada «Dastançı» (Məmmədəli Əbdülmanafzadə) imzası ilə çap olunmuş «Gimnazist» şeridir.

Ey gözümün nuri, malay gimnazist!..
Rəngi günəş, çöhrəsi ay gimnazist! -

misraları ilə başlayan bu şer mömin müsəlmanların iç üzünü açır, onların alçaqlığını, rəzil əxlaqi keyfiyyətlərini ifşa edirdi.

Mətbuat işləri üzrə Tiflis komitəsi yuxarıda göstərilən məktubla bərabər «Gimnazist» şerinin rus dilinə tərcüməsini Tiflis dairə məhkəməsinin prokuroruna göndərmiş və xəbər vermişdir ki, Tiflis polismeysterinin məlumatına görə həmin nömrədən cəmi 19 nüsxə ələ keçmişdir.

---

[1]Həmin maddədə pornoqrafik və ya əxlaq pozğunluğu təbliğ edən əsərlər yaymaq üstündə təqsirləndirilən şəxslərin 500 manata qədər pulla cərimə olunması və ya yeddi gündən üç aya qədər həbs cəzasına məhkum edilməsi nəzərdə tutulurdu.

* * *

«Molla Nəsrəddin» jurnalının 21-ci nömrəsinə görə redaktorları məhkəmə məsuliyyətinə cəlb etmək haqqında Tiflisdə çar inzibati-idarə orqanları arasında qızğın yazışma getdiyi bir vaxtda cəhalətpərəstlər arasında daha çox hay-küyə səbəb olan və çar hakimiyyət orqanları tərəfindən açıqca müdafiə olunan yeni bir məsələ ortaya çıxır. «Molla Nəsrəddin» bəhayilərin dini heysiyyətinə toxunan məqalə və karikaturalar vemək də ittiham olunur.

Bəhailərin narazılığına səbəb jurnalın 1913-cü il 20-ci nömrəsində Əbdülbəha (əsl adı Abbas Əfəndi idi) haqqında dərc olunmuş karikatura idi. Bir oğlan uşağını dizləri üstündə oturdaraq əylənən Əbdülbəhanın başı üzərindəki lövhədə «allah» sözü yazılmışdır. Onun xidmətçisi içəri daxil olmaq istəyən məleykəni Əbdülbəhayə göstərərək deyir: «Cəmali mübarək! Mələkutdan lövh nazil olmuş, ruhulqüds şərəfyab olmaq istəyir». Əbdülbəha isə deyir: «De getsin sabah gəlsin, bu gün vaxtım yoxdur. İbadətlə məşğulam!».

Bu nömrə ilə əlaqədar cinayət işi qaldırmaq üçün şikayətdə Zakaspi vilayəti rəisi ilə Aşqabad bəhayiləri cəmiyyəti nümayəndələri birgə çıxış edirlər.

Zakaspi vilayəti rəisi Qafqaz canişini dəftərxanasına 28 avqustda gizli və təcili təliqə ilə, Aşqabad bəhayiləri cəmiyyəti nümayəndələri isə Tiflis dairə məhkəməsinin prokuroruna 15 sentyabrda ərizə ilə «Molla Nəsrəddin» jurnalından şikayət edirlər. Onlar tələb edirlər ki,

bəhayi dini təriqətinin başçısı Əbdülbəha haqqında kəskin xarakterli karikatura verdiyi üçün jurnalın redaktoru məhkəmə məsuliyyətinə cəlb olunsun.

Zakaspi vilayəti rəisi Qafqaz canişini dəftərxanasına göndərdiyi təliqəsində yazırdı ki, Aşxabad və Mərv bəhayilər (babilər) cəmiyyəti nümayəndələrinin, onların dini heysiyyətinin «Molla Nəsrəddin»də müntəzəm dərc olunan məqalə və şəkillərdə təhqir olunub, lağa qoyduqları barədə şikayətini haqlı bilirəm. Canişin dəftərxanasından xahiş edirəm ki, «Molla Nəsrəddin» jurnalına qarşı ciddi cəza tədbirləri görsün ki, bu jurnal bəhayilərin dini etiqadına hücumu dayandırsın. Zakaspi vilayəti rəisi öz məktubunda sübut etməyə çalışırdı ki, guya jurnalın şəkil və yazıları islam dininin şiə təriqətli tərəfdarları ilə bəhayilər arasında düşmənçiliyi qızışdırır, bu isə arzu olunmaz nəticələrə səbəb ola bilər.

Bu fikir Aşxabad bəhayiləri cəmiyyəti nümayəndələrinin Tiflis dairə məhkəməsi prokuroruna ərizələrində də də təkrar olunurdu. Onlar bildirirdilər ki, müsəlman ölkələrində təqib olunan bəhayilər çoxdan bəridir ki, Rusiyada özlərinə sığınacaq tapmışlar və Rusiya qanunlarının himayəsi sayəsində böyük bəhayilər cəmiyyəti yarada bilmişlər. Onların bu cəmiyyəti bəhayilik dini ehkamlarının təlqin etdiyi əməksevərlik, düzlük və düşüncəli dəbdəbədən uzaq adi həyat tərzi nəticəsində tez bir zamanda əhəmiyyətli dərəcədə təşəkkül tapmış, bəhayilər isə yeni

vətənləri olan Rusiyanın faydalı vətəndaşları və rus çarının sadiq təbəələrinə çevrilmişlər. Onlar çar hakimiyyət orqanlarına yaltaqlanaraq deyirdilər ki, «onlara göstərilmiş bu qonaqpərvərlik və himayə üçün hədsiz dərəcədə minnətdardılar». Guya bəhayilər öz yeni vətənləri Rusiyada da o cümlədən Qafqaz və Türküstanda yenə də müsəlman aləmi ilə rastlaşmalı olmuşlar. «Burada da cahil və fanatik müsəlmanlar bəhayilərə düşmənçiliklə yanaşır, bəzən isə bu düşmənçilik musəlmanların açıq şəkildə hücumu ilə nəticələnir». Onlar sübuta çalışırdılar ki, guya bəhayilərə qarşı müsəlmanlarda nifrəti qızışdıran dövri mətbuatın, o cümlədən «Molla Nəsrəddin» jurnalının hərəkətləri yol verilməzdir. Bəhayilərin fikrincə, jurnalda verilmiş şəkil ikrah hissi doğuran məzmunu ilə ictimai əxlaq normalarını pozur, bütün dinlər üçün ehkam sayılan müqəddəs ruhu ələ salır, bəhayilərin sevimlisi Əbdülbəha təhqir olunur.

Guya «Molla Nəsrəddin» jurnalı müsəlmanların bəhayilərə qarşı nifrətini daha da coşdurur, onların arasında açıq toqquşmalar üçün zəmin yaradır.

Nəhayət, onlar bəhayilərin dini başçısı Əbdülbəhanı təhqir etdiyi, bəhayilərlə müsəlmanlar arasında düşmənçiliyi qızışdıran şəkil verdiyi üçün «Molla Nəsrəddin» redaktorunu məsuliyyətə çəkməyi tələb edirdilər.

Elə həmin günlərdə İranlı bəhayilərdə Rusiyanın Tehrandakı səfirliyinə ərizə ilə müraciət edərək, onların

peyğəmbəri Əbdülbəha haqqında «Molla Nəsrəddin» jurnalında verilmiş şəkllə etirazlarını bildirmiş və jurnalın redaktorunu cəzalandırmağı xahiş etmişlər.

Bəhayiliyin banisi babın şagirdi, Bahaülla («Allahın nuru») ləqəbi ilə məşhur olan Mirzə Hüseyn idi. Bəhayilik XIX əsrin ortalarında İranda – babi üsyanlarının məğlubiyyətindən sonra təqibdən qaçan babilərin dini təriqəti kimi meydana çıxmışdır. Bəhayilərin əqidəsincə allaha sitayişin mahiyyəti sənət, ticarət və sair ilə məşğul olmaqdır. Xüsusi mülkiyyəti və sosial bərabərsizliyi müdafiə edən, sinfi mübarizənin əleyhinə çıxan bəhayilik milli sərhədləri, dövlət müstəqilliyini və suverenliyini inkar edir, elm ilə dini bir-birinə uyğunlaşdırmağı zəruri sayırdı. İran komprodor burjuaziyasının mənafeyini müdafiə edən bəhayilik insanları «qardaşlığa», «sinfi sülh»ə səsləmək deyil, həmçinin müstəmləkəçiliyə, imperializmə qarşı mübarizədən də əl çəkməyə çağırırdı. Buna görə də bəhayilik dini cərəyanı ABŞ, İngiltərə və Almaniya müstəmləkəçilərinin diqqətini cəlb etmiş, həmin ölkələrdə sosial-etik təlim kimi yayılmışdır.

Çar Rusiyasında bəhayilik əsasən Orta Asiyada yayılmış, Aşxabadda onların «məscid»i tikilmişdi. Bakıda isə onların təkiyələri olmuş və Azərbaycan burjuaziyasının bir sıra nümayəndələri bəhayiliyə rəğbət bəsləmişlər. Çar hakimiyyəti isə bəhayiləri açıq himayə etmişdir.

Bahaüllanın varisi Əbdulbəha bəhayiliyi fəal təbliğ etdiyi üçün İngiltərə hökuməti ona ser titulu da vermişdi.

Məlumdur ki, «Molla Nəsrəddin» jurnalı və onun ideya rəhbəri C.Məmmədquluzadə bütün dinlərə və dini təriqətlərə qarşı eyni dərəcədə nifrətlə yanaşmış və barışmaz mövqe tutmuşdur. «Molla Nəsrəddin» jurnalı və onun redaktoru üçün islam dininin şiəlik təriqəti ilə bəhayilik arasında heç bir fərq yox idi. Dini fanatizmə qarşı mübarizəni başlıca vəzifələrdən biri hesab edən jurnalın əməkdaşları hər iki zərərli təriqəti xalqı itaətdə saxlayan, istismar aləti kimi damğalayırdılar.

Təsadüfi deyil ki, mömin müsəlmanlar «Molla Nəsrəddin» jurnalı və onun mühərrirlərini «babi», «kafir», «laməzhəb» və «mürtəd» adlandırırdılar.

«Molla Nəsrəddin» jurnalının bəhayilik təriqətinə münasibəti onun 1910-cu il 28-ci nömrəsində «Babi» imzası ilə dərc olunmuş «Küftə» felyetonunda və 1913-cü il 6-cı nömrəsində «Sarsaqqulubəy» imzası ilə dərc olunmuş «Babi» felyetonunda bariz şəkildə öz əksini tapmışdır. Jurnal bəhayiləri təqib edən, onlara qarşı cənfəşanlıqla təbliğat aparan din xadimlərini ələ salaraq, yazırdı ki, bəhayiləri «əbəs yerə müsəlman qardaşlar kafir» adlandırırlar. Jurnal göstərirdi ki, bəhayilik dini cərəyanında mahiyyətcə xeyir verə bilən heç bir yenilik yoxdur, çünki, «...haman küftədir, ancaq adını dolma qoyublar. Yəni onda da allahnan ərəbcə danışırsan, bunda da. İntəhası,

onda «qülhüvəllah» deyirsən, bunda «əşədü bəvəhdaniyyətiкə»... Onda gərəк orucu ramazanda tutasan, bunda bir özgə vaxtda. Onda yüz minlər xərcləyib ibadətxana tiкib adını da qoyurlar məscid, bunda yarım milyonlar xərcləyib ibadətxana tiкib adını «məşriqüləzкar» qoyurlar. Onda da pirlər, ziyarətgahlar, bunda da dəxi artıq. Onda arvadlar çarşava bürünərlərdi, indi bunda iкi çarşava bürünüb dörd də rübənd bağlayırlar. Onda Şeyx Fəzlüllahlar, Mir Haşımlar heç olmasa pul alıb istibdada кömәк edirlərdi, bunlar isə müftəcə gecə-gündüz şahi-adil Məmmədəli şaha dua edirlər. Qərəz nə baş ağrısı verim, haman кüftədir, dolma adı ilə gəlib».

«Babi» felyetonunda isə jurnal yazırdı кi, indi dünya «azadi-vicdan» dünyasıdır, кim hansı dini istəyər, onu da qəbul edər. Hüseynin, Əlinin, Cəfərin кönlü istəyir şiə olmur, babi olur, dəhri olur, farmasyon olur və ya heç bir yerə başını bağlamır, hər nə кi, özünün xoşuna gəlir, onun dalınca gedir.

Jurnal qeyd edirdi кi, indiкi əsrdə hər кəsin кi, bir az «gözü açıq və fiкri sağlam olur» o vədə bir tərəfdən axundlar, mollalar, qırmızı saqqallar, sarı beyinlər başlayırlar qışqırmağa кi, «qoymayın filanкəs babi olubdur». Digər tərəfdən isə bəhayilər də onun «gözuaçıqlığını eşidib» hər yerdə başlayırlar şayiə yaymağa кi, «filanкəs də babidir. Jurnal yazırdı кi, bəhayilərin qayda-

sıdır «harada bir məşhur, biliкli, anlayan adam olsa hamısının avama babi кimi qələmə verirlər» кi, avam camaatı tez yoldan çıxarsınlar. Bu biçarənin özünün heç bir şeydən xəbəri olmaya-olmaya bir də görürsən mömin müsəlmanlar töкülürlər üstünə кi, «sən babisən, mürtədsən, məlunsan... Budur babiliyin indiкi əsrdə insaniyyətə mənfəəti!».

Jurnal yoxsul və avam camaatı yüz fırıldaqla aldadaraq bəhayiliк dini təriqətinə cəlb etməyə çalışanları ifşa edərəк yazırdı: «Daha niyə camaatın yaxasından əl çəкmirsiniz? Daha niyə hər yerdə bir çılpaq və ac fəhlə, hambal, кanкan müsəlman görürsünüz başlayırsınız gəl babi ol!».

Felyetonda qeyd olunurdu кi, bəhayi təriqətinin vaizləri «zəli кimi yapışıblar» xəlqin yaxasından», bir adam görən кimi başlayırlar: «Cəmali-mübarəк», belə gəldi, «Əbdülbəha» belə nitq dedi, Sərкar ağa belə fərmayiş etdi, bu şəкildəкi amerиkalılar hamısı Sərкar ağaya iman gətiriblər və sairə.

Sonra amerиkalıların da bəhayiliyi qəbul etməsindən bəhs edən jurnal onların bu hərəкətinin yalnız fırıldaqdan, gözdən pərdə asmaqdan, Şərqdə öz yerlərini möhкəmlətməк üçün bundan bir vasitə кimi istifadə etməкdən başqa bir şey olmadığını göstərərəк yazırdı: «Bircə məni qupquru qurudan budur кi, aya, görəsən amerиkalılar кi, beş yüz ildi dünyaya gəliblər və belə ərкöyün böyüyüblər кi, heç bir boyunduruq altına girmə-

yiblər, necə gəlib gündə on doqquz rükət namaz qılacaqlar və hər rükətdə on doqquz dəfə ya bəha, ya camal, ya cəlal, ya qüdrət, ya şövkət, ya məlәkut... deyəcəklər».

Jurnalın hər hansı bir mütərəqqi hərəkata qarşı çıxan ruhanilərin ona babilik donu geydirməyə çalışmasını, həmin hərəkata qarşı xalqda nifrət yaratmağa, onu nüfuzdan salmağa çalışdığını çox gözəl başa düşürdü. Jurnal göstərirdi ki, 1905-1911-ci illər İran inqilabı zamanı Təbriz üləmaları xalqa təlqin etməyə çalışırdılar ki, «ay camaat bilin və agah olun ki, bu məşrutə adı ilə meydana çıxanlar hamısı babidir. İstəyirlər ki, sizin dininizi əlinizdən alsınlar və elə ki, sizi basıb itaətlərinə gətirdilər deyəcəklər gərək babi olasınız. Olmasanız sizi qılıncdan keçiricəklər. Çalışın qırın bu laməzhəbləri. Körpə uşaqlarınadək doğrayın. Onların malı, canı, irzi sizə ana südü kimi halaldır».

«Molla Nəsrəddin» jurnalı bəhayiləri təqib pərdəsi altında bu təriqəti qəbul etmiş şəxslərə qarşı amansız divan tutulmasını, onlara qarşı ədalətsiz hərəkətin təşəbbüsçülərini dəfələrlə kəskin satira atəşinə tutmuşdur. 1910-cu il 8-ci nömrəsində dərc olunmuş «Şeyx Məhəmməd» felyetonunda jurnal müsəlman axundlarının bəhayilərin evini dağıdıb, arvadlarını zorla əllərindən alıb, təzəcə doğulmuş uşaqlarını boğdurmalarını ifşa edərək yazırdı ki, «Eşşəkqulaq, qabanbaş, heç görmüsən ki, günahsız uşağı öldürələr? Heç İspaniya katolik «axundlarının»

inkvizisiyası zamanında da belə vəhşiliklərə qol qoymamışdılar».

«Molla Nəsrəddin»in Əbdülbəha haqqında verdiyi bu karikatura ilə əlaqədar olaraq mətbuatda da bir-birinə zidd yazılar dərc olunurdu. Məsələn, «Turkestanskiye vedomosti» qəzetində Torçinski imzalı bir şəxs bəhayiləri müdafiə edərək, «Molla Nəsrəddin»ə qarşı təhqiramiz hücumlar etmişdi. Gəncədən bir qrup tərəqqipərvər oxucunun «Zakavkazye» qəzetində çap olunmuş məqaləsində «Turkestanskiye vedomosti» qəzeti müəllifinin qərəzli yazısına etiraz bildirilirdi, «Molla Nəsrəddin» jurnalının bütün dinlərə və məzhəblərə düşmən olduğu göstərilirdi.

Bəhayilərin dini başçısı Əbdülbəha haqqında verilmiş karikaturaya mətbuat işləri üzrə Tiflis komitəsinin münasibəti də xüsusi maraq doğurur. Komitə yenə də jurnala qarşı bir-birinə zidd mövqelər tutur. Bir tərəfdən jurnalın 21-ci nömrəsində dərc olunmuş «Gimnazist» şerinin əxlaq normalarına zidd olduğunu əsas tutub həmin nömrənin bütün nüsxələrini müsadirə və qadağan etmək, redaktorları cəzalandırmaq istəyir, digər tərəfdən də jurnala haqq qazandırmağa çalışırdı. Mətbuat işləri üzrə Tiflis komitəsinin bir məktubunda göstərilirdi ki, həmin karikatura «olsa-olsa yerinə düşməmişdir», ancaq onun ətrafında gedən yazışmalarda işə lazım olduğundan daha artıq əhəmiyyət verilir. Komitə göstərirdi ki, şikayətin müəllifləri belə nəzərə çarpdırmağa çalışırlar ki, «Molla

Nəsrəddin» jurnalı müntəzəm olaraq Bəhaüllanın ardıcıllarının dini heysiyyətlərini təhqir edən materiallar verir, bununla da həmin təriqətin ardıcılları ilə şiələr arasında kütləvi qırğın törətməyə və qan tökməyə səbəb olur. Mətbuat komitəsi öz məktubunda bildirirdi ki, əslində iş məktub müəlliflərinin yazdığı kimi deyildir. «Molla Nəsrəddin» jurnalı bəhayiliyin ifşasına heç də ayrıca diqqət yetirmir. Həmin karikaturanın dərc olunması müstəsna haldır. Jurnalın yazıları ən çox müsəlman ruhanilərinə qarşı yönəldilmişdir. O, müsəlman xalqlarının mədəni geriliyinin başlıca səbəbini məhz müsəlman ruhanilərində görür. Komitə məlumat verirdi ki, «Molla Nəsrəddin» jurnalı çox məhdud şəkildə əsasən Zaqafqaziya, İran, Volqaboyu müsəlmanları arasında yayılır. Zakaspi vilayətinə isə onun tirajının çox cüzi bir hissəsi gedib çıxır. Komitənin məktubunda deyilirdi ki, Zakaspi vilayəti rəisinin tələb etdiyi kimi, jurnalı cəzalandırmaq, yəni həmin nömrənin bütün nüsxələrini müsadirə etmək və onu qadağan olunmuş ədəbiyyat siyahısına salmaq üçün bizim qanunlarda nəzərdə tutulan cinayət əlaməti yoxdur. Sonra qeyd edilirdi ki, bu cür şikayətlərin bir daha təkrar olunmaması üçün jurnalın redaktoru Əliqulu Nəcəfov bu il sentyabrın 17-də komitəyə çağrılmış və bundan sonra bəhayilər əleyhinə material dərc etməyəcəyinə söz vermişdir. Komitə öz fikirlərini təsdiq üçün «Molla Nəsrəddin» oxucularının «Zakavkazye» qəzetində dərc olunmuş məqaləsini də hə-

min məktuba əlavə edib Qafqaz canişini dəftərxanasına göndərmişdir.

Mətbuat işləri üzrə Tiflis komitəsinin bu məktubu ilə bağlı iki faktа ayrıca diqqət yetirmək lazımdır: biri budur ki, Tiflis polistmeysteri «Molla Nəsrəddin» jurnalının həmin ildə buraxılmış 16-cı nömrəsindən 3505 nüsxə müsadirə etdiyi halda komitə Qafqaz canişini dəftərxanasına tirajın cəmi 1200 nüsxə olduğunu bildirir. Deməli jurnalın tirajı açıq şəkildə gizlədilir. İkincisi odur ki, mətbuat işləri üzrə Tiflis komitəsi təkcə bu məktubda deyil, jurnal haqqında dəfələrlə məsələ qaldırmasına, onu cinayət məsuliyyətinə cəlb etməsinə, ayrı-ayrı nömrələrini müsadirə etməsinə, çoxlu yazı və karikaturalarını daşdan sildirməsinə, üstünə qara çəkməsinə baxmayaraq, «Molla Nəsrəddin» jurnalını başqa idarə və şəxslərin hücumundan müdafiə etmişdir. Məsələn, 1913-cü ilin 16, 20 və 21-ci nömrələri ilə əlaqədar işlər bunu sübut edir. Mətbuat komitəsi özü 16 və 21-ci nömrələr haqqında cinayət işi qaldırdığı halda, Aşxabad bəhayilərinin 20-ci nömrə ilə əlaqədar qaldırdığı məsələdə jurnalı müdafiə edir. Əlbəttə bu, jurnala rəğbətdən doğmayıb, həmin materialların buraxılmasına imkan verən komitənin özünü müdafiə niyyəti ilə bağlı idi.

Beləliklə, jurnalın 20 və 21-ci nömrələrində bahayilərin dini başçısı Əbdülbəhaya aid karikatura və «Gimnazist» şerinə görə jurnalın redaktorları məhkəmə

məsuliyyətinə cəlb olunmuş və 1916-cı ilə qədər çar inzibati idarə orqanları arasında bu haqda çoxlu yazışmalar getmişdir.

* * *

20 və 21-ci nömrələrlə əlaqədar ittiham aktını alan Əliqulu Qəmküsar 18 oktyabr 1913-cü il tarixdə ərizə ilə məhkəmə prosesi zamanı vəkil, ekspertlər və şahidlər dəvət etməyə hökumətdən icazə istəyir. Vəkili kimi, o, «zədəgan» Eynəlibəy Sultanovu seçdiyini və işlə tanış olmaq üçün ona icazə verilməsini xahiş edir. «Ekspert» kimi isə «müsəlman ədəbiyyatı bilicisi, habelə rus dilini yaxşı bilən» Qori seminariyasının şəriət müəllimi Firudinbəy Köçərlinin və İranın Tiflisdəki vitse-konsulu Mirzə Məhəmməd xanı seçir. «Müsəlmanlar arasında yüksək sosial mövqeyə malik olan» və «Molla Nəsrəddin» jurnalının «ideya istiqaməti ilə yaxından tanış olan» şeyxül-islam Axund Pişnamazzadə, İran şahzadəsi Kazım Mirzə Qacar və Məcidüs Səltənə Əfşarı şahid kimi dindirməyi təklif edir. O öz ərizəsində yazırdı ki, göstərdiyim ekspertlər təyin edə bilərlər ki, «Gimnazist» şeri tək zahiri formasına görə deyil, həm də məzmununa görə düzgün tərcümə olunmamış və oradakı fikirlər təhrif edilərək parnoqrafik şəklə salınmışdır. Şahidlər isə təsdiq edə bilərlər ki, «Molla Nəsrəddin» jurnalı müsəlmanların eyiblərini açıb göstərərək onların sosial həyatında və məişətindəki bütün çatışmamazlıqlara mənfi münasibət bəsləyir və bu jurnalda dərc olunan bütün məqalələr oxucular

tərəfindən onların həyatında baş verən mənfiliklərin inkarı kimi başa düşülür».

Məhkəmə işi ilə əlaqədar olaraq, C.Məmmədquluzadə iki izahat yazmalı olmuşdur. Onlardan birincisi jurnalın 20-ci nömrəsində bəhayilərin dini rəhbəri Əbdülbəhanın karikaturasına görə ittiham işi ilə bağlı idi. İkincisi, «Gimnazist» şerinə görə ittiham işi ilə bağlı idi. Bu məsələlərlə əlaqədar ittiham aktları ilə tanış olan C.Məmmədquluzadə öz izahatlarında xahiş edir ki, Tiflis şəhəri şiə ruhani idarəsinin üzvü Poladzadə və Qori seminariyasının müəllimi F.Köçərli də ekspertlər siyahısına əlavə edilsin.

Hər iki izahatın axırında Mirzə Cəlil «məhkəmədə mən özümü müdafiə edəcəyəm» sözlərini yazaraq, vəkilə ehtiyacı olmadığını bildirir. Ancaq məhkəmə müttəhimlərin təklif etdiyi ekspert və şahidlərin prosesə çağrılmasına razılıq vermək istəmir. Ə.Nəcəfovun ciddi təkidi nəticəsində 1914-cü il martın 11-də Tiflis dairə məhkəməsi müttəhimlərin «öz hesablarına» ekspert və şahidlər dəvət etməsinə icazə verir.

Mart ayının 19-da N.A.Tarsaidzenin sədrliyi, məhkəmə üzvü A.A.Karasyev, fəxri barışdırıcı hakim K.M.Əlixanovun üzvülüyü, məhkəmə katibi vəzifəsini icra edən A.A.Qeqeçkorinin katibliyi və dairə məhkəməsi prokurorunun müavini V.A.Nazarovun iştirakı ilə Tiflis dairə məhkəməsinin qapalı iclası keçirilir. Burada «müttəhimlər» C.Məmmədquluzadə və Ə.Q.Nəcəfovla yanaşı

yuxarıda adları çəkilən vəkil, ekspert və şahidlər də iştirak edirlər. Senzor M.Ş.Mirzəyev isə mətbuat işləri üzrə Tiflis komitəsinin eksperti kimi məhkəmədə iştirak edir. F.Köçərli «Gimnazist» şeri ilə əlaqədar bildirir ki, «Ümumiyyətlə, «Molla Nəsrəddin» jurnalı müsəlmanların nöqsanlarına gülür və cəmiyyətə xeyir verir». Şeyxül-islam qeyd edir ki, jurnalın bu cür yazıları «...zərər deyil, xeyir verir». Qalan bütün ekspert və şahidlər də jurnalı müdafiə edən fikir söyləyirlər. «Gimnazist» şeri haqqında cinayət işi qaldırmış mətbuat işləri üzrə Tiflis komitəsinin nümayəndəsi kimi çıxış edən M.Ş.Mirzəyev də Əbdulbəha haqqında karikaturaya görə jurnala haqq qazandırmağa çalışır.

Vəkil, ekspertlər və şahidlərin tutarlı dəlillərlə əsaslandırılmış çıxışlarını nəzərə alan məhkəmə iclası «bir səslə olmasa da» «Molla Nəsrəddin» jurnalı redaktorlarına bəraət vermək hökmü çıxarır.

Tiflis dairə məhkəməsinin bu hökmündən narazı qalan prokuror müavini V.A.Nazarov Tiflis məhkəmə palatasına etiraz yazır və bildirir ki, bir sıra mülahizələrə görə Tiflis dairə məhkəməsinin hökmünü düzgün hesab etmir və həmin işə yenidən baxılmalıdır. Onun fikrincə, cəmiyyətdəki yaramazlıqları ifşa etmək müsbət hal olsa da, qəbul olunmuş ümumi ədəb qaydalarına zidd olan şer və şəkil vermək satirik jurnalın da səlahiyyətinə daxil deyil. Məhkəmə nəzərə almayıb ki, milyonlarla ardıcılı olan

«tanınmış peyğəmbər» Əbdülbəhanı və «göylərin elçisini» ələ salmağın özü cinayət hərəкətidir. Öz etirazında o yazırdı кi, satirik şəкlin xaraкteri elədir кi, onların «məzmunu ən avam iranlıya belə məlumdur və heç bir xüsusi izaha ehtiyacı yoxdur». V.A.Nazarov axırda bildirirdi кi, satiranın yaxşı və xeyirxah məqsədləri ola bilər. Laкin indiкi halda müttəhimlərin tətbiq etdiкləri forma sözsüz cəzaya layiqdir. O, tələb edirdi кi, Tiflis məhкəmə palatasında işə yenidən baxılsın, məhкəmənin höкmü ləğv olunsun və müttəhimlər haqqında yeni höкm çıxarılsın.

Bu məsələ ətrafında yenə də uzun müddət yazışma gedir və nəhayət 1915-ci il oкtyabrın 10-da Tiflis məhкəmə palatasında «Molla Nəsrəddin» jurnalının redaкtorları haqqında Tiflis dairə məhкəməsi proкurorunun müavini V.A.Nazarovun etirazına baxılır. A.İ.Çexovsкinin sədrliyi, кnyaz A.Q.Qolovani və S.F.Orlovun üzvlüyü palatanın proкuror müavini E.F.Lebedinsкinin iştiraкı və palata məhкəmə кatibinin köməкçisi A.N.Vasilкovun кatibliyi ilə кeçən məhкəmə iclası qərar çıxarır кi, müttəhimlər C.Məmmədquluzadə, Ə.Nəcəfov «hərəsi iкi yüz manat miqdarında pulla cərimə edilsinlər, əgər həmin pulu verməyə imкanları olmazsa, hərəsi iкi ay müddətində həbs cəzasına məhкum olunsun. Məhкəmə işi ilə əlaqədar xərclər müttəhimlər Cəlil və Əliqulunun üzərinə qoyulsun. Tiflis dairə məhкəməsinin 1914-cü il 19 mart tarixli höкmü ləğv olunsun. Azərbaycan dilində çıxan

«Molla Nəsrəddin»jurnalının 20 və 21-ci nömrələri məhv edilsin».

Ə.Nəcəfov Tiflis məhkəmə palatasının hökmündən senata kassasiya şikayəti verir. Ancaq 1916-cı il aprelin 16-da Senatın beşinci departamentində onun şikayətinə baxılsa da bir nəticə vermir. Beləliklə də jurnalın 1913-cü il 20 və 21-ci nömrələri haqqında 1913-cü ilin avqustunda qaldırılmış məhkəmə işi 1916-cı ilin aprelində sona yetir.

1914-cü ilin oktyabr ayında 25-ci nömrəsi çıxdıqdan sonra «Molla Nəsrəddin»in nəşri dayandırılsa da rəsmi idarələr arasında jurnal haqqında yazışmalar davam etmişdir. 1916-cı il sentyabr ayının 27-də mətbuat işləri üzrə Tiflis komitəsi Petroqrada mətbuat işləri üzrə baş idarəyə göndərdiyi məktubunda «Molla Nəsrəddin» jurnalının 20 və 21-ci nömrələrinin müsadirə edilməsi, redaktorların məsuliyyətə cəlb olunması haqqında ətraflı məlumat verir. Komitə Tiflis dairə məhkəməsi prokuroruna həmin il 29 sentyabr tarixli məlumatında «Molla Nəsrəddin» jurnalının 1913-cü il 20-ci nömrəsinin də qadağan olunmuş nəşrlər siyahısına daxil edildiyini bildirir.

* * *

Çar irticasının tüğyan etdiyi illərdə jurnalın təqibinin səbəbləri çoxşaxəli olmuşdur. Əgər jurnal bir tərəfdən İranın daxili işlərinə qarışmaqda və İran şahına

hücumda ittiham olunursa, digər tərəfdən Türkiyə sultanına aid karikaturalar verməkdə təqsirləndirilir. Qadın azadlığı məsələlərinə görə, bəhayilik dini təriqətinin tənqidinə görə və s. təqiblər də «Molla Nəsrəddin» və onun qələm ordusunun işini xeyli çətinləşdirir. Ancaq öz nəşri zamanı jurnal nə qədər çətinliklərə, güclü təqiblərə məruz qalmışsa da, Mirzə Cəlilin sonralar yazdığı kimi «şahların, sultanların və şəriətmədarların nüfuzunu qırmaq» üçün heç şeydən çəkinməmiş «milyonlar dəfə bu ünsürlərə qələm ilə zərbə endirməklə» bu sahədə böyük işlər görmüşdür.

«Molla Nəsrəddin» jurnalının bütün bu maneləri qıraraq uzun illər yaşaya bilməsinin səbəblərindən biri də dostların yaxından köməyi olmuşdur.

Mündəricat

Bir neçə söz.....3
Sizi deyib gəlmişəm.....6
Böyük amallar carçısı.....18
Əkiz doğuldular..... 41
İstibdadla üz-üzə..... 53
Mollalar tufan qoparır.....106
"Nəhs və tərs" 1913-cü il.....120

Ataxan Paşayev

"Molla Nəsrəddin": dostları, düşmənləri

Nəşriyyatın direktoru E.A.Əliyev
Mətbəənin direktoru S.O.Mustafayev
Texniki redaktoru M.H.Xanbabayeva
Kompyuter dizaynı K.R.Nəcəfov

Çapa imzalanıb: 25.01.2010.
Ş.ç.v. 9,25. Tiraj 500.
Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi.
Bakı, M.Müşfiq küç.,2a.Tel: 447-49-71